www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 sentyabr 2017-ci il Cümə axşamı № 194 (6808) Qiyməti 60 qəpik

## Xəbər

**Biləsuvarda sürücü prinsipiallığı 5 nəfərin həyatına son qoydu**

yazısı səh.14-də

## Gündəm

**"Cahangir Hacıyev, sən Beynəlxalq Bankda baş verənlərə görə günahkarsan" - sabiq nazirin ittihamı**



Sabiq maliyyə naziri Fikrət Yusifov Beynəlxalq bankın sabiq şefinə tutarlı cavab verdi

yazısı səh.4-də

**İsraildən və yəhudi lobbisindən Ermənistana tərs şillə - "Prioritetimiz Azərbaycandır!.."**

yazısı səh.8-də

**Dövriyyəyə yeni pullar gəlir - sabiq nazir təkliflə çıxış etdi**

yazısı səh.6-da

**ÜAK məsələsində Rusiyanın inadkarlığının səbəbi**

yazısı səh.9-da

**Şimali İraqdan çəkiləcək qaz kəməri Azərbaycanın boru kəmərinə birləşsə...**

yazısı səh.6-da

**Bizə güclü və demokratik Rusiya lazımdır, yoxsa RF-nin çöküşü?**

yazısı səh.9-da

**BMT Baş Assambleyası - dünyanın savaş meydanı...**

yazısı səh.10-da

**Şantaj yolu tutan Ermənistan təklənir**

yazısı səh.11-də

**Dünyanın yeni dəbi - İnstagram milyonçuları; görməmişlik, yoxsa...**

yazısı səh.13-də

**Ağcabədiyə qonaq gedən Türkiyə vətəndaşını döyüb pulunu aldılar**

yazısı səh.14-də

**Aİ ilə Azərbaycan arasında danışıqların yeni mərhələsi - 28 səfir Bakıya gəlir**

yazısı səh.2-də

# İLHAM ƏLİYEV BMT TRİBUNASINDAN SƏRKİSYANIN YALANLARINI FAŞ ETDİ - HADİSƏ KİMİ ÇIXIŞ

Azərbaycan prezidenti Serj Sərkisyanın həyasız iddialarını yalanladı, onun Xocalı soyqırımının müəlliflərindən biri olduğunu söylədi; **işğalçı ölkəni və onun rəhbərliyini xəbərdar etdi:** "Ermənistan ötən ilin aprelində aldığı dərsi unutmamalıdır..., lazım gəlsə, o, yenə cəzalandırılacaq"



yazısı səh.3-də

## Təhlükə Ziya Məmmədova yaxınlaşır: "boy göstərmək" istəyi klana baha başa gəlir

Sabiq nazirin ailə üzvünün Türkiyədə dəbdəbəli moda dəfiləsi keçirməsini əks etdirən fotoların ölkə mediasına sızdırılmasından sonra bacısının məktəbində yoxlamalar başladı; bu məsələ təkcə məktəb direktorunun işdən çıxarılması ilə bitməyə də bilər...

yazısı səh.5-də



**Elman Rüstəmovun manatla bağlı nikbin açıqlamasına inanaqmı...**

yazısı səh.7-də



*Qüdrət Həsənquliyev:*

**"İqtidar bu mitinqdəki çıxışları tərcümə edib dünyada yaymalıdır ki, görsünlər "diktatura" olan ölkədə bu mümkündürmü"**

yazısı səh.12-də



**Əli Ömərovun Milli Şuranı dəstəkləməsinin pərdəarxası - biznes marağı...**

yazısı səh.12-də

YENİ MÜSAVAT
N 194 (6808) 21 sentyabr 2017



## Müdafiə naziri səfərbərlik və ehtiyat üçün yaradılmış birlik və birləşmələri yoxladı

**Müdafiə Nazirliyinin (MN) rəhbərliyi döyüş əməliyyatları vaxtı qısa zamanda açılaraq tətbiq olunması üçün nəzərdə tutulmuş birlik və birləşmələrin səfərbərlik ehtiyatlarının hazırlıq səviyyəsini yoxlayıb.**

MN-in saytında bildirilir ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənov genişmiqyaslı təlimlərdə iştirak edən qoşunların komplektləşdirilməsi, döyüş uzlaşması, ştat quruluşu və döyüş imkanları barədə müxtəlif səviyyəli komandirlərin məruzələrini dinləyib.

Ehtimal olunan müharibə dövrü də diqqətə alınmaqla səfərbərlik üçün nəzərdə tutulmuş müxtəlif hərbi hissələrin saxlanclarında qorunan döyüş texnikaları, artilleriya qurğuları, eləcə də eşalonlaşdırılmış ehtiyat sursat, mərmilər və digər maddi-texniki vəsaitlərin anbarlarına baxış keçirilib.

Nazir saxlanmaya qoyulmuş hərbi texnikaların döyüşə hazırlıq səviyyəsini, onların imkanları və effektiv istifadəsini yoxlayıb.

Z.Həsənov həmçinin təlimlərdə iştirak etmək üçün ehtiyatdan çağırılan şəxsi heyətin, texnikaların qəbulu və komplektləşdirilməsi məntəqələrinin fəaliyyəti ilə tanış olub, müvafiq vəzifəli şəxslərin məruzələrini dinləyib və tapşırıqlarını verib.

**Müdafiə naziri şəxsi heyətin hazırlığını, təşkilat və idarəetmə bacarığını, eləcə də səfərbərlik üçün nəzərdə tutulmuş və qısa müddətli saxlanmaya qoyulan döyüş texnikası, silah sursatların texniki vəziyyətini yüksək qiymətləndirib.**

## Akif Çovdarov gələn həftə son söz deyəcək

**Sabunçu Rayon Məhkəməsində ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarovun və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın xəbərinə görə, Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi ilə keçirilən prosesdə A.Çovdarovun vəkili Sadiq Rəsulov çıxışı edib. O, A.Çovdarova verilən ittihamların əsassız olduğunu deyib. Vəkil hüquqlarını müdafiə etdiyi şəxs barəsində bəraət hökmünün çıxarılmasını istəyib.

Günün ikinci yarısında A.Çovdarovun digər vəkilləri Kamandar Nəsibov və Şahin Rəfiyev çıxış ediblər. Onlar hüquqlarını müdafiə etdiyi şəxsə bəraət istəyiblər.

Bununla da məhkəmədə çıxışlar mərhələsi bitib və təqsirləndirilən şəxslərə son söz söyləmələri üçün vaxt verilib.

Proses sentyabrın 27-də davam etdiriləcək.

Vəkil çıxışını davam etdirir.

**Qeyd edək ki, ötən iclasda prokuror təqsirləndirilən şəxslərdən Akif Çovdarovun 15 il, Səlim Məmmədovun 12 il, Akif Əliyevin 9 il, Orxan Osmanovun isə 9 il il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01; 434 01 33**


# Aİ ilə Azərbaycan arasında danışıqların yeni mərhələsi - 28 səfir Bakıya gəlir

**Avropa İttifaqının (Aİ) siyasət və təhlükəsizlik məsələləri üzrə nümayəndə heyəti Bakıya səfər edəcək.**

Bunu jurnalistlərə Aİ-nin Azərbaycandakı nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Kestutis Yankauskas deyib.

30 nəfərdən ibarət olan, o cümlədən 28 ölkənin səfirinin daxil olduğu nümayəndə heyətinin Bakıya oktyabrın 3-də gələcəyi gözlənilir.

K.Yankauskasın sözlərinə görə, səfər zamanı əsas diqqət Aİ ilə Azərbaycan arasında siyasət və təhlükəsizlik sahələrində əməkdaşlığa yönələcək.



O qeyd edib ki, hazırda səfərin proqramı ilə bağlı hazırlıqlar aparılır.

Bu arada Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında yeni saziş üzrə danışıqların növbəti mərhələsinin vaxtı açıqlanıb.

APA-nın məlumatına görə, Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas bildirib ki, danışıqların növbəti mərhələsi sentyabrın 28-29-da Brüsseldə keçiriləcək.

"Brüsseldə bir sıra görüşlər olacaq. Təbii ki, bu görüşlər üzərində hələ iş aparılır. Bununla yanaşı, Brüsseldə həmin vaxt alt komitələrdən birinin iclası və Yeni Tərəfdaşlıq Prioritetlərinin də müzakirəsi olacaq. Yeni Tərəfdaşlıq Prioritetləri sənədi tərəflər arasında gələcək proqramlar, əlaqələrin inkişafı və maliyyə yardımı proqramları üçün baza rolunu oynayacaq", - deyə səfir qeyd edib.

"Mən Dağlıq Qarabağ məsələsinin nə dərəcədə həssas olduğunu anlayıram" - deyə, səfir Kestutis Yankauskas deyib.

O, Aİ-nın bu məsələ ilə birbaşa məşğul olmadığını bildirib, bununla belə, qurumun məsələni çox diqqətlə izlədiyini vurğulayıb.

"Həm yerlərdə, həm də beynəlxalq platformada bu münaqişənin həlli prosesini diqqətdə saxlayırıq. Münaqişənin həlli istiqamətində format fəaliyyət göstərir. Nyu-Yorkda siyasi səviyyədə görüş gözlənilir. Biz bunları izləyirik.

**Münaqişə və münaqişə ətrafındakı mövzular Azərbaycanla imzalanacaq yeni saziş çərçivəsində, o cümlədən "Şərq Tərəfdaşlığı" sammiti öncəsi müzakirə olunacaq", - deyə o bildirib.**



## ABŞ konqresmenlərinin işğal olunmuş Azərbaycan ərazilərinə qanunsuz səfəri araşdırılır

**"ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvləri Frenk Pallone və Tulsi Qebrdin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri məsələsi araşdırılır. Araşdırma yekunlaşdıqdan sonra onlara münasibətdə müvafiq zəruri addımlar atılacaq".**

Bunu APA-ya açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.

O bildirib ki, özünü ABŞ Konqresinin üzvü kimi təqdim edən bu şəxslər artıq uzun illərdir ABŞ erməni lobbisi və Ermənistan tərəfindən maliyyələşdirilirlər və tam şəkildə ABŞ erməni lobbisindən asılı vəziyyətdədirlər.



## Hökməlidə sürüşmə sahəsində aktivlik müşahidə edilir

**Hökməlidə sürüşmə prosesinin dinamikasında aktivlik müşahidə edilir.**

Bu barədə APA-ya Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının dəstə rəisi Rafiq Həsənov məlumat verib.

**Dəstə rəisinin sözlərinə görə, Hökməlidə yamacın kəsilməsi sürüşmə - çökmə prosesinin başlamasına təkan verib:** "Yaxınlıqdakı Hökməli vulkanının yüz illər boyu püskürməsi, texnogen suların, atmosfer çöküntülərinin təsirindən vulkan külləri axıcı hala gəlib. Yamacın kəsilməsi ilə isə onun dayanıqlığı itib və sürüşmə - çökmə prosesi baş verib".

**R. Həsənov qeyd edib ki, Hökməlidə yol boyunca da çatlar əmələ gəlib:** "Ərazidə qırılma qaşının hündürlüyü 60-80 sm-ə çatır. Bəzi yerlərdə isə çatların eni 50 sm-dir".

**Qeyd edək ki, ətrafda qəzalı vəziyyətə düşən evlər var.**

## Məhkəmə Şahin Sultanovla bağlı prokurorun protest vermə müddətini bərpa edib



**Bakı Hərbi Məhkəməsində Müdafiə Nazirliyi Hərbi Dəniz Qüvvələrinin sabiq komandanı, vitse-admiral Şahin Sultanov və digərlərinin barəsindəki hökmdən prokurorun verdiyi şikayətə baxılıb.**

Vəkil Telman Abdıyevin APA-ya verdiyi məlumata görə, ötən həftə hakim Elbəy Allahverdiyevin sədrliyi ilə iclas keçirilib və prokurorun protest vermə müddəti bərpa edilib.

Qeyd edək ki, bir müddət əvvəl Bakı Apellyasiya Məhkəməsində Ş.Sultanov və digərlərin şikayəti üzrə məhkəmə iclası başlayıb. İclasda hakim bildirib ki, prokuror Bakı Hərbi Məhkəməsinin hökmündən apellyasiya protesti verib və Bakı Hərbi Məhkəməsinin hakimi Həbib Həsənov işin yenidən Bakı Hərbi Məhkəməsinə qaytarılması üçün müraciət edib. Ş.Sultanov buna etiraz etsə də, hakimlər kollegiyası müraciəti təmin edib və iş baxılması üçün yenidən Bakı Hərbi Məhkəməsinə qaytarılıb.

Qeyd edək ki, Bakı Hərbi Məhkəməsinin hökmü ilə Şahin Sultanov 8 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Onun cəzası 3 il sınaq müddəti olmaqla şərti hesab olunub.

Digər təqsirləndirilənlər Qalib Hacıyev 2 il sınaq müddəti təyin edilməklə 5 il şərti cəzaya məhkum edilib. Həbsdə olan Kazım Əsgərova da şərti cəza verilib. O, məhkəmə zalından azadlığa buraxılıb. Kamandar Paşayev, Vüqar Hacıyev, Əziz Xıdırov da şərti cəzaya məhkum edilərək, həbsdən azad ediliblər.

Ş.Sultanov Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) və 179.3.2-ci (mənimsəmə - külli miqdarda törədildikdə) maddələri ilə təqsirləndirilib.

## Düzəliş

**"Yeni Müsavat"ın 20 sentyabr sayında Hesablama Palatasının kollegiya iclasında "Dövlət büdcəsindən Azərbaycan Dövlət İqtisad Universitetinə ayrılan vəsaitlərin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrasına dair" auditin nəticələri üzrə hesabatla bağlı yazı hazırlanıb. Hesabatda Azərbaycan Dövlət İqtisad Universitetində 2012-2014-cü illəri əhatə edən yoxlamaların nəticəsi açıqlanıb. Hesabda bildirilib ki, təhsil haqqı üzrə daxilolmaların uçotunun aparılması, təhsil haqlarının yığılması və universitetin bank hesabına köçürülməsi sahəsindəki nöqsanların ciddiliyini, eləcə də təhsil haqqı üzrə debitor-kreditor borclarının uçotdan yayındırılmasını nəzərə alaraq qanunamüvafiq tədbirlərin görülməsi üçün müvafiq materialların Baş Prokurorluğa göndərilməsi barədə qərar qəbul edib. Həmin dövrdə universitetə Şəmsəddin Hacıyev rəhbərlik etsə də, yazıda texniki səbəbdən hazırkı rektorun Ədalət Muradovun adı hallanıb.**

**Yanlışlığa görə məsul şəxslərə töhmət verilib.**

## Azəri-Çıraq-Günəşliyə 42,7 mlrd. dollar sərmayə qoyulacaq

**Azəri-Çıraq-Günəşli (AÇG) yataqlar blokunun balans ehtiyatı 16 mlrd. barrel (2,2 mlrd. ton) həcmində dəyərləndirilir.**

"APA-Economics" xəbər verir ki, bu barədə SOCAR-ın sərmayələr və marketinq üzrə vitse-prezidenti Elşad Nəsirov "İki sahil" qəzetinin xüsusi buraxılışında yer alan məqaləsində deyilir.

Onun sözlərinə görə, 1997-ci ildən 2017-ci ilin avqust ayının sonlarınadək AÇG-dən hasil edilmiş neftin ümumi miqdarı 3,218 mlrd. barrel və ya 435 mln. ton olub. "Yatağın gələcək uzunmüddətli istismar dövrü ərzində əlavə olaraq 4,7 mlrd. barrel və ya 635 mln. ton neftin çıxarılması planlaşdırılır. Saziş dövrünün sonunadək cəmi sərmayə qoyuluşunun hazırkı proqnoza əsasən 42,7 mlrd. dollar və əməliyyat xərclərinin 14,4 mlrd. dollar olması planlaşdırılır", - deyə vitse-prezident qeyd edib.

Yeni MÜSAVAT
N 194 (6808) 21 sentyabr 2017

# İlham Əliyev BMT tribunasından Sərkisyanın yalanlarını faş etdi - hadisə kimi çıxış

**Sentyabrın 20-də Azərbaycan prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 72-ci ali toplantısı çərçivəsində çıxış edib. Gözlənildiyi kimi, ölkə başçısı öz çıxışında Dağlıq Qarabağ münaqişəsi və erməni işğalına xüsusi yer ayırıb.**



## Azərbaycan prezidenti Serj Sərkisyanın həyasız iddialarını yalanladı, onun Xocalı soyqırımın müəlliflərindən biri olduğunu söylədi; işğalçı ölkəni və onun rəhbərliyini xəbərdar etdi: "Ermənistan ötən ilin aprelində aldığı dərsi unutmamalıdır..., lazım gəlsə, o, yenə cəzalandırılacaq"

Prezident öz çıxışında Azərbaycan torpaqlarının 20 faizinin 25 ildən artıqdır ki, Ermənistanın işğalı altında olmasına diqqət yönəldib və bəyan edib ki, Dağlıq Qarabağ Azərbaycanın qədim və tarixi torpaqlarıdır (APA): "Ermənistanın işğalı nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistanda, Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş digər rayonlarında azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirib. Ermənistan azərbaycanlılara qarşı Xocalı faciəsi törədib. Bu faciə dünyanın 20-dən artıq ölkəsi tərəfindən rəsmən tanınıb. 1992-ci ilin 26 fevralında Ermənistan 613 Xocalı sakinini qətlə yetirib. Onların arasında 106 qadın və 63 uşaq var. Bu cinayəti törədənlərdən biri də Ermənistanın hazırkı prezidentidir. Aparıcı beynəlxalq təşkilatlar Ermənistan Silahlı Qüvvələrinin Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılmasını tələb edən qətnamələr qəbul edib. BMT Təhlükəsizlik Şurasının da 4 qətnaməsi var".

**Prezident daha sonra deyib**: "Lakin Ermənistan qətnamələri yerinə yetirmir, 24 ildir ki, BMT qətnamələrinə əhəmiyyət vermir və cəzalandırılmır. Bəzən BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün içində icra olunur. Bizim vəziyyətimizdə isə 24 ildir, icra olunmur. Bu, ikili standartdır və qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiya tətbiq olunmalıdır. BMT-də aparılmalı olan islahatlardan biri də Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icra mexanizmləri ilə bağlı olmalıdır. Ermənistan "status-kvo"nun dəyişməməsi üçün hər şey edir. Substantiv danışıqları bloklayır. ATƏT-in Minsk Qrupunun həmsədrləri dəfələrlə bəyan edib ki, status-kvo qəbuledilməzdir".

**Prezident daha sonra təcavüzkara qarşı beynəlxalq təzyiqin olmamasına diqqət yönəldib:** "Ermənistan diktatorluğuna qarşı sanksiyalar tətbiq olunmur. Bu dayandırılmalıdır. Ötən ilin aprelində Ermənistan daha bir cinayət törədib. Nəticədə Azərbaycanın 6 dinc sakini öldürülüb, cavab hücumu ilə Azərbaycan Ordusu işğal olunmuş ərazilərin bir hissəsini azad edib və bayrağını həmin ərazilərdə ucaldıb. Ermənistan rəhbərliyi bu dərsi unutmamalıdır. Əks halda növbəti təxribatın cavabı daha ağrılı olacaq.

Döyüşdə itirən Ermənistan yenidən Azərbaycanın kəndlərinə hücum edib. Bu ilin iyulunda hədəfli hücum nəticəsində Alxanlı kəndinə edilən hücum zamanı 2 nəfər öldürülüb. Bunlar 2 yaşlı Zəhra Quliyeva və onun nənəsidir. Beynəlxalq ictimaiyyət erməni terrorizmini və faşizmini dayandırmalıdır. Azərbaycan münaqişəsinin sülh yoluna sadiqdir. Lakin erməni hərbi təxribatı davam edərsə, Azərbaycan öz əhalisini müdafiə edəcək. Lazım gəlsə, ötən ilin aprelində olduğu kimi, Ermənistan yenə cəzalandırılacaq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn prinsipləri əsasında həll olunmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir".



***

Azərbaycan prezidentinin BMT tribunasında bu çıxışı xüsusən də erməni prezidenti Serj Sərkisyanın bir gün öncə etdiyi, bütünlüklə Azərbaycan dövlətinə qarşı əsassız ittihamlar və işğalçı siyasətə haqq qazandırmaq üzərində qurulmuş təxribatçı çıxışı ilə, o sırada Qarabağla bağlı həyasız iddiaları ilə müqayisədə kontur-arqumentlər baxımından qat-qat sanballı və effektli hesab oluna bilər *(Düşmən ölkə başçısının çıxışına ayrı səhifədə ətraflı yer verilib).* Bir neçə aspektdən.

Əvvəla, Azərbaycan prezidentinin çıxışı beynəlxalq normalardan qaynaqlanan, qlobal sülhə xidmət edən və beynəlxalq gündəmi əhatə edən çıxış kimi yadda qalıb. Sərkisyanın çıxışının əsasını isə sırf erməni işğalına, dağıdıcı separatizmə haqq qazandıran cılız və əsassız iddialar üzərində qurulmuşdu. Halbuki dünya birliyi xüsusən də Rusiyanın timsalında artıq işğalçılıq və separatçılıq siyasətindən bezib, bu cür siyasətin necə ağır nəticələr verdiyini yaxşı bilir və o üzən ona neqativ münasibətdədir və qlobal sülhə onu ciddi təhdid sayır.

İşğalçı bir ölkənin başçısı kimi Serj Sərkisyanın bu əsassız, sülh və barış yox, müharibə qoxusu verən təxribatçı çıxışı da bu mənada BMT üzvləri arasına rəğbət doğura bilməzdi - üstəlik, Rusiyanın regiondakı yeganə hərbi forpostu kimi Ermənistanın liderinin beynəlxalq hüquq normalarından, millətlərin öz müqəddəratını təyinetmə haqqından dəm vurması gülünc olduğu qədər absurd görünürdü.

Bu fonda prezident İlham Əliyevin BMT-nin təməl prinsiplərinə söykənən çıxışı diqqət çəkməyə və rəğbət doğurmaya bilməz. Elə bu iki çıxışdakı əsas fərqli məqam da prinsipial əhəmiyyət daşıyır və Ermənistanın doğrudan da dünya birliyi üçün yad, ögey bir ölkə olduğuna şübhə yeri qoymur. O Ermənistan ki, 2014-cü ildə Rusiya daxil, daha 7 ölkə ilə birgə beynəlxalq birliyin iradəsi əleyhinə gedərək, Ukraynanın ərazi bütövlüyü əleyhinə, Krımın Rusiyaya ilhaqına səs verib, işğalçılığı və separatizmi dəstəkləyib.

Azərbaycan isə öz prezidentinin çıxışı timsalında bir daha BMT normalarına və prinsiplərinə saygılı bir dövlətin başçısı kimi dünya dövlətləri sırasında layiqli yer tutmağa Azərbaycanın tam haqqı çatdığını növbəti dəfə ortaya qoydu. O üzdən 30 ildir dağıdıcı erməni separatizmindən əziyyət çəkən bir dövlətin başçısı kimi prezident İlham Əliyevin çıxışı öz qlobal əhəmiyyəti və önəmi, həmçinin aktuallığı ilə etibarilə qat-qat effektli sayıla bilər.

Bu yerdə bir neçə mühüm məqamı müqayisəli şəkildə təqdim eləməyə dəyər. Məsələn, Serj Sərkisyan artıq mövcud olan bir erməni dövlətinin - Ermənistanın varlığı fonunda ikinci saxta erməni dövlətinin tanınması vacibliyindən, daha doğrusu, dünya birliyinə zorla sırınması zərurətindən dəm vurursa, ölkələrin ərazi bütövlüyü kimi BMT-nin təməl prinsipini saymazlıqdan gəlirsə, beləliklə də dünya birliyinə sayğısızlıq göstərirsə, Azərbaycan prezidenti dağıdıcı separatçılığın qlobal sülhə hansı təhlükə daşıdığını arqumentli şəkildə ortaya qoyur. Belə vəhşi separatçılığın beynəlxalq sülhə ciddi təhlükə vəd etməsindən həm də beynəlxalq hüquq normalarının diktə elədiyi rakursda danışır. Əsas fərq həm də bundadır.

Yəni Sərkisyanın çıxışı BMT üzvü olan dövlətlərin sərhədlərinin zorla dəyişdirilməsi üzərində qurulmuş və dağıdıcı separatizmə dəstək niyyəti güdürdüsə, Azərbaycan liderinin arqumentli çıxışı əksinə, beynəlxalq hüquq normalarına, sərhədlərin toxunulmazlığına, deməli, qlobal sülhə sayğı və inama əsaslanırdı.

**Erməni prezidentinin öz çıxışında dünya ictimaiyyətini çaşdırmağa yönəlik yalanları, o sırada Ermənistanın özü etnik təmizləmə aparıb monoetnik dövlətə çevrildiyi halda, Azərbaycanı etnik təmizləmədə suçlaması kimi həyasız iddialara baş vurması müqabilində Azərbaycan prezidentinin əksinə, arqumentli və konkret faktlara, beynəlxalq sənədlərə və hüquqa söykənən faktlardan çıxış eləməsi əlbəttə ki, Sərkisyanın çıxışının olan-qalan siyasi və təbliğati effektini də basdırmış oldu.**

**❑ Musavat.com, Analitik xidmət**

# Azərbaycan böyük savaşa hazırlaşır...

## Elman Nəsirov: "Hadisələr ən mürəkkəb ssenari üzrə hərəkət edə bilər"


Elman Nəsirov

**Son günlər Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, ordumuzun gücünü artırmaq, eləcə də, ölkəmizə yaxın dövlətlərlə hərbi əlaqələrini daha da genişləndirmək üçün sistemli addımlarını müşahidə etməkdəyik. Təkcə baş verən üç mühüm hadisəni göstərmək kifayət edir ki, rəsmi Bakı işğal olunmuş ərazilərini geri qaytarmaq üçün çox ciddi səylə çalışır, planlar qurur.**

Bu üç mühüm hadisədən biri ötən həftənin ilk günləri müdafiə nazirimiz Zakir Həsənovun İsrailə çox günlük səfəri oldu. Səfər kifayət qədər uğurlu alındı. Nazir ölkəyə dönən kimi həm Azərbaycan Silahlı Qüvvələrinin yeni döyüş texnikasının sınaqlarını da nəzərdə tutan 15 minlik genişmiqyaslı hərbi təlimi, həm də qardaş Türkiyə ilə birgə hərbi-hava qüvvələrinin ortaq təlimləri start götürdü. Ekspertlər Z.Həsənovun sırf hərbi xarakter daşıyan İsrail səfərinin ardından Azərbaycanın həyata keçirdiyi iki möhtəşəm təlimi müsbət dəyərləndirir, rəsmi Bakının bu addımları ilə təcavüzkar Ermənistana və onun havadarlarına ciddi mesaj verdiyini qeyd edirlər.

Baş verənlərin fonunda yeganə nüvə müttəfiqimiz olan Pakistan İslam Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı, aviasiya marşalı Süheyl Amanın sentyabrın 19-da Bakıya gəlişi əsl yerinə düşdü. Bu səfərlə Azərbaycan-Pakistan hərbi-texniki əməkdaşlıq əlaqələri daha da gücləndirildi.

Bura prezident İlham Əliyevin BMT-dəki çıxışını da əlavə etsək, aydın bir mənzərə yaranır...

Heç şübhəsiz ki, bu mühüm hadisələr diqqət çəkməyə bilməz. Artıq Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün böyük savaşa hazırlaşdığı barədə səslənən fikirlərin sayı durmadan artır. Son 10 gündə baş verən bu üç mühüm hadisənin təsadüf olmadığı vurğulanır.

**Politoloq, deputat Elman Nəsirov** hadisələrin üst-üstə düşməsindən danışdı: "Üst-üstə düşən bu üç mühüm hadisə diqqəti cəlb edən məqamlardır. Amma bir şeyi qeyd edim ki, Azərbaycan dövlətinin və ölkə prezidentinin müəyyən etdiyi siyasət sistemli, məqsədyönlü siyasətdır. Addımlar bu şəkildə atılır. Bu nöqteyi-nəzərdən bu hadisələrdə təəccüblü heç nə yoxdur. Azərbaycanın böyük savaşa hazırlaşdığı, eləcə də, ərazi bütövlüyünü təmin etmək üçün yürüdülən siyasətə gəlincə, burada da elə bir ciddi dəyişiklik yoxdur. Hər zaman ölkə başçısı söyləyib ki, biz bu münaqişəni dinc yolla həll etmək istəyirik. Eyni zamanda, cənab prezident onu da qeyd edir ki, hər zaman müharibəyə hazır vəziyyətdə olmalıyıq. Bu səbəbdən də büdcəmizdə ən böyük xərclər hərbi vəsaitlər sayılır. Nə qədər torpaqlarımız işğal altındadır, bu belə də olacaq. Azərbaycanın özünün hərbi təlimlər keçirməsi, eyni zamanda, Türkiyə ilə birgə təlimlər keçirməsi məntiqlidir. Azərbaycanın münaqişənin həlli ilə bağlı məsələdə diqqəti cəlb edən yeni bir şey yoxdur. Həmin xətt qorunub saxlanılır, bu xətt də münaqişənin dinc yolla həllidir. Biz münaqişənin masa arxasında həllində istəkliyik. Amma hər şeyin bir sonu olduğu kimi, əgər danışıqlar nəticə verməsə, o zaman hər bir halda müharibəyə hazır vəziyyətdə olmalıyıq. Bu gün Ermənistan prezidenti BMT-nin Baş Məclisinin 72-ci sessiyasında 1988-ci ilə qayıdırmış kimi bəyanatla çıxış edir. Deyir ki, yalnız xalqların öz müqəddəratını təyin etmə prinsipi öz həllini tapmalıdır. Bu da təbii ki, sülh danışıqlarına çox ciddi zərbədir. Hesab edirəm ki, müdafiə nazirimizin İsrail səfəri, orada hərbi-texniki əməkdaşlıq məsələlərinin müzakirə edilməsi, Azərbaycanda hərbi təlimlərin keçirilməsi, Türkiyə Silahlı Qüvvələri ilə birlikdə bunların təşkili, eyni zamanda, Pakistanın Hərbi Hava Qüvvələri komandanının Bakıya səfəri ölkəmizin müdafiə qüdrətinin daha da yüksəlməsinə xidmət göstərir. Torpaqlarımız azad olunarsa, o zaman hərbi xərclərimizə yenidən baxa bilərik və həmin vaxt hərbi xərclər öncül sırada olmaya bilər. Bu məsələlərdən düşmən tərəf nəticə çıxarmalıdır. Əks təqdirdə hadisələr ən mürəkkəb ssenari üzrə hərəkət edə bilər. Burada da bütün məsuliyyət Ermənistanın, ona himayədarlıq edənlərin üzərinə düşəcək. Ən böyük məsuliyyət də ATƏT-in Minsk qrupunun üzərinə düşəcək. Bugünkü reallıq bundan ibarətdir".

**❑ Cavanşir ABBASLI**

# "Cahangir Hacıyev sən Beynəlxalq Bankda baş verənlərə görə günahkarsan" - sabiq nazirin ittihamı

## Sabiq maliyyə naziri Fikrət Yusifov Beynəlxalq bankın sabiq şefinə tutarlı cavab verdi

**Azərbaycan Beynəlxalq Bankı (ABB)İdarə Heyətinin keçmiş sədri Cahangir Hacıyevin ölkənin 15 milyard manatını darmadağın etməsi haqda müzakirələr davam edir. C.Hacıyev hazırda 15 illik cəzasını çəkir, ölkə iqtisadiyyatına cavabdeh olan şəxslər isə onun 15 milyardlıq yeyintisinin yerini doldurmaq üçün imkanlarını səfərbər ediblər.**

Vaxtilə ABB-də gedən neqativ proseslər haqda mətbuatda, xüsusən də "Yeni Müsavat"da saysız-hesabsız yazılar dərc olunurdu. Həmin dövrdə Cahangir Hacıyev özünün himayəçiləri və qudasının sayəsində həmin yazılarda sadalanan faktların araşdırılmasının qarşısını almağı bacarır, haqq səsləri boğa bilirdi. Beləcə xırda qanunsuzluqların cəzasızlığından yaranan arxayınlıq böyük məbləğlərin ələ keçirilməsi üçün zəmin yaratdı. Daha böyük məbləğlər oğurlandı, talan edildi. Əslində Cahangir Hacıyevə ən böyük pisliyi himayəçiləri ediblər - mətbuatda yazılanların araşdırılmasının qarşısını almaqla onu böyük cinayətlərə sürükləyiblər.

"Azərbaycan Beynəlxalq Bankından 2009-cu ilin oktyabrından 2015-ci ilin martınadək həmin dövrdə rəhbərlikdə təmsil olunan şəxsin yaxınlarına zəmanətsiz 1.3 milyard manat, 1.4 milyard dollar və 300 milyon avro verib, ölkədən 3.7 milyard dollar, 1.1 milyard avro çıxarılıb. Cənubi Qafqazın ən böyük bankında rasional idarəçilik deyil, məqsədyönlü talançılıq olub, nəticədə dövlət maliyyə sisteminin balansı pozulub, bank sisteminin "onurğa sütunu" zədələnib" - **iqtisadçı ekspert Qubad İbadoğlu** bu sözləri iki il əvvəl Cahangir Hacıyevin istefasından sonra demişdi. Ümumiyyətlə isə bank sektorunda gedən proseslərdən xəbərdar olan əksər iqtisadçılar ABB-dəki talançılıq haqda çox ciddi faktları sadalamaqla danışırlar. **İqtisadçı Rövşən Ağayev** mətbuata açıqlamalarından birində ABB vasitəsilə 8 milyard dollara yaxın vəsaitin iki kanalla mənimsənildiyini açıqlamışdı.

**Sitat:** "Bir kanal ondan ibarətdir ki, ayrı-ayrı vətəndaşların adına iri məbləğdə kredit yazılıb, şəxsi məqsədlər üçün istifadə edilib. Sonra həmin vəsaitlərin xeyli hissəsi ümidsiz borc kimi rəsmiləşdirilib. Başqa kanal bu olub ki, offşor zonalarda şirkətlər qeydiyyatdan keçirib, Bankın vəsaitlərini onların veksellərini almaq adı ilə ölkədən çıxarıblar. Həmin vəsaitləri xaricdəki şirkətlərinə və hesablarına yönəldiblər".

R.Ağayev ölkədən çıxarılan pullarla hansı işləri görmək mümkün olduğunu da sadalamışdı. Demişdi ki, 8 milyard dollar Azərbaycanın 7-8 illik təhsil, az qala 20 illik səhiyyə, 5 illik sosial müdafiə xərclərinə bərabər bir məbləğdir.

*Bəs Cahangir Hacıyev bu qədər böyük məbləğləri təkbaşına talaya bilərdimi?*

**Bank məsələləri eksperti Əkrəm Həsənov**un fikrincə, Cahangir Hacıyevin təqsirini maliyyə naziri Samir Şərifovun üzərinə atmağa cəhd etməsi gülüncdür. Uzun müddət bank sistemində işlədiyini xatırladan ekspert deyir ki, Beynəlxalq Bankın da necə fəaliyyət göstərdiyini bilir:

"Dərəbəylik idi. Nə MB-lə hesablaşırdı, nə də Maliyyə Nazirliyi ilə. Halbuki qanuna görə birinci ona nəzarət edir, ikincisinə isə faktiki tabedir. MB-nin və Maliyyə Nazirliyinin əməkdaşlarını çox vaxt heç Beynəlxalq Bankın binasına belə buraxmırdılar".

Lakin Ə.Həsənov əlavə edir ki, bütün bunlar Beynəlxalq Bankdakı biabırçılıqlara görə nə Elman Rüstəmovu, nə də Samir Şərifovu məsuliyyətdən tam azad etmir. Onun fikrincə, onların hüquqi olmasa belə, siyasi, mənəvi və peşəkar məsuliyyətləri var:

"MB niyə sanksiya tətbiq etmirdi? Maliyyə Nazirliyi niyə tədbir görmürdü? Səlahiyyətləri var idi axı! Prezidentə məlumat verirdilər? Başa düşürəm ki, Cahangir Hacıyevin Eldar Mahmudov (keçmiş milli təhlükəsizlik naziri) kimi güclü himayədarı olub, ondan çəkiniblər. Amma belə olduğu təqdirdə, yəni vəzifəni tam icra edə bilmirsənsə, bir yol da var - istefa. Ən azı, bunu etməyiblər. Bu baxımdan, Cahangir Hacıyevin ictimaiyyəti çaşdırmaq cəhdlərini qəti qəbul etmirəm, amma Elman Rüstəmovun və Samir Şərifovun da Beynəlxalq Bankın fəaliyyətinə görə heç məsuliyyət daşımamaları fikrini də qəbul etmirəm".

*Yazdıqlarımızı vərəqləyib bir daha faktlara diqqət edək.*

Ötən yazılarımızdan sitat:

"C.Hacıyevin mənimsədiyi pullar bir tərəfə, dövlətin təminat verdiyi xarici tərəfdaşları qarşısında da "gözü kölgəli" etdi. Dövlət Beynəlxalq Bankı uçurumdan qorumaq və batmış kreditlərdən təmizləmək üçün 10 milyard manatlıq istiqrazlara zamin durmuşdu ki ("Aqrokredit" ASC vasitəsilə), dərhal bankın xarici sələmçiləri baş qaldırdı və dövlət onlara olan 3 milyard dollardan çox borca da zamin durdu. Maraqlı bir müqayisənin də yeri var: son illər ölkəyə ən böyük zərər Kür çayının daşması nəticəsində dəymişdi - 700 milyon manat. Belə çıxır ki, C.Hacıyev 21 dəfə daha artıq pulu heç "uf" demədən Kürə axıdıb. Bir az da iş başında qalsaydı, onun vurduğu zərər nəyinki daşqınlarla, hətta zəlzələ və sunamilərin vurduğu maddi zərərlə müqayisə oluna bilərdi".

Belə aydın olurdu ki, C.Hacıyev 100-dən artıq offşor şirkətlər açıb, sonra həmin şirkətlər faktiki heç bir dəyəri olmayan qiymətli kağızlar (veksel, səhm və s.) buraxıb, Beynəlxalq Banka satıblar və ya girov qoyublar. Cahangir Hacıyev və onun çetesi Beynəlxalq Bankın vəsaiti ilə həmin qondarma şirkətlərin 3,4 milyard ABŞ dolları və 1 milyarda yaxın avro həcmində veksellərini alıblar. Sonrakı mərhələdə isə C.Hacıyevin nəzərətində olan həmin offşor şirkətlər bankın vəsaitini alaraq, onunla sərbəst davranmaq imkanını əldə ediblər. Faktiki olaraq bankın vəsaiti nəğdləşdirilib və birbaşa Hacıyevin dəstəsinin ixtiyarına keçib. Üçüncü mərhələdə həmin vəsait qiyməti süni şəkildə şişirdilmiş layihələrə yönəldilib və fərq "yeyilib". Yəni Cahangir Hacıyev ABB-nin ona etibar olunan vəsaitləri ilə balaca yeməkxanaya gündəlik kartof-soğan, ət-yağ alan işlər müdiri kimi davranıb.

40 qəpiklik kartofu 1 manat 40 qəpiyə alınmasını rəsmiləşdirib. Faktiki isə kartofu elə öz qiymətinə 40 qəpiyə alıb, 1 manatı isə özünüküləşdirib. Ortada 15 milyard dövlətin pulu oğurlanıb.

Pulların çırpışdırılmasında bütün üsullardan istifadə haqda da xəbərlər var. Energetika və tikinti C.Hacıyev və komandası üçün sıradan pulsilmə sahəsi idi. Şou-biznesə, yalançı xeyriyyəçiliyə, xaricdə "Kral Klubu" yaradılmasına qədər pul səpələyib və əlbəttə ki, həmin pulları da özləri yığıblar. C.Hacıyev qandallanandan sonra üzə çıxan faktlardan biri də İsraildə enerji istehsalı layihəsinə 38 milyon dollar xərclənməsi ilə bağlı idi. Bu gün həmin vəsaitin real olaraq hara sərf edildiyi bilinmir. ABB-dən 38 milyon dollar beləcə "buxarlanıb". Bu həmin vaxt edilib ki, C.Hacıyevin mühafizəçiləri yaşlı, ahıl bilmədən qapıya gələn hər kəsi qovurdular. Xırda səhmdarlara qəpik-quruş dividendləri verməyə can çəkirdilər. Adamlar illərlə məhkəmələrə ayaq döyür, haqlı olmalarını sübut etmək üçün əsəb və sağlamlıqlarını xərcləyirdilər. Sonda məhkəmə səhmdarın haqlı olduğunu təsdiqləyirdi. C.Hacıyev isə həmin məhkəmə qərarını icra etməkdən boyun qaçırırdı. Mincə manat borca görə vətəndaşı məhkəmələrdə divara dırmaşdırıb digər tərəfdən də çevrələrində olan itlərinin qulluqçularına belə böyük məbləğlərdə pullar verirdilər. Dövlətin pullarını verirdilər.

Maraqlıdır ki, ABB-yə rəhbərliyi dövründə dövlətin milyardları hesabına Qədim Misir fironları kimi yaşayan C.Hacıyev həbsindən sonra da talanını etiraf etməkdən yayınmaq üçün min bir bəhanə gətirir.

Faktlar isə onu təkzib edir. C.Hacıyev Qazaxıstanda neft layihəsinə 95 milyon dollar yönəldib - pullar bu gün ortada yoxdur. Rusiyada loqistik mərkəz tikdirmək adı ilə 77 milyon dollar mənimsənilib. 45 milyon dollar isə sintetik brilyantların istehsalı adı ilə yoxa çıxıb.



Cahangir Hacıyev

Albaniyanın kriminal dairələrində yaxşı tanınan Rezart Tacı adlı bir şəxsə ona məxsus olan neft emalı zavodlarının alınmasına 340 milyon ABŞ dollar həcmində vəsait ayırıb. Zavodlar Albaniyada satışa çıxarılıb və Beynəlxalq Bankın ayırdığı vəsaitin qaytarılması qeyri-mümkündür. Rezart Tacı hazırda dələduzluq və vergi borcu səbəbindən həbsdədir.

C.Hacıyev Levan Tujba adlı şəxslə 440 milyon ABŞ dollarlıq kredit verib. Həmin pullar qondarma "Abxaz Respublikasına" investisiya yatırmaq adı ilə mənimsənilib. Tanınmamış Abxaziyanın illik dövlət büdcəsinin xərcləri orta hesabla 150 milyon dollar təşkil edir. Bu kreditlə 3 Abxaziya almaq olardı.

Sonradan Levan Tujba mənimsəməyə görə Moskvada saxlanıb dindiriləndə deyib ki, bu puldan ancaq 130 milyon dolların "üzünü" görüb. Qalan 310 milyon dolları onun ayağına yazıb, öz ciblərinə qoyublar.

C.Hacıyev Moskvada bir sıra tikinti layihələrinə 1 milyard 180 milyon dollar yatırıb. Hazırda layihələr üzrə bankın pulunun heç olmasa bir hissəsinin qaytarılması böyük sual altındadır.

Maraqlı məqam odur ki, bu gün günahsızlığını sübut etməyə uğursuz cəhdlər edən C.Hacıyevin məsuliyyəti üzərindən atmağa çalışır, özündən savayı hər kəsi günahkar qismində görür.

Əslində isə xaricdəki psevdo-layihələrin hər birinə böyük məbləğləri birbaşa göstərişləri əsasında heç bir təminat olmadan, müvafiq sənədləşmə aparmadan ayırıblar. Bundan əlavə, o, öz əməllərini ört-basdır etmək məqsədilə bankın ali orqanı olan Səhmdarların ümumi yığıncağına, Müşahidə Şurasına, Mərkəzi Banka yalan və təhrif olunmuş məlumatlar təqdim edib. C.Hacıyev pulları nə səhmdarları (əsasən dövlətin), nə əmanətçiləri, nə müştəriləri saya salmadan sağa-sola səpələyib və mənimsəyib.

Ölkə daxilində də onun razılığı ilə ətrafına böyük pullar səpələnib. Adi vətəndaş Beynəlxalq Bankdan 1000 manat kredit alanda min cür sənəd istənildiyi, həftələrlə get-gələ salındığı halda C.Hacıyev şəxsi sürücüsünə, təkcə şəxsiyyət vəsiqəsi ilə cəmi 12 milyon dollar kredit yazdırıb!

Nağd kreditlərlə yanaşı C.Hacıyev özünün və ailə üzvlərinin adına plastik kartlar açaraq dövlət bankının xəzinəsini də talayıblar. Açılan hesablar üzrə 16 ədəd plastik kartlar vasitəsi ilə 30 milyon 628 min 727 dollar və 9 milyon 368 min 7 avro, 3 milyon 433 min 931 ingilis funt sterlinq, 8 milyon 616 min 62 manat mənimsənilib. Və bu pullar -yəni 100 milyon manat şəxsi ödənişlərə xərclənib.

ABB-nin London nümayəndəliyinin rəhbəri R.İmamverdiyevin ürək tutmasından ölməsi də C.Hacıyevin vicdanındadır. Nə baş verib? Deməli, C.Hacıyev və ailə üzvləri bahalı şəhər olan Londonda ən bahalı ticarət mərkəzlərindən biri olan "Harrods"da alış-veriş etmək kimi bahalı hobbiləri olub. Və London nümayəndəliyinə tapşırılıb ki, hesablarına 1 milyon funt sterlinq keçirsinlər. Pullar Hacıyevlərin hesabına keçirilib.

"Harrods"da xırda bazarlığa Hacıyevlər 50-80 min dollar civarında xərcləyiblər. London nümayəndəliyinin rəhbəri bir müddət sonra 1 milyon funt sterlinq kredit məsələsini C.Hacıyevin yadına salıb. 1 milyon funt sterlinq R.İmamverdiyev üçün təbii ki, fantastik və əlçatmaz məbləğ olub. C.Hacıyev isə həmin pulu ödəməkdən yayınıb və gənc yaşına baxmayaraq R.İmamverdiyev ürək tutmasından dünyasını dəyişib".

*İndi də C.Hacıyev çərxi-fələyin tərs üzünü görüb və çığır-bağır salır ki, günahsızdır. Belədirmi?*

**Sabiq maliyyə naziri Fikrət Yusifov** "Yeni Müsavat"a deyib ki, C.Hacıyevin dedikləri əbəsdir: "Bu gün Cahangir Hacıyev durub deməz ki, mən 15 milyard dövlətin pulunu istədiyim kimi, kimlərinsə maraqlarına uyğun şəkildə xərcləmişəm. Deyə bilməz. Bilir ki, deməsi ittihamların bir daha təsdiqi, barəsindəki məhkəmə hökmünün ədalətli olmasını çox qabarıq şəkildə ortaya qoyar. Onun nə deməsindən asılı olmayaraq ABB-dən mənimsənilən pullara cavabdeh şəxs olub. Tutaq ki, kimlərsə hansısa kreditlərin verilməsinə təkid edib, ona təzyiqlər göstərib. Olubsa belə C.Hacıyev belə məsələlərə uyub dövlətin pulunu belə dağıtmamalı idi. Həmin pulları dövlət ona etibar etmişdi. Bu baxımdan da məsuliyyət də onun boynundadır. Məhkəməsiz-filansız da bu belədir. Bankın gələcəyini təhlükədə qoyub bu qədər krediti sağa-sola səpələmək hansı qanunda yazılıb? Bütün məsələləri bir kənara qoyuram və deyirəm - Cahangir Hacıyev sən Beynəlxalq Bankda baş verənlərə görə günahkarsan. Nəticə etibarı ilə ABB müflis olma həddinə çatıb. Onun "mən günahkar deyiləm" sözləri heç cür qəbul edilə bilməz. Birinci şəxs rəhbərdir və bankda gedən bütün proseslərə bilavasitə cavabdeh şəxsdir".

**F.Yusifov Mərkəzi Bank və Maliyyə Nazirliyinin də ABB-də baş verənlərə görə məsuliyyət daşıdıqlarını vurğulayıb:** "Yarıdan çoxu dövlətə məxsus bankdan milyardlar çıxarılıb. Bu o zaman baş verib ki, hesabdan hesaba 1000 manatın ötürülməsi əməliyyatını belə görmək mümkündür. Bir belə məbləğin ölkədən çıxarılmasını necə görməyiblər?"

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 194 (6808) 21 sentyabr 2017

# Məmmədovların "həm suçlu, həm güclü" taktikası




# Təhlükə Ziya Məmmədova yaxınlaşır: "boy göstərmək" istəyi onlara baha başa gəlir

**Sabiq nazirin ailə üzvünün Türkiyədə dəbdəbəli moda defiləsi keçirməsini əks etdirən fotoların ölkə mediasına sızdırılmasından sonra bacısının məktəbində yoxlamalar başladı; bu məsələ təkcə məktəb direktorunun işdən çıxarılması ilə bitməyə də bilər...**

Keçmiş nəqliyyat naziri Ziya Məmmədov vəzifəsini itirdikdən sonra sakit həyat yaşamağa başlayacağı gözlənilsə də, son günlər onun adı ətrafında qalmaqallı və müəmmalı proseslər baş verməkdədir. Məmmədovlar hakimiyyətdə etibarlarını itirdikdən sonra Z.Məmmədov vəzifesini, qardaşı deputatlıq kürsüsünü, ailə biznesinə rəhbərlik edən oğlu Anar Məmmədov isə iddialara inansaq, Azərbaycanda yaşamaq hüququnu itirib. Vaxtilə ölkənin ən iri oliqarxı olan Məmmədovların biznes imperiyası daha əvvəlki kimi qüdrətli deyil, sözlərinin kəsəri qalmayıb. Onlar isə bu durumla barışmır, imkan düşdükcə "boy göstərməyə" çalışırlar. Elə bu günlərdə Anar Məmmədovun ailə üzvünün Türkiyədə dəbdəbəli moda dəfiləsi keçirməsini əks etdirən fotoların ölkə mediasına sızdırılması da deyilənlərə sübut ola bilər. Yada salaq ki, iki ay əvvəl Elton Məmmədovun medianın yaxşı tanıdığı oğlu Aynar Məmmədov Bakıda yeni çay evinin açılışını etmişdi. Mərasimə şou-biznes nümayəndələrini dəvət edən Aynar Məmmədov daha böyük və ciddi layihələr həyata keçirmək gücünü itirsə də, hələ "ayaqda olduqları" mesajını verdi. Təsadüfi deyil ki, Məmmədovların qapıları aylardır bağlı olan "Yelkən hoteli"nin axşamlar rəngbərəng işıqları yandırılır ki, işləməyən bir obyektə bu qədər işıq pulu xərclənməsi özü maraq doğurur. Bunlar oxucu üçün xırda detallar kimi görünə bilər, Məmmədovlar üçün isə bu işıq özü belə təskinlikdir.

Aylardır ölkədə olmayan oğlunun bir müddət öncə facebook hesabında dibçəkdə əkilmiş narıncı meyvə şəklini paylaşması da müxtəlif reaksiyalar doğurmuşdu. Narıncı rəngin Azərbaycanda daha çox "inqilab"la assosiasiya olunduğunu yada salmaq kifayətdir... Yeri gəlmişkən, oğlu Məmmədovun rəhbərlik etdiyi "Garant Holdinq"in fəaliyyəti ilə bağlı da indi informasiya almaq müşkülə çevrilib. Şirkətin qapısının bağlandığı, bəzi xəbərlərə görə isə fəaliyyətinin tam məhdudlaşdırıldığı, bütün aktivləri - hotellərdən tutmuş restoranlaradək satışa çıxarıldığı da yayılan xəbərlər sırasındadır.

Sabiq nəqliyyat naziri "Nizami" metrostansiyasının yaxınlığında, Xarici İşlər Nazirliyinin arxasında yerləşən tikilidəki 250 kv.m sahəsi olan mənzilini 750 min manata satışa çıxardığı artıq təsdiqlənmiş informasiyadır. Z.Məmmədov özü mediaya çıxmır, iki gün əvvəl isə jurnalistlərdən birinin sualına "siz açıqlama yox, bağlama alırsınız" deyərək telefonu qapatması sabiq nazirin motivasiyasının yerində olmadığına işarədir. Məmmədovlar hakimiyyətdən uzaqlaşdırılması ilə barışa bilmir və deyilənə görə, iqtidarda xeyli adamı "qara siyahı"ya da salıblar.

Z.Məmmədovun təhlükədən qurtula bildiyi haqda da iddialar var. Onun və müavini Arif Əsgərovun dəmiryoluna ayrılmış pulları necə korrupsiya yeminə çevirdiyi hazırda Strasburqda məhkəmə predmetidir. Məmmədovların "boy göstərmək" istədiyi bir vaxtda isə ailənin daha bir üzvünün adı ətrafında ciddi qalmaqal yaranıb. Belə ki, sabiq nazirin bacısının uzun illərdir rəhbərlik etdiyi "Tərəqqi" liseyində yoxlamalar başlayıb. Dünən gün ərzində bu mövzuda müxtəlif ziddiyyətli xəbərlər yayılıb. Məsələn, direktorun qardaşı Elton Məmmədov deyib ki, heç bir yoxlama-filan yoxdur, üstəlik bacısı da iş başındadır. Bakupost.az saytı isə yazıb ki, liseydə yoxlama başlamazdan əvvəl Təhsil Nazirliyinin məsul şəxsləri xanım direktora işdən çıxması ilə bağlı könüllü ərizə yazmasın tələb ediblər.

Əməkdar müəllim olan M.Məmmədova isə bunun üçün heç bir səbəb olmadığını göstərərək, ərizə yazmaqdan imtina edib. "Buna görə də nazirlik yoxlama ilə direktoru cəzalandırmaq, onu işdən çıxarmaq qərarını verib", deyə, xəbərdə bildirilib.

Liseydən daxil olan məlumatda bildirilir ki, Təhsil Nazirliyinin Daxili Nəzarət Şöbəsinin xeyli əməkdaşı yoxlamalara başlayıb, hətta həmin gün müəllimlərinin lisey ərazisini tərk etməsinə icazə verməyib. Onu rüşvətdə suçlamaq üçün lazımı materiallar toplandığı da gələn informasiyalar arasındadır.

M.Məmmədovaya yüksək qan təzyiqi ilə yaxınlıqdakı xəstəxanaların birinə getdiyi iddia olunub. **Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov** APA-ya açıqlamasında "Tərəqqi" liseyində araşdırma aparıldığını təsdiqləyib. C.Valehov yoxlamanın nə ilə bağlı olduğunu açıqlamayıb. M.Məmmədovanın işdən çıxarılması barədə yayılan məlumatlara gəlincə, C.Valehov bunu təsdiqləməyib. Bəzi saytlar isə direktorun işdən çıxarıldığını iddia edib.

İstənilən halda, dərs ili başlayan kimi vaxtilə şikayətlərə baxmayaraq kimsənin yoxlamaya cəsarət etmədiyi, M.Məmmədovanın isə özünü tam arxayın hesab etdiyi bir müəssisədə yoxlamalar başlaması diqqəti yenidən Z.Məmmədovun personasına yönəldib. Adətən hakimiyyət "vurulmuş" məmurların ətrafını o vaxt "təmizləyir" ki, o adamların ciddi yanlışları olur. Məmmədovların iqtidara dönüklüyü səbəbindən "vurulması" ən çox səslənən versiyadır. M. Məmmədovanın sonrakı taleyinin necə olacağı barədə birmənalı fikir yürütmək mümkün deyil. Amma fakt faktlığında qalır ki, Məmmədovlar "həm suçlu, həm də güclü" olmaq istəmələrinin bəlasını çəkirlər. Bu isə təkcə məktəb direktorunun işdən çıxarılması ilə bitməyə də bilər.

**Təhlükə şəxsən Z.Məmmədova doğru gəlir... Adlada biləcəkmi?**

❑ **"YM"**

---

# Serj Sərkisyanın vəzifə üçün Bakıya gəlməkliyi



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Xocalı qatili Serj Sərkisyan BMT tribunasından yenə özünü cığal uşaq kimi apardı, prezident kimi yox. Gah Azərbaycanı günahlandırdı, gah "sülhpərvər" olduğunu iddia elədi, gah erməni xalqının "yazıq" obrazını yaratmağa çalışdı. Ənənəvi erməniçilikdən uzağa gedə bilmədi. Çünki o nüfuzlu tribuna onluq deyildi...**

Sərkisyanın kimliyini araşdırmaçı Tomas de Valla müsahibəsindəki etirafları ortaya qoyur. Hansı ki, Karnegi Fondunun saytında əksini tapan bu etiraflar sonradan Tomasın "Qara Bağ" kitabına salınıb. "Xocalıya qədər azərbaycanlılar bizimlə sadəcə zarafat etdiklərini düşünürdülər". Budur Sərkisyanın iç üzü, mahiyyəti! İndi sülhdən danışır. O, 2 yaşlı Zəhranın qatilidir!

Əslində bir qatilin BMT kimi aparıcı təşkilatın tribunasından sülh xitabı etməyə ixtiyarı yoxdur! Beləlerinin yeri Haaqa Tribunalıdır, BMT tribunası yox! Ancaq nə edəsən ki, ədalətsiz dünyadır və belə caninin çıxışına qulaq asmaq üçün ona BMT düz beşinci sessiyadır ki, zaman ayırır.

Sərkisyan qırmızıcasına iddia edib ki, Dağlıq Qarabağ heç vaxt Azərbaycanın tərkibində olmayıb. Bu cani Qarabağ ermənisi olduğunu, 1954-cü ildə o vaxtkı Azərbaycan SSR-in Stepanakert (Xankəndi) şəhərində doğulduğunu da danmaq istəyir. Onun iş yoldaşları indiyə qədər Xankəndində "Serjik" çağırılarn bu bəstəboy barədə xatirələrini danışırlar.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təşkilat şöbəsində Dağlıq Qarabağ üzrə inspektor işləmiş Maksim Musayev deyir ki, 80-ci illərin əvvəllərində S.Sərkisyan Dağlıq Qarabağ Muxtar Vilayətinin Komsomol Komitəsinin ikinci katibi təyin olunanda, onun qəbulunda olub. Belə təsvir edib: "Bitlis fason saçı da var idi. İçəri girdi, dedim əvvəlcə get saçını qaydaya sal, sonra gəl, belə komsomol olmaz".

Həmən bu Sərkisyandan soruşan gərək, "Serjik, əgər Dağlıq Qarabağ Azərbaycan ərazisi olmayıbsa, sən niyə vəzifəyə təsdiq üçün Bakıya gəlirdin, elə İrəvana gedərdin də". Amma kimdir soruşan?

Əslində Sərkisyandan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi haqda soruşmaq lazım idi. Təşkilatın rəhbərliyi uşaq qatili olan bu prezidentin çıxışını yarımçıq kəsib soruşmalıydı ki, nəyə görə Təhlükəsizlik Şurasının Kəlbəcərin işğaldan azad olunmasını nəzərdə tutan 30 aprel 1993-cü il tarixli, 822 saylı qətnaməsini icra etmək əvəzinə, Kəlbəcər dağlarını yararaq Vardenis-Ağdərə yolunu çəkibsiniz? Həmçinin digər 3 qətnamənin icra olunmamasına görə Ermənistana qarşı sərt sanksiyalar əl atılmalı idi, daha onun rəhbərinə şivən qoparmaq üçün tribuna verilməməliydi.

Xatırlayaq, ilk qətnamədə BMT "bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın digər bu yaxınlarda işğal olunmuş rayonlarından dərhal çıxarılmasını tələb edir"di. 23 ildir nəticə yoxdur. İndi Nalbəndyan deyir 5 rayon azad oluna bilər. Bəs, Kəlbəcər haqda BMT qətnaməsi? Soruşan olmadı...

Ermənistan prezidenti ölkəsinin 1992-ci ilin martından BMT-nin üzvü olduğunu deyib. Ancaq onu da unudub ki, elə eyni ildə, eyni gündə Azərbaycan da BMT-nin tamhüquqlu üzvü olub. Özü də Dağlıq Qarabağ daxil, 86,6 min km?-lik əraziləri ilə birlikdə. İndi həmin BMT-nin ali kürsüsündən "Dağlıq Qarabağ heç vaxt Azərbaycanın ərazisi olmayıb" deməyin bir adı var: həyasızlıq!

Sərkisyan Azərbaycanı erməniofobiyada, məktəblilərdə ermənilərə qarşı nifrət aşılamaqda ittiham edib. Ancaq ən azı biz bilirik ki, Ermənistanda uşaq doğulanda qulağına "sənin düşmənin türkdür" deyilir. Bakıda 30 min erməni yaşayırsa, hansı erməniofobiyadan söhbət gedə bilər? Hər halda Sülh Platformasını təsis edən Azərbaycan oldu, Sərkisyanın ölkəsi yox.

Utanmazcasına Azərbaycanın sülh danışıqlarından yayındığını iddia edir. Sanki 1991-ci ilin 20 noyabrında Azərbaycanın dövlət nümayəndələrinin olduğu vertolyotu vuran erməni faşistləri olmayıb. Həmin heyət Qarabağa, ermənilərlə danışıqlara gedirdi. O zaman Qarabağdakı quldurlara başçılıq edən sərkisyanlar, köçəryanlar... imkan versəydi, düşmənçilik bu günə qədər davam etməzdi.

**Sərkisyan bunu yaxşı bilir, çünki ona çoxlu qan və hakimiyyət lazımdır. Qarabağda məhv edilən ermənilərə görə də üzgün deyil. Bu, Serjikin BMT kürsüsündən son çıxışıdır. Güman ki, xal toplamaq, hakimiyyətini uzatmaq üçün bütün çıxışını Qarabağ üzərində qurdu. Ancaq artıq onun qandallanmaq zamanıdır...**

YENİ MÜSAVAT
N 194 (6808) 21 sentyabr 2017



# Mitinqə hazırlaşan iki düşərgə

Xalid KAZIMLI

**Kütləvi aksiya elanının hakimiyyət dairələrində təşviş, müxalifət camiəsində eyforiya yaratdığı yeni söhbət deyil. Həmişə belə olur. Hansısa siyasi qüvvə mitinq keçirəcəyini elan edirsə, mitinqə qatılacaq müxalifət partiyalarında hazırlıq başlamamış hakimiyyətin antimitinq mexanizmi işə düşür. Mitinqə qarşı təbliğat da başlayır, əməli işlər də. Mitinqə adam toplayacaq "tribuna liderləri"nin öncədən həbs edilməsini səbəbi budur.**

Mitinq elan etmiş müxalifət partiyası da kütləviliyi təmin etmək üçün çalışmalara başlayır. Buraya partiyanın üzv və tərəfdarlarının səfərbər olunması, eləcə də mitinqin şüar və tələblərini bölüşən, aksiyaya qoşulmağa meylli olan partiyalarla danışıq aparılması daxildir.

İllərdir, belədir. Hər mitinq-yürüş, piket, nümayiş az qala "ölüm-dirim" məsələsi kimi qəbul olunur. İqtidar dairələri hesab edir ki, bir az boş, yumşaq tərpənsələr, preventiv tədbirlər görməsələr, hər şey nəzarətdən çıxacaq və hakimiyyət əldən gedəcək.

Müxalifət düşərgəsi isə hesab edir ki, bir az da yaxşı səfərbər olunsalar, kütləviliyi təmin etsələr, "çamadan əhval-ruhiyyəsinə köklənmiş və ölkədən qaçmağa hazırlaşan iqtidar komandası"nın sonu çatacaq.

Uzun illərin müşahidələri göstərir ki, hər iki tərəf öz düşüncələrində ifrata varır. Çünki mitinq heç vaxt permanent xarakter almır, sadəcə, kəskin tənqidi, bir-birini təkrar edən çıxışlar olur, sonda qətnamə oxunur, hamı dağılışır.

Adətən mitinqdən sonra hər kəs özünə gəlir, qorxuya düşənlər rahatlaşır, eyforiyaya qapılanlar məyus olur. Bir neçə gün də mitinqə gələnlərin sayı ilə bağlı mənasız mübahisə başlayır. Bir tərəf iştirakçıların sayını yeddi dəfə azaldır, o biri tərəf də, aşağı-yuxarı, o qədər artırır. Məsələn, hakimiyyət mitinqə gələnlərin sayını 600-700 civarında göstərirsə, müxalifət mitinqə toplaşanların sayının 10 mini aşdığını bəyan edir. Həqiqət isə ortalarda bir yerdədir.

Əslində mitinqə 700 adam gəlməsi ilə 7 min adam gəlməsinin elə bir fərqi yoxdur. Saya önəm verməK özünütəsəlli aktıdır. Hakimiyyət mitinqə toplaşanların sayını az göstərməklə və ya az hesab etməklə özünü sakitləşdirir ki, ona etiraz edənlər azdır, ciddi qüvvə deyil.

Müxalifət də özünə, ictimaiyyətə göstərmək istəyir ki, "baxın, sıralarımız artmaqdadır, kütləviləşirik, gəlirik".

Hər ikisi düşüncə və göstəriş özünüaldatma cəhdidir.

Bir də insanları mitinqə dəvət edənlər və camaatı mitinqə qoşulmaqdan çəkindirənlər kontingenti var. Birincilər mitinqə gəlməyənlərə söyüş qoyur, sosial şəbəkədə təhqiramiz ("mitinqə gəlməyənlər belə-belə olsun" kimi) fikirlər paylaşırlar. İkincilər isə mitinqə gedənlərin siyahıya alındığını, belələrinin cəzadan yaxa qurtara bilməyəcəklərini anons edirlər.

Bu addımların hər ikisi demokratik prinsiplərlə, haqq-ədalətlə bir araya sığan hərəkətlər deyil.

Bu cür aqressiya ilə heç vaxt ölkədə demokratiya bərqərar etmək olmaz. Olsa-olsa, bir zorakı komandanı başqa bir zorakı komanda əvəz edər və bunun xalqa heç bir faydası toxunmaz.

Təcrübə göstərir ki, bir ölkədə köhnə korrupsionerləri yeni korrupsionerlər, yaşlı saxtakarları cavan saxtakarlar, peşəkarlaşmış cəza ustalarını diletant cəza dəstələri əvəz edəndə ölkənin problemləri həll olunmur, əksinə, yeniləri yaranır.

"Yaxşı, baxarsınız, hakimiyyət dəyişəndə birinci siziE" deyə yüz cür təhqiramiz hədə yazan, asan-kəsən, repressiya vəd edən adamlar tərəfdar toplamaqdansa, əleyhdar toplayırlar.

Camaat asıb-kəsənləri çox görüb, görür. Son illərdə başqa ölkələrdə də sağa-sola, hər kəsə təhdid sovura-sovura fəaliyyət göstərən heç bir qüvvəni hakimiyyətə yaxın buraxmırlar. Hamı (hədələnən qruplar) onlara qarşı birləşir və ciddi müqavimət göstərir.

Hakimiyyətə gəlmək istəyən qüvvə özünü maksimum dözümlü, mötədil, qanunpərəst, kinsiz göstərməlidir və həqiqətdə də elə olmalıdır. "Qoy qolum açılsın, sizin hamınızı məhv edəcəm", deyən qolubağlı aqressorun əl-qol açmasına kim rüsxət verər?

**P.S.** *Gözlənilən mitinqlə bağlı ən unkal məqam 1994-cü ildə baş prokuror olarkən AXC-nin qərargahından silah-sursat tapıldığı və cinayət işi açıldığını bəyan edən Əli Ömərovun bu gün xalqı mitinqə qoşulmağa çağırmasıdır.*

**Azərbaycanda gələcəkdə 200 manat dəyərində əsginaslar buraxıla bilər. Bu barədə Trend-ə Mərkəzi Bank sədrinin birinci müavini Alim Quliyev məlumat verib. O, hazırda hökumətdə bununla bağlı müzakirələrin aparılmadığını bildirsə də, gələcəkdə belə əsginasların buraxıla biləcəyini istisna etməyib.**

# Dövriyyəyə yeni pullar gəlir - sabiq nazir təkliflə çıxış etdi

## Fikrət Yusifov: "Aralıq pul nişanlarının buraxılmasına ehtiyac var"



Yayılan xəbərlərin ardından məsələ ətrafında çoxsaylı müzakirələr yaranıb. İqtisadçı ekspertlərin də bununla bağlı fikirləri birmənalı deyil. Çoxları indiki şəraitdə məbləği yüksək olan əsginasların buraxılmasını vacib hesab etmirlər. Xüsusilə, bunun alış-verişdə ciddi problemlər yaradacağı qeyd olunur. Bazarların, marketlərin daha çox əziyyət çəkəcəyi vurğulanır. Bunun əksini dilə gətirib, manatın dayanıqlığı üçün buraxılacaq yeni pulların müsbət töhfələr verə biləcəyindən danışanlar da var. Böyük məbləğdə vəsaitlərin daha yığcam formaya salınması üçün də 200 manatlıq əsginaslara ehtiyac olduğu qeyd olunur.

**Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov** "Yeni Müsavat"a açıqlamasında yeni təkliflə çıxış etdi: "Bizdə hazırda dövriyyəyə nominalı daha böyük olan əsginasların (küpürlərin) buraxılmasına ehtiyac yoxdur. Əksinə, nəğd pulla aparılan hesablaşmaları asanlaşdırmaq üçün dövriyyəyə yeni nominalı olan aralıq pul nişanlarının buraxılmasına ehtiyac var. Əgər hər hansı bir ticarət mərkəzində, alış-veriş yerində sorğu aparılarsa, bu dediklərimizin sübutuna heç bir ehtiyac qalmayacaq. Belə ki, 50 və xüsusən də 100 manatlıq küpürü satıcıya təqdim edən alıcılar bir çox hallarda pulun qalığını geri almaq üçün kifayət qədər vaxt itkisi ilə üzləşirlər. Aralıq pul nominallarının az olması, nəğd hesablaşmaları bəzən kifayət qədər çətinləşdirə bilir. Fikrimizcə, bu hesablaşmaları asanlaşdırmaq məqsədilə dövriyyəyə 3 manatlıq, 20 manatlıq əsginasların əvəzinə isə 25 manatlıq nominalı olan əsginasların buraxılmasına böyük ehtiyac var. Eyni zamanda dəmir manatlıqların da dövriyyəyə buraxılması yaxşı olardı. Təsəvvür edin alıcının 1 manatlıq mal almaq üçün satıcıya təqdim etdiyi 5 manatdan satıcı hər birinin nominalı 1 manat olan 4 ədəd 1 manatlıq əsginas qaytarmalıdır. Halbuki, dövriyyədə 3 manatlıq küpürlər olarsa o, bunu 2 ədəd pul nişanı ilə - (3manat + 1 manat) edə bilər. Eyni qayda ilə 15 manatlıq mal üçün 50 manat təqdim etmiş alıcıya satıcı ən yaxşı halda 3 ədəd nominalı 10 manat olan və 1 ədəd nominalı 5 manat olan cəmisi 4 əsginas və ya 1 ədəd nominalı 20 manat olan, bir ədəd nominalı 10 manat olan və bir ədəd nominalı 5 manat olan cəmi 3 əsginas qaytarmaqla hesablaşmalıdır. Halbuki, dövriyyədə 25 manatlıq küpürlər olarsa, o, bunu iki əsginas (25 manat + 10 manat) edə bilər. Nəğd pulla aparılan hesablaşmalarda həm alıcıların və həm də satıcıların vaxtına qənaət və onların bu əməliyyatları keçirərkən rahatlığının təmin edilməsi məqsədilə bu çox önəmli bir məsələdir".

❑ Cavanşir ABBASLI

# Şimali İraqdan çəkiləcək qaz kəməri Azərbaycanın boru kəmərinə birləşsə...

## Ekspert: "Qazın Türkiyə üzərindən Avropaya çatdırılmasının ən sərfəli variantı məhz Cənub Qaz Dəhlizidir"



**İraq Kürdüstanından "Rosneft"in iştirakı ilə çəkiləcək qaz kəməri böyük ehtimalla "Cənub Qaz Dəhlizi" ilə birləşdiriləcək. Virtualaz.org xəbər verir ki, bunu RİA "Novosti" agentliyinə Kürdüstan Demokrat Partiyasının Moskvadakı nümayəndəsi Xoşavi Babəkr deyib.**

"Bildiyimə görə, həmin layihəyə əsasən, "Rosneft"in qaz kəməri Azərbaycan boru kəmərləri layihələrinə birləşdiriləcək"-deyə o bildirib.

Babəkrin sözlərinə görə, İraq Kürdüstanında qaz kəməri İraqın şimalındakı Kərkük vilayətindən başlayacaq. Bundan əlavə, gələcək boru xəttinin bəzi obyektləri artıq türk şirkətləri tərəfindən tikilib. Sonradan həmin şirkətlər müxtəlif səbəblər üzündən layihədən çıxıblar.

"İş burasındadır ki, bu layihə artıq bir neçə ildir ki, fəaliyyət göstərir və tərəfdaşları da çox olub. Əvvəlcə istifadəyə verilməsi 2018-ci ildə gözlənilirdi, indi 2020-ci ildən danışırlar", - Babəkr qeyd edib.

Qeyd edək ki, Quzey İraqda 1500-dən çox Türkiyə şirkətinin fəaliyyət göstərdiyi bildirilir. Bu da bölgədəki xarici şirkətlərin təxminən yarısı deməkdir. Türk şirkətləri bölgəyə bir neçə milyard dollar sərmayə yatırıb, Ərbil hava limanı başda olmaqla, bir çox vacib infrastruktur layihəsini məhz türk iş adamları həyata keçirib. Ticarətin miqyasını o dərəcədə böyükdür ki, sərhəddəki Habur gömrük-keçid məntəqəsindən hər gün 3 mindən çox yük avtomobili keçir.

Türkiyə ilə Bərzani arasında strateji xarakterli əlaqələrdə enerji mühüm yer tutur. Kərkük neftini daşıyan boru xətti quzeydən keçərək Türkiyənin Yumurtalık limanına gedir və buradan ixrac olunur. Quzey İraq təbii qazını Türkiyəyə və oradan Avropaya nəql etmək üçün boru kəmərinin inşa olunması gündəmdədir. Bu kəmərlə ildə 30 milyard kubmetr qazın nəqli nəzərdə tutulub və layihəyə Rusiya da ciddi maraq göstərir. TANAP-la 16 milyard kubmetr Azərbaycan qazı nəql olunacaq.

Ekspertlər iddia edir ki, ümumiyyətlə, Türkiyənin regional enerji ötürücüsü olmaq planlarında İraq istiqamətindən gələn və gəlməsi planlaşdırılan borular mühüm yer tutur.

Bəs, İraq Kürdüstanından "Rosneft"in iştirakı ilə çəkiləcək qaz kəməri "Cənub Qaz Dəhlizi" ilə birləşdirilsə bundan Azərbaycan qazanar, yoxsa müəyyən dövlətlərlə münasibətlərimizə ziyan dəyər?

**"Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar Birliyinin sədri, sabiq maliyyə naziri Fikrət Yusifov** "Yeni Müsavat"a bildirdi ki, bundan Azərbaycan da Türkiyə də qazanar: "Son bir neçə ildə Cənub Qaz Dəhlizi layihəsi ilə bağlı mətbuat səhifələrində etdiyimiz çıxışlarda gələcəkdə bu xəttə İraq, İran, Türkmənistan, Yaxın Şərq və hətta Afrikanın şimalında yerləşən ölkələrin də qazının qoşulma ehtimalından danışmışdıq. Artıq bu ehtimallardan birinin həqiqətə çevrilməsi prosesi baş verir. Bu ölkələrin hər biri gələcəkdə də hasil olunacaq qazı Avropa bazarına çıxarmaq üçün daha sərfəli marşrutlar axtarışında olmayacaqlar. Çünki bu istiqamətdə qazın Türkiyə üzərindən Avropaya çatdırılmasının ən sərfəli variantı məhz Cənub Qaz Dəhlizidir. Qazın bu marşrutla Avropaya çatdırılması istehsalçılar üçün nə qədər maraqlıdırsa, bir o qədər də tranzit ölkələr-o cümlədən Türkiyə üçün maraqlıdır. Gələcəkdə Cənub Qaz Dəhlizinə başqa qaz xətlərinin qoşulması bu xəttin əhəmiyyətini daha da yüksəldəcək və onun rentabelliyi kifayət qədər artacaqdır".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT N 194 (6808) 21 sentyabr 2017

# Elman Rüstəmovun manatla bağlı açıqlamasına inanaqmı...

**Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Elman Rüstəmovun manatla bağlı son açıqlaması müzakirələrə səbəb olub. AMB rəhbəri manatın sabitliyindən, milli valyutamıza heç bir təhlükənin olmadığından danışıb.**

E.Rüstəmovun fikirlərinin gündəm yaratmasına səbəb olan amil onun son illərdə manatla bağlı verdiyi ümid dolu açıqlamalardan dərhal sonra ölkədə devalvasiyanın baş verməsi, manatın sürətlə dəyərdən düşməsidir. Məhz bu səbəbdən də o son illərdə sosial şəbəkələr və mətbuatın ciddi qınaq və gülüş obyektinə çevrilib. Son manat açıqlamasından sonra eyni mənzərə yaransa da, onun fikirlərində həqiqət payı olduğunu bildirənlər də çoxdur. Buna səbəb də bir ildən çoxdur manatın məzənnəsinin sabit qalmasıdır. Baş bankirin açıqlamalarının bizneslə məşğul olan şəxslərdə ümid oyadacağı, onların fəaliyyətlərini genişləndirəcəkləri, ən əsası, ölkəyə investisiya yatırmaqda tərəddüd edənləri hərəkətə gətirəcəyi qeyd olunur.

**İqtisadçı deputat Vahid Əhmədov** hesab edir ki, Elman Rüstəmovun açıqlaması müəyyən qədər həqiqətləri əks etdirir: "Deyirlər ki, Elman Rüstəmov əvvəllər belə açıqlamalar verəndən sonra Azərbaycanda iki devalvasiya baş verdi, indi də belə şey gözlənilə bilər. Amma mən belə fikirləşirəm ki, Elman müəllimin verdiyi son açıqlama müəyyən qədər həqiqəti əks etdirir. Çünki son ilin 8 ayının analizinə, aparılan islahatlar sisteminə baxanda görürəm ki, Mərkəzi Bank manatı qoruyub saxlamaqda maraqlıdır. Bunun üçün də manatın məzənnəsini sabit şəkildə saxlaya bilir. Deyə bilmərəm ki, bunu bazar tənzimləyir. Burada əsas olan bir neçə səbəblər var ki, Mərkəzi Bank bunu nəzarətdə saxlayır. Birincisi, pul kütləsinə nəzarət mexanizmi Mərkəzi Bank tərəfindən həyata keçirilir. Artıq pul vəsaiti buraxılmır. Təcili olan layihələrə pullar buraxılır. Bu da müəyyən qədər manatın qorunmasına şərait yaradır. İkincisi, Azərbaycanda ticarətdə müsbət hal da yaranıb. Yəni ixrac idxalı üstələyib, təxminən bir milyarda yaxın müsbət hal var. Bu müsbət hal da manata təzyiqi azaldır. Digər tərəfdən də neftin qiymətində ciddi geriləmə yoxdur. Neftin qiyməti 55, hətta 58 dollara yaxınlaşır. Bu da manata təsir edən amillərdən biridir. Əgər proseslər bu şəkildə davam edəcəksə, yəni Mərkəzi Bank Elman Rüstəmovun dediyi kimi bu siyasətini davam etdirəcəksə, pul kütləsinə nəzarəti artıracaqsa, neftin qiyməti 50 dollardan aşağı düşməyəcəksə, manatın məzənnəsini bu şəkildə qoruyub saxlamaq mümkün olacaq. Burada bizim üçün əsas məsələ real sektorun inkişafıdır. Bu sektor inkişaf etməlidir ki, biz ilin axırında ümumdaxili məhsulda artım hiss edək. Nəticədə gələn il üçün də baza yaradaq ki, bu sahələrdə inkişaf olsun. Əsas olan odur ki, real sektorun inkişafında problem yaranmasın. İlin sonunda biləcəyik ki, real sektorda ümumdaxili məhsulda nə qədər artım olub. Manatı bu şəkildə saxlamaq ilin axırına qədər mümkündür. Amma bir şeyi nəzərə almaq lazımdır ki, hər zaman ilin sonunda xərclər müəyyən qədər artır. Həm xarici borcları ödəmək lazım gəlir, həm də daxildə müəyyən problemləri həll etmək vacib olur. Bunlar nəzarətdə saxlanılsa, hesab edirəm ki, elə bir ciddi problem olmaz".



**Vahid Əhmədov:** "Manatı bu şəkildə saxlamaq ilin axırına qədər mümkündür"



**Natiq Cəfərli:** "Elman Rüstəmov yarı həqiqətlərlə danışıb"

**İqtisadçı ekspert Natiq Cəfərli** baş bankirin açıqlamasına bu cür şərh verdi: "Əvvəlki devalvasiyaları nəzərə alsaq, belə bir fikir formalaşmışdı ki, hər devalvasiyada ondan öncə Elman Rüstəmovun dediklərinin əksi olur. Bu da Mərkəzi Bank kimi vacib bir dövlət qurumuna güvəni xeyli dərəcədə zəiflədib. Son açıqlamalarında Elman Rüstəmov yarı həqiqətlərlə danışıb. Yəni məsələlərə birtərəfli münasibət bildirib. Hələ də israr edir ki, dollar və manat məzənnələri bazar qaydalarına uyğun müəyyən olunur. Amma halbuki ölkədə əhali və biznes çevrələrində heç bir başqa fikir qalmayıb ki, bu məzənnə ancaq inzibati qaydada tənzimlənir. Normal hərraclar olsaydı, bazar qaydalarına uyğun olaraq, məzənnələrin müəyyən edilməsi prosesi baş versəydi, məzənnədə oynamalar az və ya çox dərəcədə olardı. Amma artıq neçə aydır ki, məzənnədə dəyişiklik müşahidə olunmur. Son aylarda 25-ə yaxın hərracda ümumiyyətlə, məzənnə dəyişməyib. Necə başlayıbsa, elə də bitib. Belə hərrac, üzən məzənnə olmur. Elman müəllim yenə deyir ki, məzənnə üzən məzənnə rejimidir, ancaq bazar qaydalarına uyğun müəyyənləşdirilir. Manat sabit deyil, amma Elman müəllim manatın sabitliyindən danışıb. Manat məzənnəsi təkcə dollar-manat münasibətlərindən ibarət deyil. Dünyanın aparıcı beş valyutasından dolları çıxsaq, dördünə qarşı manatda son aylarda dəyərdən düşmələr var. Avro qarşısında təxminən 15%-ə yaxın manat dəyərdən düşüb. Burada da Elman müəllim yarı həqiqətləri deyib. O başqa bir maraqlı fikir də söylədi ki, bununla razılaşmaq olar. O manatın aşırı möhkəmlənməsinin Azərbaycan iqtisadiyyatına ziyan vura biləcəyini söylədi. Doğrudan da Azərbaycan hökumətinin məqsədi odur ki, xarici ticarəti, ixracatı genişləndirsin, kənd təsərrüfatı və qeyri-neft sektorunun ixracatının artmasına nail olsun, amma manat bahalaşdıqca bu hədəflərə çatmaq mümkün olmaz. Ona görə manatın aşağıdakı qırmızı xətti uzun aylardır 1.70 səviyyəsində müəyyən edilib. Manatın bundan artıq möhkəmlənməsinə Mərkəzi Bank imkan vermir. Elman müəllim sabitliyin səbəbləri barədə də doğru-dürüst məlumat vermir. Dollar manat münasibətlərinin sabitliyinin iki mühüm səbəbi oldu. Birincisi neftin qiymətləri qalxdı, ikincisi Neft Fondundan Mərkəzi Banka 7.5 milyard manat maliyyə sabitliyinin təşkili və təmin olunması adı altında vəsait ayrılıb. Bu vəsaitlərin artıq yarıdan çoxu Mərkəzi Banka daxil olub. Elman müəllim əgər bu məsələləri cəmiyyətlə bölüşsəydi, daha tam açıqlama olardı. Amma o səbəblər haqqında danışmadan ancaq nəticəni göstərir. Çox təəssüflər olsun ki, yarımçıq, yarı həqiqətlərlə dolu bir açıqlamanın yenidən şahidi olduq".

❑ Cavanşir ABBASLI

# Niyə "hər şeyin təzəsi, hökumətin köhnəsi!" - deyib durmuşuq?



Hüseynbala SƏLİMOV

**Azərbaycanda yeni hökumətin təşkilini aktuallaşdıran yalnız ölkə iqtisadiyyatının vəziyyəti deyil. Ən azı ona görə ki, makro və mikroiqtisadi göstəricilərin durumu ilə bağlı ciddi söz demək üçün özümüzü ixtisaslaşmış fərd kimi təsəvvür etmirik və elə bu səbəbdən də bu iki amili birmənalı şəkildə bir-birilə bağlamaq niyyətimiz yoxdur.**

Bircə onu deyə bilərik ki, bir -iki il bundan əvvəl daha gərgin vəziyyət proqnozlaşdırılırdı və əgər bu, baş vermədisə, manat və bütövlükdə ölkə iqtisadiyyatı duruş gətirdisə, deməli hökumətin işi elə də pis qurulmayıb.

Amma bir ciddi nüans var və onu burada mütləq qeyd etməliyik. Əvvəlcə onu deyək ki, biz məsələyə yalnız bir vətəndaş və istehlakçı kimi qiymət verməK iqtidarındayıq. Bu aspektdən yanaşanda isə etiraf etməli olursan ki, milli valyuta məzənnə baxımından güclənməyə davam etsə də, onun alıcılıq gücü gündən-günə aşağı düşməkdədir. Bazar və mağazalarda elə bir vəziyyətdir ki, adamın sabitlikdən danışmağa dili belə gəlmir, çünki qiymətlər demək olar ki, hər ay, bəzən də hər həftə artır.

Bəlkə də təkcə belə bir vəziyyət artıq yeni hökumətin təşkilini zəruri edə bilərdi. Amma nə qədər qəribə olsa da, ölkədə yeni kabinetin təşkili bir Konstitusiya və həm də zaman məsələsidir. Ali Qanuna son dəyişikliklər ediləndən indiyədək hökumətin yeni bir struktura transformasiya edəcəyi haqda söhbətlər bitib-tükənmir.

Neçə dəfə konkret tarix də dilə gətirilibdir, amma bunların heç biri özünün təsdiqini tapmayıbdır. Təbii ki, bu, heç də o demək deyildir ki, səhifəni çevirmək lazımdır. Yox, məsələ nə vaxtsa həllini tapmalı və ali icra hakimiyyəti Ali Qanunun tələblərinə uyğunlaşdırılmalıdır.

Zaman məsələsinə gəldikdə isə, o, da yeni bir problem deyildir və dəfələrlə bu və ya digər şəkildə gündəmə gətirilib. Məsələ bundadır ki, hökumətin bir yaş baxımından da yenilənməsinə ehtiyac var.

Düşünürük ki, bu keçid də ağrısız və problemsiz baş tuta bilər, çünki indi hökumətin strukturunda yetərincə gənc insanlar var və onları birinci vəzifələrə təyin etməklə də yeni hökumət kabinetinin təşkilini başa çatdırmaq mümkün bir məsələdir.

Amma bu xüsusda hələki bir söz deyilmir. Bəlkə də hakimiyyət özü bu məsələni bir o qədər də aktual hesab etmir. Bizə də elə gəlir ki, əslində vitse - prezidentlik institutunun yaradılması ilə bir az tələskənliyə və hətta dolaşıqlığa yol verildi. Prinsipcə, başqa ölkələrdə olduğu kimi bir vitse - prezidentlə kifayətlənmək olardı. Belə olsaydı Ali Qanunla ali icra hakimiyyətinin indiki strukturu arasında ciddi uyğunsuzluq yaranmazdı.

Amma bir daha deyirik ki, zaman faktoru da var. Biz sanki "Hər şeyin təzəsi, hökumətin köhnəsi!"-deyib durmuşuq. Amma həyat və zaman bir başqa şey deyir. Üstəlik bəzən həyatın və ya zamanın diqtəsi bütün digər amillərdən daha kəsərli olur.

İndi necə olacaq? İqtisadiyyatın nisbi sabitliyini qoruyub saxlamaq mümkün olacaqmı? Təəssüf ki, birmənalı söz demək olmur. Hökumət bir qayda olaraq dünya iqtisadiyyatının durumuna apelyasiya edir. Gəl ki, dünya iqtisadiyyatında elə bir təlatüm duyulmur, sadəcə neftin qiyməti aşağı düşübdür və bu, zənnimizcə, digər sahələrin inkişafını stimullaşdıran amildir.

Elə dünya ölkələrinə baxanda da ən çox problemlər yaşayan ölkələr məhz neft ölkələridir. Azərbaycan da neft ölkəsidir və bəlkə də buna görə burada bədbin proqnozlar sarıdan heç bir kasadlıq duyulmur, gah bu, gah da ki, digər "mütəxəssis" ən böyük problemlərin hələ qarşıda olduğunu "müjdələməyi" özü üçün bir "vətəndaşlıq borcu" hesab edir...

Əslində belə "proqnoz"ların stimullaşdırıcı tərəfləri də var, onlar daim bazardakı tarazlığı pozurlar. Çox təəssüf ki, bu "proqnoz"ları səsləndirən adamlar özləri bunun fərqinə varmırlar, amma "stimullaşdırıcı infliyasiya" deyilən bir anlayış da var. Adi bir "proqnoz"la da bazarda çaxnaşma və ya həyəcan yaratmaq mümkündür, xüsusən də o halda ki, bazarlar və elə bütövlükdə ölkə də nisbi, dayanıqsız tarazlıq halında olur.

**Qərəz, böyük narahatlıqlar üçün əsas olmasa da, böyük rahatlıq və arxayınlıq üçün də zəmin yoxdur. Bu mənadan yanaşanda hökumət daim işləməlidir. Onun işinin effektli olması isə həm də hökumət üzvlərinin yaşından, nə qədər çevik və işgüzar olmasından asılıdır - bunu bir daha diqqətə gətirmək zorundayıq...**

YENİ MÜSAVAT
N 194 (6808) 21 sentyabr 2017



# Şairin araq butulkası

Zamin HACI
zaminhaci@gmail.com

**"Saqi, səhərdir, sun bərü,
cami-Cəmi nuş edəlim,
Bu səngisar olmuş səri ol
camla sərxoş edəlim".**
*(Həbibi, 15-ci əsr)*

**Neft pulları azalır, ölkənin ənlik-kirşan projeləri də uyğun olaraq ixtisara düşübdür. Bu baxımdan, yeganə kosmetika zavodumuzda srağagünkü yanğın simvolik idi. Həmin gün Rusiyada, başqa neft narkomanı dövlətdə də ayılar neftçini parçalayıb yemişdilər. Bağda ərik var idi söhbətidir. Neftçi indi lazımsız peşəyə çevrilməkdədir.**

O cümlədən, Sumqayıtda bir futbolçumuzun telefon kabelləri oğurlayıb satdığı üzə çıxdı, gənc və perspektivli idmançını (hətta gənclər yığmamızda oynayıbmış) tutub dama saldılar. Sözgəlişi, bu yaxında hamı ölkəmizdə futbolun inkişafından danışırdı, mən isə 6-7 ildir ümumiyyətlə futbola baxmadığımdan dedim bir baxım görüm söhbət nədən gedir. Elə həmin axşam həmin uğurlu komanda xaricdə meydana çıxmışdı, ancaq cəmi 1-2 nəfəri yerli futbolçu, qalanları isə xarici olan bu komanda bizim nəyimizə lazımdır, şəxsən mənə çatmadı. O bir məşhur komandanın yaxasına "odlar yurdu"-zad yazdırıb reklam eləməyimiz bundan abırlı idi, çünki bu komandanın futboldan ümumiyyətlə xəbəri yox idi, çoxlu top buraxıb çıxıb getdilər. Bəlkə də zarafat üçün yaradılmış komandadır.

Əslində nəyin zarafat, nəyin ciddi olduğunu millətə anlatmaq çox çətindir. Mən özüm bu situasiya ilə çox üzləşmişəm. Örnək üçün, dünənki yazımda AYB-nin binası önündə qurumun sədri Anarın qəlyanına baxmağın xanımlar üçün pulsuz olması elanının asılmasını göstərmişdim. Bəzi zəhmətkeşlərimiz elə sandılar bu nəsə şit zarafatdır. Halbuki, bu adamların dünyadan, respublikamızdan heç anlayışları yoxdur. Olsa bunu zarafat hesab eləməzdilər. Azərbaycan Ədəbiyyat Muzeyi adlı idarə var. Bakının göbəyində, düz Fontanlar meydanının böyründədir. Direktoru da hörmətli Rafael müəllimdir - repressiya olunmuş yazıçılar haqda kitablar yazıb özü repressiya komandasına üzv olan insan. Bax həmin ərazidən yolunuz düşsə mütləq muzeyə baş çəkin. Çünki dünyada belə tragikomik muzey çox azdır. (Amerikadakı Yanmış Yeməklər Muzeyini və Xorvatiyadakı Bədbəxt Sevgilər Muzeyini çıxmaq şərtiylə). Orda ikinci qatda, çağdaş ədəbiyyatımıza həsr olunan bölümdə şair Qabilin içdiyi arağın butulkası eksponat kimi qoyulubdur. İndi mən nə edim, oxucuları bunun həqiqət olmasına necə inandırım? Gedib gözləri ilə görsələr də inanmayacaqlar, deyəcəklər yəqin Zaminlə Rafael müəllim sözləşiblər, qurğu qurublar, bizi ələ salırlar.

Bu camaat Xaçmaz diyarşünaslıq muzeyində Cəlal əminin uzunboğaz çəkmələrinin saxlanmasına da inanmaz. Ümumiyyətlə, hər şeyə şübhə ilə yanaşan millətdir. Ona görə bizdə elm bu cür şiddətlə inkişaf edibdir, axı müdriklər deyiblər: "Şübhə həqiqətin anasıdır". Bu temada Hüseyn Cavidin misralarını yazım, oxuyun:

*"Şübhədir hər həqiqətin anası,
Şübhədir əhli-hikmətin babası...
Şübhə artarsa, həm yəqin artar,
Mərifət nuru şübhədən parlar"*

**Şübhəçilikdən başqa, bizim millətin müsbət keyfiyyətlərindən biri də barışcıllıqdır, köhnə dilimizdə desək, sülhpərvərlikdir. Yadıma gəlir, hələ sovet dövründə bizdə hər tində, hər yol ayrıcında, hər təpənin başında, hər dərənin dibində mütləq bir sülh çağırışı olurdu. Görürdün qoca planetimizin meridianlar, paralellər üzrə skeletinin şəkli çəkilibdir, üstündə yekə bir fəhlə əli hansısa Amerika raketini ortadan qırır, altdan isə "Dünyaya sülh gərəkdir!" yazılıb. Ya da "Sülh! Əmək! May!" plakatı olurdu. Təzəlikcə Donald Trampla koreyalı Kim Çın İn raket davası eləyəndə yadıma düşmüşdü. Bir də yadıma gəlir, 1993-cü ilin avqustun 23-də Füzuli rayonu işğal ediləndə 3-4 rayonun camaatı birdən qaçaqaça düşmüşdü, gəlib Beyləqanda bir balaca körpünün üstündə tıxac yaratmışdılar. Həmin tıxacın yuxarısında təpədə məhz "Dünyaya sülh! Miru mir!" (ikinci hissə bəzən rusca yazılırdı) şüarı qalmışdı və müharibədən qaçan adamların fonunda bu plakat olduqca tragikomik görünürdü. Bəs bu barış temasını indi niyə yazdım, bu da qalsın gələn nömrəyə, çünki söz-sözü çəkdi, bizə ayrılan yer bitdi.**

# Amerikada tarixi təmaslar: Bakı üçün mühüm gəlişmə

## İsraildən və yəhudi lobbisindən Ermənistana tərs şillə - "Prioritetimiz Azərbaycandır!.."

**Azərbaycan prezidenti İlhamin Əliyev BMT Baş Məclisinin 72-ci sessiyası çərçivəsində görüşləri davam edir. Diqqət çəkəndir ki, onlardan biri və birincisi ABŞ-dakı yəhudi təşkilatlarının aparıcı simaları ilə olub. Görüşün əsas müzakirə mövzusu tərəflər arasında əlaqələri daha yüksək səviyyəyə qaldırmaq və Dağlıq Qarabağ məsələsi ilə bağlı idi. Maraqlıdır ki, bundan az sonra İsrailin baş naziri Binyamin Netanyahu BMT tribunasından çıxış edərək, yəhudi dövləti ilə Azərbaycanın münasibətlərini nümunə gətirib.**

Azərbaycan prezidenti İlham Əliyevin BMT çərçivəsində yəhudi icması ilə uğurlu görüşləri, İsrail baş nazirinin isə Azərbaycanla əlaqələri nümunə göstərməsi düşmən ölkə üçün "soyuq duş" effekti yaradıb; Sərkisyanın BMT-dəki təxribatçı çıxışı necə sıfırlandı?..

"İsrail Azərbaycan və Qazaxıstan kimi müsəlman ölkələri ilə əməkdaşlığı genişləndirib". APA-nın məlumatına görə, bunu Binyamin Netanyahu BMT Baş Assambleyasının Nyu-Yorkda keçirilən 72-ci sessiyasında çıxışı zamanı deyib. İsrailin müsəlman ölkələri ilə münasibətlərindən söz açan baş nazir ölkəsinin Azərbaycanla əlaqələrini nümunə gətirərək bildirib: "Biz Azərbaycan və Qazaxıstandakı müsəlman dostlarımızla əməkdaşlığımızı genişləndirmişik".

Netanyahu, İsrailin Fələstin də daxil olmaqla, bütün ərəb qonşuları ilə sülhə nail olmaq istədiyini də qeyd edib: "Biz İordaniya və Misirlə sülhə nail olduq. Dünən burada Misir prezidenti Abdel-Fəttah əl-Sisi ilə görüşdüm. Mən onun sülhün bərqərar olunmasına verdiyi dəstəyi alqışlayıram və sülhün daha da genişləndirilməsinə dair onunla, eləcə də regionun digər liderləri ilə sıx əməkdaşlıq edəcəyimizə ümid edirəm".

***

Qeyd edək ki, həm prezident İlham Əliyevin Amerikanın yəhudi lobbisinin rəhbərləri ilə uğurlu görüşü, həm də İsrail baş nazirinin ölkəmizlə əlaqələrinin yüksək səviyyədə olduğunu ilk dəfə BMT kürsüsündən bəyan eləməsi (hər halda bu sırada o, Ermənistanın adını yerli-dibli çəkməyib) bölgədəki, Qarabağ məsələsi ətrafındakı mürəkkəb situasiya fonunda Azərbaycandan ötrü olduqca mühüm əhəmiyyət daşıyır.

**Əvvəla, hər iki fakt Azərbaycanın beynəlxalq səviyyədə mövqeyinin gücləndirməkdə davam etdiyinə dəlalət edir.** Çünki İsrail dövləti və yəhudi lobbisi nəinki ABŞ-ın xarici siyasətinə və mövqeyinə, bütövlükdə qlobal siyasətə təsir imkanına malik nüfuzlu dövlət və icmadır. Beynəlxalq erməni lobbisinin Azərbaycan və qardaş Türkiyə əleyhinə təbliğatını, o sırada işğala və saxta soyqırım iddialarına haqq qazandırmağa yönəlik məkrli kampaniyanı neytrallaşdırmaq üçün də hər iki amilin həlledici rolu var.

**İkinci yandan, BMT-dəki bu təmaslar və çıxışlar işğalçı Ermənistanın son vaxtlar Azərbaycanla İsrailin arasını vurmağa yönəlik təbliğat kampaniyasının bütünlüklə iflası anlamına gəlir.** Yeri gəlmişkən, BMT sessiyasından az öncə Azərbaycanın müdafiə naziri Zakir Həsənovun İsrailə başa çatan çoxgünlük və



uğurlu səfəri də erməni təbliğat maşınının fiaskosuna layiqli töhfəsini vermiş oldu.

**Nazirin səfəri çərçivəsində iki ölkə arasında hərbi-texniki əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılması haqda razılığa gəlindi, bəzi mühüm sənədlər imzalandı, o cümlədən ermənilərin qorxulu röyası olan "Dəmir günbəz" raketdən müdafiə sistemləri ilə bağlı danışıqların sürətləndirilməsi qərara alındı.**

Lakin bəllidir ki, iki dövlət arasında əlaqələr indi təkcə hərbi və hərbi-texniki sferanı əhatə eləmir. Söhbət həm də iqtisadi, energetik, humanitar və digər sahələrdə uğurlu əməkdaşlıqdan gedir - hansı əlaqələr ki, monoetnik Ermənistanla yəhudi dövləti arasında yerli-dibli mövcud deyil.

Bundan əlavə, Azərbaycanda yüz illərdir yəhudilər tam təhlükəsizlikdə, Azərbaycan dövlətinin qarantı altında yerli xalqla mehriban şəraitdə yaşayırlar. Yəhudi vətəndaşlarımızdan Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan, Milli Qəhrəman adı alan da var.

***

**Ermənistanı ən çox narahat edən də Azərbaycanın təkcə yəhudi dövləti ilə deyil, beynəlxalq yəhudi lobbisi ilə də isti və dərin münasibətlər qura bilməsidir.** Bu isə Dağlıq Qarabağın, işğal altındakı digər Azərbaycan ərazilərinin öz qanuni sahibinə qaytarılması yolunda çox önəmli addımlar və gəlişmələrdir, beynəlxalq rəyin bu yöndə hazırlanmasına mühüm töhfələrdir.

Onu da unutmaq olmaz ki, İsrail Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyən ölkələrdəndir. Təl-Əviv ərazi bütövlüyümüzü və suverenliyimizi təkcə dəstəkləmir, eyni zamanda illərdir sərhədlərimizin toxunulmazlığının təmin edilməsi üçün silahlı qüvvələrimizin modernləşməsinə və ordumuzun döyüş təcrübəsinin artırılmasına real töhfə verir. Keçən ilin aprelindəki "4 günlük müharibə" zamanı bu töhfə özünü qabarıq şəkildə göstərdi. Düşmən ölkəni təlaşlandıran həm də budur.

***

Yəhudi lobbisi və dövləti ilə Azərbaycanın əlaqələrinin bir mühüm önəmi də yəhudilərin ənənəvi olaraq ABŞ prezidentlərinə təsir imkanlarıdır. Məhz bu təsirin nəticəsidir ki, Donald Tramp Ağ Evə gələr-gəlməz ABŞ İsrailin israrı ilə təzədən İranla gərginləşmə kursu götürdü, ona qarşı sanksiyalar paketi qəbul olundu.

Yeri gəlmişkən, dünən BMT tribunasından çıxışı zamanı Donald Tramp Azərbaycana da müsbət planda dəxli olan fikir söyləyib. "BMT üzvü olan ölkələr Ukraynadan Cənubi Çin dənizinə qədər ərazidə olan ölkələrin suverenliyini qorumalıdırlar", - Tramp deyib. Onun sözlərinə görə, dünya dövlətləri sərhədlərə, mədəniyyətlərə hörməti dəstəkləməlidir.

Bu - əlbəttə ki, ən əvvəl Ermənistan və Rusiya timsalında işğalçı dövlətlərə aiddir. İşğalçı dövlətlərə BMT sıralarında yer ola bilməz - nəinki onların başçılarına mötəbər tribunadan söz demək haqqı tanına. Əfsus ki, Serj Sərkisyana 4-cü dəfə belə bir şans tanındı və o da gözlənildiyi kimi, mötəbər kürsüdən yenə beynəlxalq hüquq normalarına həqarət dolu təxribatçı bir çıxış yapdı, qonşu ölkənin 20% ərazisinin işğalını az qala beynəlxalq hüquq çərçivəsində "haqq qazandırmağa" çalışdı.

**Əlavə edək ki, Ermənistan 2014-cü ilin martında BMT Baş Məclisində Ukraynanın ərazi bütövlüyü əleyhinə səs vermiş və Rusiyanın Krımın ilhaqını dəstəkləmiş 9 izqoy (tullantı - red.) dövlətdən biridir.**

**❑ Analitik xidmət**

**Sentyabrın 19-da Rusiya Ali Məhkəməsinin Apelyasiya Kollegiyası Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) ləğv edilməsi barədə məhkəmə qərarını qüvvədə saxlayıb. İşə Ali Məhkəmənin Rəyasət Heyətində baxılacaq. Lakin Rəyasət Heyətində baxılacaq tarix yaxın müddətdə məlum olacaq. Xatırladaq ki, mayın 15-də Rusiya Ali Məhkəməsi Ümumrusiya ÜAK-ın qeydiyyatını ləğv edib. Buna səbəb kimi Azərbaycan diaspor təşkilatının Rusiya qanunvericiliyini pozması göstərilib. ÜAK bu qərardan apelyasiya şikayəti verib.**

# ÜAK məsələsində Rusiyanın inadkarlığının səbəbi

## Tanınmış politoloqdan maraqlı açıqlamalar

ÜAK isə bu qərardan sonrakı addımlarını düşünür. ÜAK-dan verilən məlumata görə təşkilatın vəkilləri Ali Məhkəmənin Rəyasət Heyətinə apelyasiya ilə müraciət edəcəklər. Təşkilatın buraxılıb-buraxılmayacağı ilə bağlı suala cavab verən ÜAK rəsmisi deyib ki, ən pis halda təşkilatın adını dəyişərək, yenidən Ədliyyə Nazirliyinə qeydiyyat üçün müraciət ediləcək.

**Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** AZƏRTAC-a müsahibəsində deyib ki, ümumiyyətlə, Azərbaycan ilə Rusiya arasında humanitar əlaqələrin inkişafında mühüm rol oynayan Ümumrusiya Azərbaycanlıları Konqresinin ləğvi barədə qərar siyasi baxımdan qeyri-dost addımdır. Bu, Rusiya və Azərbaycan tərəfindən bəyan olunan və iki ölkə arasında strateji tərəfdaşlıq zəminində inkişaf edən yüksək səviyyəli əlaqələrə ciddi zərbə vurur: “Rusiya Federasiyasının Ümumrusiya Azərbaycanlıları Konqresinin ləğvi barədə qeyri-dost xarakterli qərarının məqsədini başa düşmək çox çətindir. Xüsusilə o halı nəzərə almalıyıq ki, Rusiya ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biridir və bu status tərəflərə münasibətdə tarazlı yanaşmanın nümayiş etdirilməsini tələb edir. Ümumrusiya Azərbaycanlıları Konqresinin ləğvi ilə Rusiyada yaşayan Azərbaycan icması nümayəndələrinə münasibətdə qeyri-ədalətli yanaşma tətbiq olunduğu halda, Rusiya Ermələri İttifaqına tam dəstək göstərilir və bu qurum fəaliyyətini davam etdirir.

Hər bir halda Rusiya Federasiyasının Ümumrusiya Azərbaycanlıları Konqresini ləğv etmək siyasəti təəccüb, ciddi sual və dərin təəssüf doğurur".

*Beləliklə, artıq get-gedə əminlik yaranır ki, bütün aparılan işlərə baxmayaraq ÜAK-ın qeydiyyatının bərpa edilməsinə nail olmaq müşkül məsələdir. Azərbaycanın buna nədən gücü yetmir?*

**Politoloq Qabil Hüseynli** “Yeni Müsavat”a bildirdi ki, Rusiya oradakı azərbaycanlıların təşkilatlanmasını istəmir. Ona görə də Azərbaycanın bütün cəhdlərinə rəğmən ÜAK məsələsində müsbət həllə nail olunmur: “ÜAK Azərbaycan




maraqlarının qorunmasında və azərbaycanlıların təşkilatlanmasında böyük də olmasa, əhəmiyyətli rol oynayırdı. Rusiya siyasiləri oradakı azərbaycanlıları mütəşəkkil təşkilatlardan məhrum etməyə və onların başıpozuq bir kütlə şəklində qalmasına tərəfdardır. Bu səbəbdən də ÜAK kimi təşkilatların, xüsusilə Azərbaycanla sıx tellərlə bağlı olan təşkilatların fəaliyyətinə icazə vermək istəmir. Ermənistana isə belə icazə var. Sayca Rusiyada ən çox işçi miqrant kütləsinə malik olan azərbaycanlıların avanqard təşkilatının isə qeydiyyatının ləğv edir və bu mövqeyində israrla qalır. Son zamanlar ÜAK yenidən təşkil olunmuşdu, sıralarına yeni-yeni adamlar qəbul edirdi. O adamların da əli bütövlükdə Rusiyada yaşayan əksər azərbaycanlılara çatırdı. Rusiya bax bu cəhəti, azərbaycanlıların tərəfindən idarə edilməsini, yeri gələndə həmin təşkilatın azərbaycanlıları mütəşəkkil bir qüvvəyə çevirə biləcəyini heç cür həzm edə bilmirdi. Amma Söyün Sadıqov, Abbas Abbasov kimi adamların təşkil etdiyi və Azərbaycan üçün bir qara qəpiklik mənfəəti olmayan, Rusiyadakı azərbaycanlıların maraqlarını ifadə etməyən, yalnız Rusiyanın göstərişi ilə oturub-duran təşkilatlara isə toxunulmur. Rusiya orada yaşayan azərbaycanlıların müstəqil siyasi qüvvəyə çevrilməsini istəmir. Mən bununla heç də demək istəmirəm ki, orada yaşayan azərbaycanlılar Bakıdan idarə olunsunlar və yalnız buradan verilən göstərişləri yerinə yetirsinlər. Biz bilirik ki, Rusiyada yaşayan azərbaycanlıların saysız-hesabsız problemləri var. Bu problemlərə Rusiya dövləti demək olar ki, biganə yanaşır”.

**Q.Hüseynlinin sözlərinə görə, görünür Rusiyaya yalnız müti, onun əmrlərinə sözsüz tabe olan, ana vətənlə əlaqələri olmayan bir təşkilat lazımdır:** “Rusiya hökuməti görünür, kütlə səviyyəsində saxlanılan azərbaycanlıların orada mövcudluğuna dözə bilir. Azacıq şüurluluq nümayiş etdirən, siyasi həyata müdaxilə etməyə başlayan, siyasi təşkilatlarda iştirak edən adamları isə qətiyyən həzm edə bilmirlər. Rusiya dövlətinin azərbaycanlılara münasibətinin formalaşmasında Rusiyada dərin kök atmış, başlarında güclü fiqurların dayandığı erməni lobbisi ciddi rol oynayır. ÜAK məsələsində erməni lobbiçilərinin də Rusiya siyasətinə təsiri hiss edilir. Bütün bunların nəticəsidir ki, Azərbaycanın ÜAK-la bağlı çabaları nəticə vermir”.

**Politoloq vurğuladı ki, artıq Azərbaycan özü üçün müəyyən seçimlər etməlidir.**

❑ **Etibar SEYİDAĞA**

# Bizə güclü və demokratik Rusiya lazımdır, yoxsa...



## Fərəc Quliyev: “Azərbaycan manevretmə imkanlarını indidən müəyyən etməlidir”

**Son illərdə Rusiyaya qarşı sərtləşdirilən sanksiyaların fonunda Kremlin çöküşünün başlamasının Azərbaycana təsirləri ilə bağlı gedən müzakirələr hər zaman aktuallığını qoruyur. Bunun region və ölkəmiz üçün hansı nəticələri verəcəyi ilə bağlı ən müxtəlif mövqelər var.**

Tarix boyu başımıza gələn bəlalarda, xüsusilə Dağlıq Qarabağ münaqişəsinin yaranmasında əsas rol oynayan Rusiyanın parçalanmasını istəyənlər çoxluq təşkil etsələr də, bunu istəməyənlər də az deyil. Bir-birinə təzadlı mövqelərin də hər birinin özünəməxsus ciddi arqumentləri var. Dağlıq Qarabağ torpaqlarını işğaldan azad olunmasında nicat yolu kimi Kremlin çöküşünü görənlər bunu daha çox arzu edirlər. Bunu istəməyənlər isə Cənubi Qafqazda əsas söz sahibi olan böyük bir dövlətin parçalanmasından qopan qəlpələrin Azərbaycana da toxunacağını qeyd edirlər. Bu baxımdan güclü və demokratik Rusiyanın Azərbaycan üçün vacib olduğunu dilə gətirənlər az deyil. Dünyanın Rusiya kimi nüvə silahına malik bir ölkənin dağılmasına hələ də hazır olmadığı vurğulanır.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** Rusiya ətrafında cərəyan edən proseslərin Azərbaycanın iradəsindən asılı olmadığını bildirdi: “Bizim hər hansı formada hadisələrə təsir etmək imkanlarımız yoxdur. Biz sadəcə baş verə biləcək uçqunun altında qalmamaq üçün müəyyən tədbirlər görməliyik. Bütün variantlara hazır olmaq lazımdır. Əlbəttə, bütün imperiyalar kimi Rusiya da dağılmağa məhkumdur. Biz bunun kataklizmlər şəklində olmasını arzulamırıq. Yumşaq şəkildə bunların baş verməsində maraqlıyıq. Yuqoslaviya da bir zamanlar Avropada hegemon imperiyalardan biri idi. Amma indi onun yerində mövcud olan dövlətlər inkişaf mərhələlərini sürətlə keçirlər. Hər bir imperiyanın tərkibində olan dövlətlər müstəqillik qazandıqdan sonra inkişaf xəttini tuturlar. Postsovet ölkələrini burada misal çəkə bilərik, çoxları Avropa yolunda inkişaf edirlər. Bizim də elə bir inkişaf potensialımız var. Amma burada Rusiya maneələri mövcuddur. Tədricən Rusiya öz doğal əraziləri çərçivəsində demokratik bir ölkəyə çevrilərsə, işğalda saxladığı ərazilərdən əl çəkərsə, bu ölkədə tərəqqi olacaq. Hesab edirəm ki, bunun yumşaq şəkildə baş verməsi bu cür proseslərə gətirib çıxara bilər. Başqa variantlar baş verərsə, çalışmalıyıq ki, bu uçqunun altında qalmayaq. Modeli biz hazırlamırıq, şəkilləndirmə də bizdən asılı deyil. Bütün hallarda etiraf olunmalıdır ki, Azərbaycanın qarşılaşdığı bütün problemlərin səbəbkarı Rusiyadır. Bu günləri əsas problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin də səbəbkarı Kremlidir. Hegemonluq, revanş iddiasında olan da Rusiyadır. Belə dövlətlərin faşist Almaniyası kimi mütərəqqi bir dövlətə çevrilməsi bəşəriyyətin önündə duran əsas işlərdən biri olmalıdır. Qaçılmaz bir prosesdir, Rusiya da dağılacaq. Ya özü-özünü dəyişməlidir, ya da onu parçalayıb, yeni dövlətlər quracaqlar. Bütün hallarda bu dəyişikliyin ölkəmizə xeyir verəcəyini düşünürəm. Orada kataklizmlər baş verərsə, Azərbaycan bir neçə manevretmə imkanlarını indidən müəyyən etməlidir”.

**“Sivilizasiyalar və konfliktlər” Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli** Rusiyanın dağılmasının Azərbaycanın Cənubi Qafqazda lider dövlətə çevrilə biləcəyinə səbəb olacağını söylədi: “Müasir Korfagen Rusiya birmənalı şəkildə dağılmalıdır. SSRİ dağılmaq ərəfəsində olanda da buna oxşar fikirlər səslənirdi ki, SSRİ-nin dağılması dünyaya və regiona daha çox ziyan vura bilər və s. Buna görə də bəzi Qərb dairələri SSRİ-nin dağılmasına tərəddüdlə yanaşırdı. Gələcək göstərdi ki, bu çox yanlış fikir idi. İndi də eyni yanlış fikirlər Rusiya ilə bağlı səslənir. Rusiya dağılsa, ən azı bir imperiya Azərbaycanın sərhədindən yox olacaq. Rusiya adlı dövlət yox olandan sonra Azərbaycanın nəinki Qarabağ problemi olmayacaq, üstəlik dağılan imperiyanın ərazilərində yeni müsəlman, türk respublikaları qurulacaq. Şimali Qafqazda yeni müsəlman respublikaları və ya yaxud bir dövlət qurulacaq. Bu da bütöv Qafqazda bir müsəlman üstünlüyünə gətirib çıxaracaq. Nəticədə Azərbaycan Qafqazda lider ölkəyə çevriləcək, təbii ki Azərbaycan tərəfindən ağıllı və iddialı siyasət yürüdülsə. Rus şovinizmdən əsrlərdir ki, həm Avropa, həm də Asiya xalqları əziyyət çəkir. İvan Qroznıdan başlayaraq vahid rus dövləti tarixində bircə dəfə demokratik ölkə olub. O dönəm də yeni tariximizə aiddir, Yeltsinin prezidentliyi dövrünə. Bu demokrat Yeltsinin dövründə də Azərbaycan Qarabağı, Gürcüstan Abxaziya və Cənubi Osetiyanı, Moldova isə Dnesteryanı bölgəsini itirdi. Qeyd etdiyim bütün proseslər Rusiyanın bilavasitə iştirakı ilə baş verdi. Yəni deməyim odur ki, Rusiyanın başına demokratiya gəlsə, belə bu dövlət öz imperiya təfəkküründən əl çəkən deyil. Əgər biz region və dünyada, nəhayət ki, sülh, sabitlik və əmin-amanlıq istəyiriksə, Karfagen kimi Rusiya da dağılmalıdır. Və bir də biz Rusiyanın dağılmasına Azərbaycanın milli maraqları acısından baxmalıyıq. Rusiyanın dağılması Azərbaycanın ərazi bütövlüyünə və Qafqazda liderliyinə yol açır”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 194 (6808) 21 sentyabr 2017

**Bugünlərdə dünyanın nəzər-diqqəti ABŞ-ın Nyu-York şəhərinə, BMT-nin Baş Assambleyasının keçirildiyi ünvana yönəlib. Ona görə ki, 25 sentyabra kimi davam edəcək sessiya çərçivəsində dünyanın qaynar bölgələri ilə bağlı bir sıra vacib müzakirələr, o cümlədən Azərbaycanın işğal altındakı ərazilərlə bağlı sənəd gündəliyə salınıb və hər kəs ədalətli qərarların veriləcəyinin intizarındadır.**



# BMT Baş Assambleyası - dünyanın savaş meydanı...

## Ən nüfuzlu və aparıcı beynəlxalq təşkilatın 72-ci sessiyası həyəcanla izlənilir; ötən onilliklərdə bu qurumun izlaslarında elə olaylar olub ki...; Ermənistan prezidenti yenə məsuliyyətsiz çıxışı ilə yadda qaldı; **politoloq:** "Bu, bir daha onu göstərir ki..."

BMT baş katibi Antonio Qutteriş Baş Assambleyanın 72-ci sessiyasında ümumsiyasi müzakirələrərin açılışı zamanı ümidverici çıxış edib. Deyib ki, dünyada qeyri-sabitlik və münaqişələr dərinləşir, lakin bu prosesi aradan qaldırmaq mümkündür ("Report") "Birləşmiş Millətlər Təşkilatı ciddi çağırışlarla üzləşir. İnsanlar çətinlik çəkir və əziyyət içindədir. Onlar təhlükəsizlik sahəsinin pisləşdiyinin, bərabərsizliyin, münaqişələrin dərinləşməsinin, iqlimin dəyişməsinin şahidi olurlar. Bütün bunlara baxmayaraq, biz sülhə nail ola biləcəyik" - baş katib bildirib. A.Qutteriş vurğulayıb ki, Suriyada, Yəməndə, Əfqanıstanda baş verən münaqişə və böhranları yalnız siyasi yolla həll etmək lazımdır.

Baş katibdən fərqli olaraq, qardaş Türkiyə prezidenti Qarabağın işğalına ayrıca yer ayırıb. Deyib ki, Cənubi Qafqazda Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünün bərpa edilməsi bölgədə sülhün bərqərar olması üçün əsas şərtdir.

Ali məclisdə İsrailin baş naziri Binyamin Netanyahu da ölkəmizə diqqət çəkib. O, Təl-Əvivin Azərbaycan və Qazaxıstan kimi müsəlman ölkələri ilə əməkdaşlığı genişləndirdiyindən bəhs edib, Fələstin daxil, digər İslam dövlətləri ilə də normal əməkdaşlığa maraqlı olduğunu vurğulayıb.

BMT Baş Assambleyasının sessiyasının ilk günləri hələlik sakit keçir. Amma ali təşkilatın tarixində ilginc çıxışlar və hadisələr baş verib. Bir sıra hallarda isə BMT Baş Assambleyası savaş meydanına dönüb. Bu savaş isə BMT tarixində son illərədək davam etməkdədir. Məsələn, 26 sentyabr 1960-cı ildə Fidel Kastronun BMT-nin tribunasından 4 saat 29 dəqiqə davam edən çıxışı BMT tarixində ən uzun çıxış kimi "Ginnesin rekordlar kitabı"na düşüb. 1964-cü il oktyabrın 12-də BMT Baş Assambleyasında ilk dəfə olaraq SSRİ lideri çıxış edib. Nikita Xruşşov filippinli hesabatçının tərcüməçiləri "Amerika imperializminin nökəri" adlandırıb. Hətta iclasın gedişi zamanı N.Xruşşov ayaqqabısını çıxararaq, BMT tribunasını döyəcləmişdi. Tarixçilər bunu sovet liderinin sonradan Amerika ilə münasibətlərin pozulması kimi də qiymətləndirib. Sonralar məlum olub ki, Nikita Xruşşovun adını daşıyan nəvəsi həmin ayaqqabıları hərracda 30 000 ABŞ dolları qiymətinə satıb.

1974-cü il noyabrın 13-də isə Fələstin lideri Yasir Ərəfat BMT Baş Assambleyası tribunasından İsrailə müraciətlə "Mən bir əlimdə zeytun budağı, digərində isə azadlıq uğrunda döyüşçü silahı ilə gəlmişəm. Zeytun budağının əlimdən düşməsinə imkan verməyin!" deyərək, tarixə düşən fikirlər səsləndirib.

**2013-cü ildə dünyasını dəyişmiş Venesuela prezidenti Uqo Çaves isə anti-amerikan bəyanatları ilə daim gündəmdə olub. 2006-cı ilin sentyabrında BMT Baş Assambleyasının iclasında çıxışı zamanı Çaves ondan bir gün öncə bu kürsüdə çıxış edən amerikalı həmkarı Corc Buşu "şeytan" adlandıraraq tənqid atəşinə tutmuşdu**: "İblis, insan cildinə girmiş iblis, bu binadadır. Düz bu yerdə. Mən hələ də kükürd iyini hiss edirəm. ABŞ prezidenti insan cildinə girmiş iblisdir. O bizə həyatı öyrədir, özünü dünyanın hökmdarı kimi aparır. Ona psixiatr lazımdır. Onun diaqnozu Hiçkokun filmlərindəkindən də ciddidir". Əvvəllər də ipə-sapa yatmayan Çaves rəsmi müsahibələrində Corc Buşu "uzunqulaq", "əyyaş" və "qorxaq" adlandırmışdı.

BMT tribunasında çıxışları daim maraqla izlənilən digər bir lider isə Liviya lideri Müəmmar Qəddafi idi. O, 2009-cu il sentyabrın 23-də BMT Baş Assambleyasının 64-cü sessiyasında 15 dəqiqə danışmalı olduğu halda, 1.5 saat danışmışdı. Liviya lideri öz nitqində BMT Təhlükəsizlik Şurasını kəskin tənqid edib, onu "terrorizm şurası" adlandırmışdı. Sonrakı illərdə Qərbin layihəsi olan "Ərəb baharı"nın nəticəsində tifaqı dağılan Liviya inqilabının lideri həmin çıxışında demişdi ki, ABŞ prezidenti Corc Buş və Böyük Britaniyanın baş naziri Toni Bler İraq prezidenti Səddam Hüseynin edamında şəxsən iştirak ediblər. Çıxışının sonunu o, iştirakçılara xitabən "Siz artıq yorulmusunuz. Hamınız yatırsınız" deməyi də unutmamışdı. M.Qəddafi tribunanı "Hitleri siz ortaya çıxardınız, biz yox. Siz yəhudiləri təqib etdiniz. Holokostu da siz təşkil etdiniz" sözləri ilə tərk etmişdi.

Elə çıxmasın ki, Baş Assambleyaya ev sahiblik edən ABŞ-ın rəhbərliyi həmişə tənbeh olunan tərəf olub. Ötənlərdə ABŞ liderləri də diqqətçəkən çıxışları ilə yadda qalıb. Məsələn, ABŞ prezidenti Ronald Reyqan 1987-ci il sentyabrın 21-də BMT Baş Assambleyasının 42-ci sessiyasında ölkələrin qarşılıqlı ziddiyyətini həll etməyə qadir faktoru səsləndirib: "yadplanetli təhlükəsi". ABŞ liderinin fikrincə, bu, SSRİ və ABŞ-ı barışdıra bilərdi.

İran prezidentləri Mahmud Əhmədinejad da Baş Assambleyanın tribunasından Qərbi yıxıb-sürüdüyünə görə diqqət çəkib. O, BMT-nin Baş Assambleyasının sessiyasında çıxış edərkən dəfələrlə Qərbi "nüvə şantajında" ittiham etmişdi. Demişdi ki, Təhlükəsizlik Şurasında "məhdud diktat hökumətlər" var və onlar BMT-nin öz öhdəliklərini yerinə yetirməsinə mane olur. Hətta Assambleyanın toplantılarının birində Kanada nümayəndə heyəti Mahmud Əhmədinejatın çıxışını boykot etmişdi. İran rəhbərliyi də dəfələrlə ABŞ liderlərinin çıxışlarını boykot edərək iclası tərk edib. Həmçinin Mahmud Əhmədinejadın "sionistlər İran üçün hərbi təhdidirlər" kimi bəyanatlarını ABŞ və İsrail nümayəndələri dinləməkdən imtina ediblər. Göründüyü kimi, BMT tarixində savaşlar heç də az olmayıb.

**Politoloq Arzu Nağıyev** budəfəki Baş Assambleyada savaş olacağını güman etmir: "Problemlər əsasən müzakirə edilən məsələlərdən və hər bir prezidentin şəxsi keyfiyyətlərindən irəli gəlir. Bu sessiya demək olar ki, ən ağır mövzulara toxunur və sədr də yeni seçilmiş şəxsdir. Təbii ki, tənqid və təhqirin də fərqi var. Artıq konkretlik dövrüdür. Həm də BMT-nin reforması gündəlikdədir. Buna görə də inanmıram ki, savaş olsun. Lakin bir-birinin mövqeyi ilə razılaşmayanlar mütləq olacaq".

Ekspertin dediyi kimi, budəfəki sessiya barış nümunəsi ilə də diqqəti cəlb edib. Belə ki, BMT Baş Assambleyasının 72-ci sessiyasında iştirak etmək məqsədilə ABŞ-a səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Baş Assambleyanın salonunda böyük diqqətlə qarşılanıb. Teleqraf.com xəbər verir ki, Ərdoğan salona girər-girməz bütün gözlər ona tərəf dönüb. Dünya liderləri ilə bir-bir salamlaşan Ərdoğan Baş Assambleyada çıxış edib. Daha sonra bir sıra ölkələrin liderləri ilə ikitərəfli görüşlər keçirib. Nahar yeməyi zamanı isə ilginc bir an yaşanıb. Belə ki, ABŞ Prezidenti Donald Tramp yerindən qalxaraq Ərdoğanın yanına gəlib və iki prezident bir müddət söhbət edib.

"Biz İordaniyaya, Türkiyəyə və Livana suriyalı qaçqınlara sığınacaq verdiklərinə görə minnətdarıq". Bunu isə ABŞ prezidenti Donald Tramp çıxışı zamanı söyləyib. O həmçinin, Avropadakı miqrasiya böhranına Suriya konfliktinin uzanmasının səbəb olduğunu bildirib. (Axar.az)

**Politoloq Qabil Hüseynli** isə "Yeni Müsavat"a bildirdi ki, Baş Assambleyada ilk dəfə olaraq Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan BMT tribunasından həyəcan təbili çaldı: "Bildirdi ki, Dağlıq Qarabağ problem beynəlxalq hüquqa uyğun surətdə, özü də təcili həll edilməsə, bölgədə çox irimiqyaslı, həm də beynəlxalq xarakterli qarşıdurma yarana bilər. Zənnimcə, Ərdoğan kimi nüfuzlu şəxsin söylədiyi bu fikirlər Baş Məclisin üzlərinə kifayət qədər təsir göstərəcək. Baş Assambleya BMT-nin ən nüfuzlu məclisidir və orada 200 BMT üzvü olan dövlətin prezidenti və ya baş naziri iştirak edir. Bu məsələnin orada qaldırılması çox prinsipial əhəmiyyətə malikdir".

**Q.Hüseynli qeyd etdi ki, Türkiyə və Azərbaycan prezidentlərinin BMT kürsüsündən Qarabağla bağlı ətraflı bilgilər verməsi, problemin həllinin bölgə üçün böyük təhlükə olduğunu söyləməsi Baş Assambleyaya ciddi təsir göstərəcək:** "Zənnimcə, BMT bu problem konseptual şəkildə həll etmək üçün cəhdlər göstərəcək. Qarabağla bağlı BMT Təhlükəsizlik Şurasında 4, Baş Assambleyada isə 1 qətnamə qəbul edilib. Sonuncu qətnamədə Dağlıq Qarabağın nəzarət edilməyən ərazi olduğu və bu ərazidən heroin qaçaqmalçılığı üçün istifadə edildiyi bəyan olunub. Əvvəlki 4 qətnamə isə sırf işğal olunmuş ərazilərin azad olunması ilə bağlıdır. Fikrimcə, BMT Baş Assambleyası qətnamə qəbul etməsə də, hər halda bəyanat, yaxud müraciət formasında Qarabağ probleminin həlli ilə bağlı yığcam bir sənəd qəbul edə bilər ki, bunu da Azərbaycan xarici siyasətinin uğuru kimi dəyərləndirmək olar".

Bu yerdə qeyd edək ki, Ermənistan prezidenti Serj Sərkisyan sessiyanın ilk günündəki çıxışında yenə də beynəlxalq hüquqa zidd mövqeyini sərgiləyib. Bununla da o, nüfuzlu beynəlxalq təşkilatın toplantısında məsuliyyət hissini unudaraq, özü barəsində dövlət başçısından çox, islaholunmaz şəxs təsəvvürü yaradıb. Yalanların sərhədini o qədər aşıb ki, Dağlıq Qarabağın heç vaxt Azərbaycan ərazisi olmadığını iddia edib, Qarabağ ermənilərinin "müstəqilliyinin" vazkeçilməz olduğunu deyib, Azərbaycanı ermənifobiyada (?-E.P.) ittiham eləyib. Çıxışının çox hissəsini Qarabağ münaqişəsinə ayıran prezident Azərbaycana ittihamlar yağdırıb. O, deyib ki, Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək uğrunda 30 il əvvəl başlayan yeni mübarizəsi Azərbaycanın güc tətbiq etməsi ilə müharibəyə gətirib. O, Dağlıq Qarabağın heç vaxt müstəqil Azərbaycanın tərkib hissəsi olmadığını vurğulayıb, Dağlıq Qarabağın demokratik inkişaf yolu tutduğunu iddia edib, Azərbaycanı bu fonda orta əsrlərin simvolu adlandırıb. (Novator.az) Sərkisyan Dağlıq Qarabağı Azərbaycana zorla qoşmaq səylərinin ədalətsizlik olduğunu vurğulayıb, nəticəsiz qalacağını deyib. Serj Sərkisyan deyib ki, Dağlıq Qarabağın indikindən aşağı statusu ola bilməz: "Azərbaycan Dağlıq Qarabağın öz gələcəyini azad təyin etmək hüququna hörmət etməlidir. Dağlıq Qarabag ermənilərinin təhlükəsizliyi beynəlxalq təminat altında olmalıdır".

**Arzu Nağıyev hesab edir ki, Sərkisyan başqa cür çıxış da edə bilməzdi:** "Məlumdur ki, bu, prezident kimi onun BMT kürsüsündən son çıxışıdır. Odur ki, yenə də qondarma quruma bağlı, hər bir millətin öz müqəddəratını həll etmə haqqı, qondarma soyqırım məsələsi onun əsas çıxış xətti oldu. Bu, bir daha göstərir ki, Sərkisyan və onun səhra komandirlərindən təşkil olunmuş hakimiyyəti Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı deyil və hətta əksinə olaraq daha da qızışdırıcı bir mövqe tutur".

**P.S.** *Azərbaycan prezidenti İlham Əliyevin Baş Assambleyadakı çıxışı barədə digər materialda bəhs olunur.*

**Elşad PAŞASOY**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT

N 194 (6808) 21 sentyabr 2017

**BMT Baş Məclisinin növbəti 72-ci sessiyası öz işinə başlayıb. Xəbər verildiyi kimi, sessiyasının işində Azərbaycan prezidenti İlham Əliyevlə yanaşı, qonşu ölkələrdən - Türkiyə və Ermənistanı prezidentləri, Gürcüstanın isə baş naziri iştirak edir.**





# BMT-də Qarabağ müzakirələri - şantaj yolu tutan İrəvan təklənir

## Türkiyə liderinin ali kürsüdən səsləndirdiyi çağırış və xəbərdarlığı işğalçı ölkənin başçısı qulaqardı etdi; Bakının davam edən möhtəşəm təlimləri BMT tribunasında da davakar ritorika sərgiləyən Ermənistan prezidentinə ən tutarlı cavabdır; İƏT də hərəkətə keçdi...

Ali toplantı ilə bağlı bizim əsas gözləntimiz əlbəttə ki, Dağlıq Qarabağ məsələsinin nə dərəcədə liderlərin və onların arasında keçiriləcək görüşlərin diqqət mərkəzində olması ilə bağlıdır. Təbii ki, Azərbaycan və Türkiyə dövlət başçıları Qarabağ həqiqətlərini bir daha dünyaya bəyan edəcək, yeganə ədalətli çıxış yolunu göstərəcəklər. Belə çıxış yolunun qayəsində isə sözsüz ki, beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi dayanmalıdır - hansı məqamı ki, dünən qardaş ölkənin başçısı Rəcəb Tayyib Ərdoğan öz çıxışında bir daha xüsusi vurğulayıb.

*****

"Cənubi Qafqazda Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünün bərpa edilməsi bölgədə sülhün bərqərar olması üçün əsas şərtdir". APA-nın məlumatına görə, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bunu çərşənbə axşamı BMT Baş Assambleyasının Nyu-Yorkda keçirilən 72-ci sessiyasında çıxışı zamanı qeyd edib.

Dünyadakı münaqişələrdə sülhün təmin edilməsinin vacibliyinə toxunan Türkiyə prezidenti Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya münaqişələrinin həlli üçün beynəlxalq ictimaiyyətinin çox ciddi səy göstərməli olduğunu vurğulayıb: "Bu gün məhəl qoymadığımız hər bir münaqişənin sabah regional, hətta qlobal münaqişəyə çevrilə bilmə ehtimalını əsla unutmamalıyıq".

Belə bir təhlükə - regional konfliktlərin, dondurulmuş münaqişələrin daha böyük, hətta qlobal konfliktə çevrilmə ehtimalı isə gerçəkdən də qalır və günü-gündən artmaqdadır. Ərdoğanın çağırışı da ən əvvəl öz destruktiv mövqeyi ilə proseslərin belə təhlükəli məcrada inkişafına yardımçı olan ölkələrə, ilk növbədə işğalçı Ermənistanadır.

***

Ermənistan rəhbərliyi isə əfsuslar olsun ki, bu kimi çağırışlara konstruktiv münasibət göstərmək, nəhayət, regionda qonşu ölkələrlə dinc-yanaşı yaşamaq və əsassız ərazi iddialarından əl çəkmək xətti götürmək əvəzinə, Rusiyaya güvənərək bu qonşulara qarşı həyasız ritorikanı, hədə-şantaj kursunu davam etdirir. Bu da növbəti təzə fakt.

"Ermənistan Türkiyə ilə diplomatik münasibətlərin qurulmasına dair 2009-cu ildə imzalanmış protokolları ləğv etməyə hazırdır". Belə bir təxribatçı bəyanatla Ermənistan prezidenti Serj Sərkisyan BMT Baş Assambleyasının Nyu-Yorkda keçirilən sessiyasında çıxış edib. Sərkisyan sənədlərin ratifikasiyası istiqamətində irəliləyiş olmayacağı təqdirdə Türkiyə hakimiyyətini belə bir addım atacaqları ilə hədələyib. O bildirib ki, bu, artıq 2018-ci ilin yazında baş verə bilər (2018-ci ilin aprelində Ermənistan prezidentli üsul-idarədən parlamentli idarəçiliyə keçəcək, ölkədə əsas söz sahibi baş nazir olacaq).

Yada salaq ki, söhbət 2009-cu ilin oktyabrında ABŞ və Rusiyanın o vaxtkı xarici siyasət idarələri başçılarının (Hillari Klinton və Sergey Lavrov) iştirakı ilə imzalanmış Sürix protokollarından gedir. Bu sənədlər gerçəkdən də İrəvanla Ankara arasında diplomatik münasibətlərin qurulmasını özündə ehtiva edir. Ancaq Türkiyə tərəfi son anda haqlı olaraq bəyan elədi ki, Dağlıq Qarabağ məsələsinin həllində ciddi irəliləyiş olmayınca, Azərbaycan ərazilərinin heç olmasa, bir hissəsi qeyd-şərtsiz azad edilməyincə sənədlər ratifikasiya edilmıyəcək. Bununla da məsələ donduruldu.

O ki qaldı Ermənistanın həmin protokolları ləğv edəcəyi ilə Türkiyəni hədələməsinə, bu da növbəti absurddur. Çünki əlaqələrin olmamasından, sərhədlərin bağlı qalmasından qardaş ölkə deyil, ilk növbədə işğalçı Ermənistanın özü və xalqı əziyyət çəkir. Məntiqlə rəsmi İrəvan erməni xalqının maraqlarını düşünürsə, eyni zamanda Rusiyadan asılılığını azaltmaq istəyirsə, - o Rusiyaya qarşı ki, son vaxtlar az qala isterik ovqat hökm sürür Ermənistanda, - o zaman hamıdan çox Türkiyə ilə diplomatik və iqtisadi əlaqələrin bərpasına çalışmalıdır, nəinki absurd hədələrlə çıxış etməlidir.

***

Qeyd edək ki, BMT toplantısı çərçivəsində Azərbaycan və Ermənistan prezidentlərinin ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi ilə bir araya gəlmə ehtimalı zəif olsa da, iki ölkə xarici işlər nazirləri - Elmar Məmmədyarov və Edvard Nalbəndtanın görüşü istisna olunmur. XİN başçılarının görüşünə isə prezidentlərin növbəti təmasını hazırlamaq fürsəti kimi baxılır.

Ancaq belə görüşlər nəyi dəyişəcək, əgər yuxarıda da vurğulandığı kimi, işğalçı tərəf öz ənənəvi mövqeyində qalacaq, sülh dedikdə "Azərbaycan torpaqlarını Azərbaycan torpaqlarına dəyişmək" xəttinə davam edəcəksə?

Belə vəziyyətdə Azərbaycanın öz dost-müttəfiqləri və maliyyə imkanları hesabına hərbi qüdrətini durmadan artırmaq, silahlanma yarışı sayəsində onsuz da kasıb olan işğalçı Ermənistanı daha da taqətdən salıb çökdürməkdən savayı yolu qalmır. Hazırda davam edən Türkiyə-Azərbaycan birgə hərbi təlimləri, habelə Azərbaycanın özünün ayrıca, 15 minlik canlı qüvvə ilə keçirdiyi təlimlər həm də bu hədəfə hesablanıb və BMT tribunasında ağzına gələni danışan Sərkisyana aydın və sərt bir mesajdır, onun ağla gəlməsi üçün növbəti miksturadır.

Təsadüfi deyil ki, erməni tərəfi artıq bu təlimlərdən və orada sınaqdan çıxarılan yeni silahlardan, o sırada Çexiyadan alınan döyüş texnikasından narahat olmağa başlayıb.

***

"Ermənistan hakimiyyəti və erməni lobbisi Çexiyanın Azərbaycana hərbi texnika satmasından xeyli narahat olub". Bunu politoloq Elxan Şahinoğlu özünün Facebook səhifəsində yazıb. Onun sözlərinə görə, erməni saytlarında gün ərzində bu məsələ ilə bağlı materiallar dərc edilir.

"Azərbaycan ordusu bir neçə gün əvvəl başlanan hərbi təlimlərdə Çexiyadan aldığı hərbi texnikadan da istifadə edir. Müdafiə Nazirliyi həmin hərbi texnikanı internetdə paylaşmaqla erməni separatçılarını daha çox qıcıqlandırıb. İrəvanın narahatlığının səbəbi bəllidir. Avropa İttifaqı dövlətləri Dağlıq Qarabağ münaqişəsinə görə illərdir nə Ermənistana, nə də Azərbaycana silah satır, yəni faktiki hər iki ölkəyə qarşı qeyri-rəsmi embarqo tətbiq edilir. Azərbaycan Çexiyadan hərbi texnika almaqla bu embarqonu yardı və ermənilər qorxurlar ki, sabah İtaliya, Fransa və digər Avropa istehsalı silahlar da Azərbaycan ordusunda peyda ola bilər", - deyə politoloq qeyd edib.

Onun qənaətincə, ermənilər narahatlıqlarında haqlıdırlar: "Çünki Avropa İttifaqı ölkələri Azərbaycanın Rusiyadan və İsraildən silah və hərbi texnikanın alışına on milyardlarla dollar xərclədiyini görür. Bu ticarətdən Rusiya və İsrail yüksək məbləğdə gəlir götürür. Avropa ölkələrinin də bir çoxunda silah və hərbi texnika istehsalı var və onlar da Rusiya və İsrail kimi silah satışından qazanmaq istəyirlər".

Olsun. Əsas odur ki, Azərbaycan Ermənistan üzərində əzici hərbi üstünlüyünü durmadan artırsın. Əlverişli günlərin birində isə bu üstünlük mütləq maddiləşəcək - Qarabağın və digər işğal altındakı torpaqlarımızın Azərbaycanın tərkibinə güc yolu ilə qaytarılması şəklində.

***

Bu arada BMT Baş Assambleyasının sessiyası çərçivəsində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Ermənistanın Azərbaycana qarşı təcavüzü üzrə Təmas qrupunun iclası keçirilib. Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, iclasda Azərbaycan Respublikası adından çıxış xarici işlər naziri Elmar Məmmədyarov tərəfindən təqdim olunub.

Həmçinin İƏT-in Ermənistanın Azərbaycana qarşı təcavüzü üzrə Təmas qrupuna daxil olan digər üzv dövlətlərin nümayəndələri və İƏT-in Baş katibliyinin rəsmiləri çıxış ediblər. Təmas qrupunun ikinci iclasının hesabatı nəzərə alınması və tədbirlər görülməsi üçün İƏT xarici işlər nazirlərinin koordinasiya iclasının gündəliyinə daxil ediləcək və üzv dövlətlərə təqdim olunacaq.

BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin əsas tələblərinin Ermənistan tərəfindən hələ də yerinə yetirilmədiyi qeyd olunaraq, 20 ildən artıq müddət ərzində ATƏT-in Minsk qrupu tərəfindən aparılan vasitəçilik səylərinin hələ nəticə vermədiyi vurğulanıb. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı İƏT-in müvafiq qətnamə və qərarlarının tələblərini rəhbər tutaraq, bütün üzv dövlətlərə münaqişəni gücləndirəcək və Ermənistanı Azərbaycan torpaqlarının işğalının davamına şərait yaradacaq hər hansı bir silah və hərbi avadanlıqla təchiz etməkdən çəkinməyə və bu cür avadanlıqların daşınması üçün öz ərazilərindən tranzit məqsədilə istifadə edilməsinə imkan verməməyə çağırış edilib.

**Həmçinin, İƏT qətnamələrinin tələblərinə uyğun olaraq üzv dövlətlərin Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulmasına dəstək vermək üçün lazımi siyasi-iqtisadi tədbirlər həyata keçirilməli, işğal olunmuş ərazilərdə qanunsuz iqtisadi və digər fəaliyyətlərdən kənar durmalı olduqları, Ermənistanla bütün növ əməkdaşlığı məhdudlaşdırmalı olduqları vurğulanıb. Bildirilib ki, ölkəmiz Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı gücdən qanunsuz istifadə və Azərbaycan ərazilərinin işğalının qəti pislənilməsinə dair İƏT-in ədalətli və prinsipial mövqeyi əsasında İslam ümmətinin davamlı həmrəyliyinə güvənir.**

YENİ MÜSAVAT
N 194 (6808) 21 sentyabr 2017

**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Milli Şuranın sentyabrın 23-də saat 15.00-dan 17.00-dək mitinq keçirməklə bağlı müraciətinə cavab verib. APA-nın xəbərinə görə, meriya mitinqin keçmiş "Məhsul" stadionunda keçirilməsinə razılaşıb. Mitinqə müxtəlif siyasi qüvvələrin münasibəti isə fərqlidir. Yeni Azərbaycan Partiyasının İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə bildirib ki, Milli Şuranın mitinqi nə cəmiyyətin sosial sifarişidir, nə də mitinq təşkilatçılarının cəmiyyətdə nüfuzunun, moderatorluğunun göstəricisidir. Ona görə də belə qənaətə gəlmək olar ki, sadəcə kənardan bununla bağlı tapşırıq alıblar.**

# Milli Şuranın mitinqinə fərqli yanaşmalar

**YAP-çı deputat qeyd edib ki, Milli Şura Azərbaycan müxalifətinin ən zəif qanadlarından biridir:** "Bu qurumun nə regionlar üzrə təşkilatları var, nə də bazası. Ara-sıra 3-4 nəfərin mətbuata çıxıb, növbətçi bəyanat verməklərindən başqa heç bir işlə məşğul olmurlar. Bu təşkilatın mitinq təşkil etməklə bağlı qərara gəlməsi isə müəyyən düşüncələrə gətirib çıxarır. Bir qayda olaraq həmin strukturda fəaliyyət göstərən insanlar ya Azərbaycanda keçirilən mühüm tədbirlər ərəfəsində, ya da xaricdən xüsusi tapşırıq aldıqda belə toplantı keçirməyə üstünlük verirlər. Son dövrlər isə mitinqə gələn insanların məqsədli şəkildə polislə konflikt yaratdıqları, yaxud da orada bir neçə şəkil çəkdirib, sonradan Avropa ölkələrinə üz tutduğu görünür. Mitinqə əvvəlkilər kimi çox az sayda insanın gələcəyi və səsləndirilən fikirlərin isə populist və ya milli maraqlarımıza zidd olacağını əminliklə demək olar. Əgər təşkilatçılar və metodlar eynidirsə, nəticə də əvvəlki kimi olacaq".

**Deputat Qüdrət Həsənquliyev** isə bildirib ki, demokratik cəmiyyətin ən böyük atributlarından biri həmin ölkədə müxtəlif aksiyaların, o cümlədən kütləvi etiraz aksiyalarının keçirilməsidir: "Ona görə də Milli Şuranın təyin etdiyi mitinq Azərbaycanın da, iqtidarın da maraqlarına uyğundur".

**Q.Həsənquliyev qeyd edib ki, Azərbaycan hökuməti çalışmalıdır hansısa qüvvələr mitinqdə təxribata yol verməsinlər:** "Aksiyanın təhlükəsizliyi tam təmin olunmalıdır. Şübhə etmirəm ki, bu mitinqdə ağlına və ağzına gələnləri danışan adamlar da olacaq. İqtidarın yerinə olsam onların çıxışlarını tərcümə edib bütün dünyada yayaram. Qoy görsünlər ki, "diktatura"nın olduğu ölkədə belə çıxışlar etmək mümkündür, ya yox... Hesab edirəm ki, bu, iqtidara son dərəcə lazımlı olan bir mitinqdir və bu mitinqdən də narahat olmağa dəyməz. Çünki ölkədə sabitliyin pozulmasına heç bir zəmin və təhlükə görmürəm".



**Qüdrət Həsənquliyev:** "İqtidarın yerinə olsam onların çıxışlarını tərcümə edib bütün dünyada yayaram, qoy görsünlər ki, "diktatura"nın olduğu ölkədə belə çıxışlar etmək mümkündür, ya yox..."



**Aydın Mirzəzadə:** "Kənardan bununla bağlı tapşırıq alıblar"

Müxalifət partiyalarından isə Milli Şuranın mitinqində iştirak edib-etməyəcəkləri barədə "Yeni Müsavat"a açıqlamalar verilib. **VİP sədri Əli Əliyev** bildirdi ki, məsələ partiyanın rəhbər strukturlarında bu gün müzakirə ediləcək: "Hələlik müxtəlif fikirlər var. Fikrimcə, bu mitinq narazıların toplantısı olmalıdır. Eqoist partiya mövqelərinə fikir vermək lazım deyil. Situasiya fərqlidir. O baxımdan, daxili mexanizmi hərəkətə gətirmək, ümummüxalifət mitinqlərinə qədər prosesi inkişaf etdirmək lazımdır. Əlbəttə ki, belə miqyas daha da təsirli olar. Ancaq hələlik isə ortada olanla hesablaşmaq, dəstək vermək gərəkdir. Bu mənim şəxsi mövqeyimdir. Qərar partiyanın qurumlarında qəbul ediləcək".

**Müsavat Partiyasının təşkilat şöbəsinin müdiri, Divan üzvü Razim Əmiraslanlı** isə bildirdi ki, mitinqlə bağlı Müsavata Milli Şuradan rəsmi müraciət olunmayıb. Müraciət olsa partiyada müzakirə ediləcək.

Yeni **AXCP-nin sədri Razi Nurullayev** bildirdi ki, mitinqlərin keçirilməsinin tərəfdarıdır. Amma bu hər kəsin istədiyi və iştirak etdiyi mitinq olmalıdır. Mitinqlər müxalifətin birliyinə xələl gətirirsə, bu ziyandır: "Mitinq adı altında başqa məqsədlərə qulluq etmək ziyandır. Əgər təyin edilən mitinq zəif olarsa, bu nəinki həbsdə olanlara kömək etməyəcək, həm də müxalifəti gözdən salacaq. Xalqı günahlandırmaq olmaz ki, mitinqə gəlmir, demək ki, onu təşkil edənlərə inanmır. Biz isə hələ də xalqla tam işləyi qurtarmamışıq ki, rayonlara səfərləri başa çatdırmamışıq ki, mitinqlərin necə keçirilməsi formatını müəyyən edək. Biz də mitinqlərin lehinəyik, amma bir şərtlə ki, o, ümumi işimizə xidmət etsin. Məhbusların azad edilməsi üçün mitinq keçirmək şüarı gülüncdür. Çünki bələkdəki uşaq da bilir ki, mitinq keçirməklə onlar azadlığa buraxılmayacaq. Demək, mitinqin təşkil olunmasında və elanında böyük qüsurlar var. Əgər çağırılan mitinq müxalifətarası vəziyyəti daha da gərginləşdirəcəksə, bu xalqa xidmət yox, ona qarşı yönəlik addımdır".

❑ Etibar SEYİDAĞA

# Əli Ömərovun Milli Şuranın mitinqini dəstəkləməsinin pərdəarxası...



## Sabiq YAP-çı baş prokuror Rüstəm İbrahimbəyova da təriflər yağdırdı; onu qəzəbləndirən nədir?

**Keçmiş baş prokuror Əli Ömərov Milli Şuranın 23 sentyabra təyin etdiyi mitinqi dəstəkləyən açıqlama ilə çıxış edib. Facebook səhifəsində Əli Ömərov belə bir açıqlama yazıb: "Milli Demokratik ölkələrdə söz və insan azadlığı normal bir haldır. Vətəndaşlar öz fikirlərini açıq-aydın bildirmək hüququna malikdirlər. Bu baxımdan da mən hər bir qanuni mitinqi, o cümlədən sentyabrın 23-ü keçirilməsi nəzərdə tutulan mitinqi dəstəkləyirəm.**

Bundan başqa, həmin gün mitinqin keçirilməsinə tam şərait yaradılmalıdır, mitinqə gələnlərin qarşısı alınmamalıdır və bununla da bütün dünya görməlidir ki, Azərbaycan sözdə deyil əməldə demokratik bir ölkədir".

**Məsələni dəqiqləşdirmək üçün Əli Ömərovla əlaqə saxladıq.** Sabiq baş prokuror "Yeni Müsavat"a bildirdi ki, açıqlamanı şəxsən özü yazıb və fikirlərində aydın olmayan nə isə yoxdur: "Milli Şuranın mitinqini dəstəkləməyimin səbəbini açıq və müfəssəl şəkildə facebook səhifəmdə göstərmişəm. Bir daha qeyd edirəm ki, qanuni şəkildə və kimliyindən asılı olmayaraq təşkil edilən mitinqləri dəstəkləyirəm və dəstəkləyəcəyəm. Belə ki, bütün demokratik ölkələrdə vətəndaşlar sərbəst toplaşmaq hüququna malikdir, qanuni mitinqlər etməyə, irad və təkliflərini bildirməyə hüquqları vardır. Belə şəxslərin qarşısı kəsilməməlidir, onlar sərbəst olaraq toplaşa bilməlidirlər. Bundan başqa, facebook səhifəmdə qeyd etmişəm ki, hakimiyyət qanuni mitinqlərin keçirilməsinə mane olmamalıdır və dövlətin demokratik prinsiplər əsasında fəaliyyət göstərməsini sözdə yox əməldə olduğunu bütün dünya görməlidir".

Qeyd edək ki, Əli Ömərov 2014-cü ildən bir neçə gün öncəyə qədər YAP-ın üzvü idi. Bir neçə gün öncə o, YAP-dan istefa verib. İstefa ərizəsini sosial şəbəkədə yayıb.

*Əli Ömərovun Milli Şuranın mitinqini dəstəkləməyində hakim partiyadan istefası, incik düşməsi rol oynayıbmı? YAP-dan istefanın əsas səbəbləri nədir?*

Əli Ömərov bu suallardan birincisini cavablandırmadı, ikincisinə isə belə cavab verdi: "YAP-dan istefamın səbəbləri barədə də facebook səhifəsində paylaşdığı ərizədə hərtərəfli, geniş və müfəssəl şəkildə yazılıb".

*"Sizə istefa verməyin təklifini verən olubmu"* sualına isə sabiq baş prokuror belə cavab verdi: "İstefa vermə barədə heç kim tərəfindən mənə təklif gəlməyib. Bundan başqa, siz mənim istefam ilə bağlı "Yeni Müsavat"ın 20 sentyabr tarixli sayında dərc elədiyiniz məqaləmizdə qeyd etmisiniz ki, guya mən 2013-cü ildə müxalif mövqedən çıxış etmişəm və Rüstəm İbrahimbəyovun yaratdığı Ziyalılar Forumu ilə yaxınlaşmışam, onlar məğlub olduqdan sonra uzaqlaşmışam. Bildirirəm ki, bu tam yalan və cəfəngiyyatdır. Heydər Əliyev tərəfindən Azərbaycan xalqının fəxri adlandırılan Rüstəm İbrahimbəyova bu gün də mənim böyük hörmətim var və mən də onu Azərbaycan xalqının fəxri kimi tanıyıram. Həmin Ziyalılar Forumunda fəaliyyət göstərən insanların əksəriyyəti bu gün də mənim hörmət etdiyim insanlardır".

*"Bundan sonra müxalifət və Milli Şuradan "bizə qoşul" təklifi gəlsə qəbul edəcəksinizmi"* sualını isə sabiq YAP-çı belə cavablandırdı: "Mən real siyasət tərəfdarıyam. Yeni Azərbaycan xalqının mənafeyinə, xoşbəxtliyinə xidmət edən, müstəqilliyimizə xələl gətirməyən istər iqtidar olsun istərsə də müxalifət olsun belə təkliflərə cavab verməyə hazıram".

Uzun illər susqunluq nümayiş etdirən və bir neçə il öncə mediaya açıqlamalar verməyə başlayan Əli Ömərovun birdən-birə YAP-dan istefa verməsi heç bir halda təsadüfi hesab oluna, yaxud sabiq baş prokurorun səmimiyyəti kimi də görünə bilməz. Ömərov praqmatik adamdır və gəlir-çıxarlarını dəqiqliyi ilə bilən adamdır. Bəs indi onu müxalifətə cəlb edən səbəb nədir? Bu barədə kiçik bir dəqiqləşdirmə apardıq və bəlli oldu ki, Ə.Ömərovun bu çılğınlığı sırf fərdi biznes maraqlarından doğan hərəkətdir. Onun və ailə üzvlərinin biznes şəbəkəsini genişləndirmək istəkləri baş tutmayıb və səbəbdən də Ömərov hökumətdən bu yolla acıq çıxır.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 194 (6807) 21 sentyabr 2017

# Dünyanın yeni dəbi - İnstaqram milyonçuları

## Onlari görməmiş adlandıraq, ya dəbin davamçıları?

**Sosial media həyatımıza yeni fenomenlər daxil edib, buna şübhə yoxdur. Blogger anlayışına yeni məna qazandırdı, əlinə cib telefonu alan hər kəs yazar-blogger ədası ilə ortada gəzməyə başladı. Bir də sosial medianın ən çox haqqında danışılan, sevilən və nifrət edilənləri var. Bunlar İnstaqramın varlı uşaqlarıdır. Onlar nələr edirlər? Milyon dollarlıq həyatlarını İnstaqram hesablarından paylaşıb, hər dəfəsində təqibçilərini çaşdırmağa nail olurlar.**

Onlar lüks maşınlarına vəhşi heyvanlarını mindirir, maşınlarını qiymətli daşlarla bəzəyir, 14 yaşında biotoksa başlayır, taksi əvəzinə helikopterdən istifadə edirlər.

Məsələn, Danny Agha lüks idman maşınında içi dollar dolu olan Louis Vuitton çantasının şəklini paylaşıb, "Sadəcə 23 yaşındayam" yazır. Ya da ev heyvanı olaraq pələng, şir saxlayıb, onları maşınlarına mindirirlər. Təbii halları kimi göstərdikləri bu həyat tərzləri əlbəttə bir ssenari əsasında ortaya çıxır. İş elə bir hala gətirildi ki, fenomen olaraq qiymətləndirilən bu uşaqların realiti şouları belə çəkildi. Əslində şounu izləyəncə bəzilərinin həyatlarının da zənn edildiyi qədər havalı, forslu olmadığını anlamaq çətin deyil. Belə ki, aralarında mətbuat katibi ilə gəzib, İnstaqramda paylaşdığı hər şəkil üçün fikir alan belə var.



### Ferrarinin "kapot"u üstündə pələng balası...

Əlbəttə, bu paylaşımlar milyonerlərin bəzi təqibçilərini hirsləndirərkən, bəzilərinin də onlardan nifrət etməsinə səbəb olur. Bu gənclərdən bəzilərinin ailələri təhlükəsizlik baxımdan həmin hesabların silinməsini istəyir. Çünki bu hesablar oğrular üçün də ilginc bir "ov" yeridir. Oğrular onların hesablarını izləyir və özlərinə yaxşı şikar tapdıqlarını düşünürlər. Necə deyərlər, "yediyin, içdiyin sənin olsun, bizə gördüklərini danış" sözü də yeni dünya düzənində tarixə çevrilir. Onun əvəzinə isə "yediyin kürüləri, içdiyin şampanları paylaş" anlayışı önə çıxır. Jetlər, içi pul dolu çantalar, Swarosvki ilə örtülmüş maşınlar, bol-bol şampan... Şübhəsiz ki, dollar milyoneri ailələrin uşaqları olduğunu iddia edən bu gənclərin şəkillərindəki ortaq özəlliklər bunlardır. Onlar əsasən jetdə, gəmidə keçirdikləri partinin şəkillərini paylaşırlar. Ekzotik heyvanı olanlar isə bu uşaqlar arasında bir addım daha qabağa çıxır. Çünki təqibçiləri üçün Ferrarinin "kapot"u üstündə pələng görmək olduqca həyəcanlıdır. Amma böyük əksəriyyət bu fotoların altında həqarət dolu cümlələr yazır.

Nyu Yorkda daşınmaz əmlak divi olan varlı bir ailənin oğlu, 22 yaşındakı Adru Varren üçün "McDonalds" da hamburger şəkli paylaşmaq nə qədər normaldırsa, kürü fotosu paylaşmaq da bir o qədər normaldır. O, qısqananlara isə aşağıdakı tövsiyələrini deyir: "Həyat sizə turş gəlirsə, şəkər qatıb, limonad hazırlamaq öz əlinizdədir.."

Rich Kids of Instagram (İnstaqramın varlı uşaqları) bütün dünyada o qədər çox marağa səbəb olur ki. Öncə E! Telekanalı "Rich Kids of Beverly Hills" adlı realiti şou hazırladı. 2014-cü ilin yanvar ayında yayımlanan bu şounun hər bölümü orta hesabla 600 min nəfərlə 1 milyon nəfər arasında izləyici tərəfindən baxıldı. İzləyicilərin yaş həddi isə 18-49 idi. Son olaraq İngiltərənin realiti şoular hazırlayan kanalı "Channel 4"də " Rich Kids of instagram" verilişinə başladı. Channel 4-dəki realiti şoudakı 16 gəncin dəbdəbəli həyatları qarşımıza çıxır. Onların arasında Nyu Yorkda yaşayan və daşınmaz əmlak milyarder olduğu deyilən bir türk, Emir Bahadır da var. Bahadır bölümlərdən birində "Bu var-dövlətin içində dünyaya gözümü açdım. Həyatım boyunca ən yaxşı maşınları, geyimləri və yaşam stilini sınaqdan keçirdim. Lüks həyat bilicisiyəm. Səyahət etməyi, müasir sənət əsəri yığmağı, alış-veriş etməyi sevirəm. Modanın içində dünyaya gəldim deyə biləröm. Geyim tərzimin rəqibi yoxdur".

Bir digər mübahisə isə bu uşaqların bir qisminin həqiqətən də sərvət sahibi olmaması, amma özlərini o cür aparmaları ilə bağlıdır. Ümumiyyətlə, dəbdəbəli həyatlarını paylaşan gənclərin hamısı fərqli bir açıqlama verir. Kimisi "Pulumuz var, gəzib dolanırıq, kimə nə!" deyir, bir başqası isə "Məqsədimiz nümunə olmaqdır" deyib, durumu özətləməyə çalışır. Məsələn, 26 yaşındakı israilli Tomer Sror onlayn ticarət işində bir sərvət qazanıb. Hər səhər 06.00-da oyanıb, işə gedir: "Başqalarına nümunə olmaq üçün İnstaqram hesabıma bu şəkilləri qoyuram. Mən nail oldumsa, siz də nail ola bilərsiz dəmək üçün..."

Amma bu cür görməmişlik edən milyoner uşaqları valideynlərinin narazılığı ilə qarşılaşırlar. Belə ki, valideynlər daha çox "bizim vaxtımızda belə şeylər yox idi. İnsanlar yediyini, içdiyini göstərməkdən çəkinirdi. Bundan başqa, etibarlı da deyil. Harada olduğunu paylaşırlar. Bu isə onların başına nəsə bir iş gələcəyi narahatlığını keçirməyimizə səbəb olur".

Ən populyar kim?

300 mindən artıq təqibçisi olan Rick Kids of İnstagram (RKOI) hesabı dünyanın fərqli yerlərindəki varlı uşaqlarının qeyri-adi həyatlarını paylaşır. Bir çoxu öz şəkillərini bura göndərir və yayımlanmasını təmin edir. Bir də təqibçi sayı və paylaşımları ilə qabağa çıxan insanlar var.

### Bir ölkənin əhalisi qədər təqibçisi olan milyoner uşaqları

Dan Bilzerlan: 18.8 milyon təqibçi

34 yaşındakı Dan Bilzerian yaşına görə digər milyoner uşaqlarından daha böyükdür. Amma paylaşımları ilə bir fenomendir. İnstağramı dünyada ən təsirli istifadə edənlərdən biri olan Bilzerianın pişiyi Smushballin isə 800 minə yaxın təqibçisi var. Sərvətinin tam məbləği 150 milyon dollardır. O, daha çox jetində qadınlarla paylaşdığı şəkillərlə tanınır.

### Doroti Vang: 953 min təqibçi

27 yaşındakı Doroti Vanqın atası Roger Vang Çinin ən böyük alış-veriş mərkəzi zəncirinin sahibi olan Golden Eagle Qrupunun CEO'sudur. "Forbes" jurnalına görə atasının sərvəti tam 4 milyard dollardır. Fabulexe adlı öz cəvahirat markasını bazara təqdim edən Doroti dünyanın fərqli yerlərindəki özəl partilərə qatılan bir insandır.

### Timoti Dreyk: 65 bin təqibçi

Timoti Dreyukin ailəsi brilyant işindədir. Dreyk isə ömründə bir gün belə çalışmayıb. Ailəsinin pulunu ən yaxşı otellərdə qalaraq və ən bahalı markalardan alış-veriş edərək xərclədiyini deyir. Channel 4-dəki realiti verilişində Dreyk deyib ki, 14 yaşından bəri dodaqlarına silikon vurdurur.

### Evan Luthra : 170 min təqibçi

Bu siyahıdakı bir çox insanın əksinə olaraq, Evan öz sərvətini özü qazanıb. 12 yaşı olanda tapdığı bir ağıllı telefon tətbiqetməsi onu milyonerlər siyahısına aparıb. 170 min nəfərdən artıq təqibçisi olan Evan artıq taksi yerinə helikopterdən istifadə edir. 20 yaşındakı gənc biznes adamı yaxtada partilər keçirməyi, dünyanın fərqli şəhərlərini gəzməyi sevdiyini deyir.

### Humald Albuqualş: 865 min təqibçisi

"Humaid'in İnstaqram hesabı bəlkə də ən qeyri-adi olanıdır. Bir neçə il öncə fenomenə çevrilən hesabda gənc adamla ekzotik heyvan dostlarının şəkilləri yer alır. Şirlər, meymunlar onun ən yaxın dostlarıdır. Zaman-zaman Ferrari markalı maşınının "kapot"una bu heyvanları çıxarır, ya da onlarla birgə yerdə yuvarlanır. Humaidin özəl zooparkında şimpanze, körpə oranqutan, şir, meymun kimi heyvanlar var.

### Eli Mizrahi: 56 min təqibçi

Eli Mizrahi də daim məşhur insanlarla partilərdə iştirak edən gənc milyonerdir. Hətta Selena Gomezin ad günü üçün öz yaxtasını məşhur simaya vermişdi. Özü də eyni zamanda Castin Biberin ən yaxın dostlarından biridir.

### Culia Adesheva:96 min təqibçi

Rus gözəli Culia özü haqqında danışanda "keçmiş model, səyahət həvəskarı və ekzotik maşınlar kolleksioneri" deyir. Əlbəttə, hər kəsin bir hobbiyə ehtiyacı var. Amma onun hobbiləri çox məsrəflidir. Kolleksiyasında ancaq "Ferrari", "Lamborghini", "Rolls Royce" və bir neçə "Bentley" markalı maşını var.

Təbii ki, azərbaycanlı milyonerlərin uşaqları arasında da öz dəbdəbəli həyat tərzini paylaşanlar az deyil. Necə deyərlər, onlar bir dünya modasını təqib edirlər. Amma dünya miqyasında psixoloqların müşahidə etdiyi əsas məqam bu gənclərin özünütəsdiq probleminin olmasıdır. Yəni, onlar üçün bu həyatda diqqət çəkmənin, fərqlənmənin əsas əlamətlərindən biri bu cür dəbdəbəli həyatı paylaşmaqdır. Ata-anaları biznesdə, iş dünyasında hansısa uğura imza ataraq bir sərvət toplayıblar. Onlar isə çox nadir hallarda öz uğur hekayələri ilə valideynlərini kölgədə qoya bilərlər. Buna görə də çarəni bu dəbdəbəli həyatı reklam etməkdə tapırlar. Üstəlik, bunun dünya miqyasında bir dəb olduğunu nəzərə alanda... varlılar da dəblə ayaqlaşmağı sevirlər.

❑ **Sevinc TELMANQIZI**



# İlahiyyatçılara ağır cəza tələbinin səbəbləri

## Nardaran hadisələri ilə bağlı daha bir qrupun məhkəməsi yekunlaşır

**Sentyabrın 18-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Nardaran işi-3" üzrə növbəti prosesi zamanı prokuror təqsirləndirilən şəxslərə iş istəyib. Hakim Zeynal Ağayevin sədrlik etdiyi məhkəmə iclasında təqsirləndirilən şəxslər son söz deməkdən imtina ediblər.**

Prosesin gedişində dövlət ittihamçısı ilahiyyatçı Zülfüqar Mikayılzadənin 18, Ruzi İsmayılov və Cabir Əliyevin 16, Elman Ağayev, Faiq Allahverdiyev, Mehman Quliyev, Ramil Seyfullayev və Mübariz İbrahimovun 15, Əli Hüseynov, Mehman Məmmədov, Eldar Bünyadov və Elxan Həsənovun hər birinin isə 14 il azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, sözügedən iş üzrə ümumilikdə 70-dən çox adam həbs olunub. Həbslər Nardaranda və Sabunçu Rayon Polis İdarəsinin qarşısında baş verən hadisələrə görə baş verib. 3 hissəyə bölünən işin gedişində saxlanılanlar müxtəlif müddətlərdə, ən ağır 20 il həbs olmaqla cəza alıblar. 17 nəfərdən ibarət birinci qrupda Nardaran olaylarına görə saxlanılar, o cümlədən ilahiyyatçı Taleh Bağırov olub.

Sonuncu qrupda iki tanınmış ilahiyyatçı var. Zülfüqar Mikayılzadə və Elman Ağayev ali təhsilli ruhanilərdir, Bakıda və əsasən cənub bölgəsində böyük nüfuza malikdirlər. Maraqlıdır ki, ilahiyyatçılar Nardaran olayları zamanı saxlanılsa da, onların həmin vaxt Bakıda olması və ümumiyyətlə, T.Bağırovla birlikə olması haqda hər hansı bir məlumat yoxdur.

Belə iddialar da var ki, hər iki ilahiyyatçı Lənkəranda keçirilən izdihamlı Aşura yürüşünün təşkilinə görə həbs olunub. Adları qeyd olunan ilahiyyatçılar Lənkəranda son illərdə hər il Aşura günü Lənkəranın mərkəzində bəzi iddialara görə 20 min insanın iştirakı ilə keçirilən yürüşlərə qatılıb və öz sırada olublar. Güc strukturları yürüşləri yasaqlamağa çalışsa da, yerli camaat buna nail olub. Oxşar hadisələr Gəncədə də olub. Həmin vaxt Gəncədə də Aşura yürüşündə təşkilatçı kimi iştirak edən ruhanilər həbs olunub.

Bir sıra müşahidəçilərə görə, dini tədbirlərdə ildən ilə izdihamın sayının artması hakimiyyət orqanlarını narahat edib. Bu səbəbdən də Nardaran hadisələrindən sonra Cənub bölgəsində nisbətən gənc ilahiyyatçılar arasında xüsusi çəkisi olan və əhali arasında nüfuza malik ruhanilər də saxlanılıb.

**Növbəti məhkəmə prosesi sentyabrın 25-ə təyin olunub. Prosesdə vəkillərin çıxışları olacaq.**

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 194 (6807) 21 sentyabr 2017

# Bìləsuvarda dəhşətlì qəza - 5 ölü

## Sürücünün çətin duruma düşən həmkarına qəsdən yol verməməsi 5 nəfərin həyatına son qoydu

**Biləsuvarda 5 nəfərin ölümü ilə nəticələnən ağır yol-nəqliyyat hadisəsi ilə bağlı bir nəfər saxlanılıb. Bu barədə Trend-ə Baş Dövlət Yol Polisi İdarəsindən məlumat verilib.**








Məlumatda bildirilir ki, hadisə "Mercedes C-Class" markalı avtomobilin sürücüsünün digər avtomobilə yol verməməsi səbəbindən baş verib. Belə ki, sentyabrın 20-də səhər saatlarında Bakı-Ələt-Astara yolu ilə hərəkət edən "Mersedes E-Class" markalı avtomobil "Mercedes C-Class" markalı avtomobili ötüb və həmin avtomobilin qarşısında hərəkət edən "KamAZ" markalı yük maşınını da keçmək istəyib. Bu an qarşı istiqamətdə hərəkət edən başqa bir minik avtomobili ilə qarşılaşıb və sürət həddini azaldaraq KamAZ-la "Mercedes C-Class"ın arasına keçməyə cəhd edib. Həmin vaxt KamAZ-ın arxasınca hərəkət edən "Mercedes C-Class" markalı avtomobilin sürücüsü "Mercedes E-Class" markalı avtomobilin sürücüsünə yol verməyib. Nəticədə "E-Class" KamAZ-a çırpılıb və hadisə nəticəsində 5 nəfər həlak olub.

Faktla bağlı Daxili İşlər Nazirliyinin İstintaq və Təhqiqat Baş İdarəsinin Yol-nəqliyyat hadisələrinə dair işlər üzrə istintaq və təhqiqat şöbəsində Cinayət Məcəlləsinin 263.3-cü (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozmaq, ehtiyatsızlıqdan iki və daha artıq şəxsin ölümünə səbəb olma) maddəsi ilə cinayət işi başlanıb. Hadisəni törətməkdə təqsirli bilinən "Mercedes C-Class" markalı avtomobilin sürücüsü saxlanılaraq istintaqa cəlb edilib.

Hadisə nəticəsində ölənlər Lənkəranın Gərmətük kənd sakinləri - Samir Əzizulla oğlu Qasımov və Çingiz Xudaverdi oğlu Nağıyev, Kosalar kənd sakinləri - Əhmədov Mahir Bəşir oğlu, onun anası Pəri Əhmədova və qohumu İlhamə Kazımovadır.

Qeyd edək ki, ötən iki gündə Salyan və Biləsuvar rayonlarında baş vermiş dəhşətli qəzalar nəticəsində 9 nəfər dünyasını dəyişib. **Baş Dövlət Yol Polisi İdarəsinin (DYP) İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev** Avtosfer.az-a qəzalarla bağlı açıqlama verib. O bildirib ki, qəzalardan biri Ələt-Astara yolunun istifadəyə verilməmiş hissəsində baş verib. "Həmin yol istifadəyə verilməyib. Orada nə yol nişanları, nə xidmət, nə də digər təhlükəsizlik qaydaları ilə bağlı tədbirlər var. Həmin yola ümumiyyətlə, giriş qadağandır. Lakin sürücülər ayrı-ayrı yerlərdən bir cığır açaraq həmin yerə daxil olurlar. Nəticədə də bu cür qəzalar baş verir. Sürücülər bilmədiklərlər ki, bu yol istifadəyə verilməyibsə, orada təmir-tikinti işləri gedirsə ora girmək olmaz. Lakin hansı yolla olur-olsun həmin istiqamətə çıxmaq cəhdləri və "daha rahat" getmək istəyi sonda belə acı nəticələnə bilir".

**K.Əliyev Biləsuvar rayonu ərazisində 5 nəfərin ölümü ilə nəticələnmiş qəza ilə bağlı da açıqlama verib. Bildirib ki, "Kamaz" markalı avtomobilin arxasında gedən 99 GR 813 dövlət nömrə nişanlı "Mercedes C-klass" markalı avtomobil, 90 VJ 446 dövlət nömrə nişanlı "Mercedes E-klass" markalı avtomobili keçməyə cəhd edib:** "Lakin qarşı tərəfdən digər yük maşının gəldiyini görüb sağ zolağa çıxmaq istəyib. Bu zaman digər "Mercedes E-klass" ona yol verməyib. Nəticədə digər avtomobil onu arxadan vuraraq istiqamətini dəyişməyə və qarşıdan gələn yük maşını ilə toqquşmağa məcbur edib".

**K.Əliyev bildirib ki, sürücülərin bir-birinə yol verməməsi, yaxud mənasız prinsipiallıq aparması nəticəsində 5 nəfər dünyasını dəyişib:** "Sürücülər bir-birinə şərait yaratmalıdır. Bəzən görürsən ki, bir sürücü onu ötdüyünə görə digərini "cəzalandırmaq" istəyir. Bu isə ağır nəticələr verir. Çalışmaq lazımdır ki, belə hallarda, yəni kimsə ötmə əməliyyatı edirsə ona mane olmayasan. Sürücülərdən xahişimiz budur ki, diqqətli olsunlar ki, acı nəticələrlə üzləşməsinlər".




## "Girdiyim evlərdə oturub yemək yeyirdim"

### 7 dəfə tutulan maraqlı oğru

**ARB TV "Rezonans" verilişində 7 dəfə məhkum olmuş Rafael Ağamalıyevin həbsxana hekayətini təqdim edib. Rafael Ağamalıyev (cəzası: 3 il 6 ay, ümumi 24 il): "Birinci dəfə divarı sökmüşəm. Kondisioner, sərinkeş, televizor və s götürüb satmışam. Daha sonra pulum bitib, yenə ora girmişəm.**

Bu dəfə də götürüb satanda polis əməkdaşları yaxınlaşıb satdıqlarımın sənədini soruşdu. O zaman tutuldum və 3 il iş aldım. Hər dəfə cəzam bitib çıxanda məhkum yoldaşlarım mənimlə zarafat edib deyir ki, sən məzuniyyətə gedirsən. Artıq bu, 7-ci məhkumluğumdur. Hər dəfə 2, 3, 4 il tutulmuşam. Çıxanda həmişə istəmişəm evlənim, iş qurum və s. alınmayıb. Çox peşman olmuşam. Bir dəfə içəridən çıxanda ticarətlə məşğul olmağa başladım, öz başımı saxlayırdım. Polis rəisi də tanıyırdı məni, görürdü. Sonra bir məhbus yoldaşım tapdı məni, dedim ki, gəl ticarət edək. Razılaşmadı, məni də çəkdi yanına, oğurluğa getdik. O tutuldu, mən yox. Elə ev olub ki, qızıl, pul və s. çox şey oğurlamışam. Bir evdə divardan asılmış tros sep götürmüşəm. Haradasa qiyməti 10 min olardı, mən su qiymətinə satmışdım. Bir dəfə də bir evə girmişdim, kameranın kabelini kəsdim girdim. Bir də gördüm ki, mühafizə polisi gəldi. Sən demə, mən həbsdə olanda hər şey dəyişilibmiş. Kameranın kabelini kəsəndə 4-5 saat "zaryadka" saxlayır və bir ucu mühafizə polisinə bağlıdır. Gəlib tutdular. Keçən dəfə də bir qoyun oğurladım maşına qoydum. Gördüm ki, polis məni güdür. Maşında yoxlanış etdilər, qoyunu görəndə dedim ki, özümünküdür. İnanmadılar, bölməyə apardılar, sonra da 4 il iş verdilər. Ailəm deyirdi ki, bir də tutulsan, yanına gəlməyəcəm, amma dözmürlər gəlirlər. Oğurluğa girəndə öz evim kimi girirdim. Dağıdırdım, yığırdım, hətta mətbəxtdə yemək olanda oturub yeyirdim. Bir dəfə ev sahibi evdə yatdığı halda oturub yemək yedim, soyuducudan əti, ərzaqları götürüb apardım. Onsuz da oğurladığım şeylərin pulu ilə ərzaq alacaqdım, buradan götürdüm. Heç kim oğurluq etməsin, hər yer kameradır. Elə vaxt olub ki, 10 dəfə etmişəm tutulmamışam, 11-ci də tutulmuşam".

## Moskvada azərbaycanlı bıçaqlandı

**Rusiyada azərbaycanlı qətlə yetirilib. Hadisə sentyabrın 19-da Moskva şəhərindəki ''Sodovod'' bazarında, ''Uzbekskaya kuxnya'' restoranında törədilib.**

"Qaynarinfo" xəbər verir ki, həmyerlilərimizin criminal.az saytına verdiyi məlumata görə, öldürlən şəxs əslən Şamaxıdan olan gəncdir.

Restoranda yeyib-içən tanışlar arasında dava düşüb. Qətlə yetirlən şəxs dava edənləri sakitləşdirmək istəyərkən bıçaqla ürəyindən iki zərbə alıb. O, hadisə yerində keçinib.

Cinayəti törədən şəxslər ''Priora'' markalı avtomobillə qaçıblar. Qatil gedərkən cinayətdə istifadə etdiyi bıçağı restoranın qarşısındakı kanalizasiya quyusuna atıb.

Hadisə yerində hüquq-mühafizə orqanı əməkdaşları araşdırma aparır. Bütün ''Priora'' markalı avtomobillər saxlanılaraq yoxlanır.

## Bakıda yolu keçən qadını maşın vurub öldürdü

**Bakıda piyadanın vurulması ilə nəticələnən yol qəzası baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, sentyabrın 19-da saat 11 radələrində Nərimanov rayonu H.Əliyev prospektində Bakı şəhər sakini Elnur Məmmədov idarə etdiyi "VAZ-2104" markalı avtomobillə yolu keçən paytaxt sakini Pakizə Balayevanı vurub.**

Nəticədə piyada xəstəxanaya aparılarkən yolda ölüb.

## Azərbaycanda at yeniyetmənin cinsiyyət orqanını dişlədi

**Azərbaycanda rayonlardan birində 13 yaşlı oğlan uşağını at dişləyib. Uşaq cinsiyyət orqanını itirmək təhlükəsi ilə üz-üzə qalıb.**

Musavat.com-un medicina.az-a istinadən verdiyi məlumata görə, bu barədə cərrah Fuad Hüseynov məlumat verib. O bildirib ki, at uşağın cinsiyyət orqanını demək olar ki, qoparıb. Həkim ailənin istəyi ilə pasiyentinin ad və soyadını, hansı rayondan olduğunu anonim saxlasa da, qeyd edib ki, xəsarət alan uşaq hadisədən sonra rayonda xəstəxanaya çatdırılıb. Onun xayasından bir neçə tikiş atıldıqdan sonra, uşağı təcili Bakıya göndəriblər. Ailə paytaxt xəstəxanalarından bir neçəsində uroloq-cərrahlara müraciət edib, lakin gərəkli müdaxilə edilməyib. Hadisədən 16 saat keçdikdən sonra 13 yaşlı oğlan Mərkəzi Klinikanın Uşaq Cərrahiyyə Şöbəsinə gətirilib.

F.Hüseynovun sözlərinə görə, vaxtında müdaxilə edilmədiyindən, uşağın cinsiyyət orqanında ciddi əyilmə, göyərmə və şişkinlik yaranıb, nekroz başlayıb: "Sidik kanalı zədələndiyindən sidiyə gedə bilmirdi. Riskli əməliyyat idi. Bütün risklər valideynlərə başa salındı. Təcili əməliyyata alınan uşağın zədələnmiş sidik kanalı bərpa olundu, ereksiyaya cavabdeh olan kavernalar yuyuldu, bərpa olundu, xaya düzgün tikildi və kateter qoyuldu. Antibiotik müalicə başlanıldı. 1 həftədən sonra uşaq normal sidiyə getməyə başladı. Əməliyyatı mənimlə birlikdə uşaq urologiyası uzmanları Allahverdi Musayev icra edirdi".

**Uroloq-cərrah bildirib ki, tibdə bu patologiya penul fraktür adlanır:** "Bu vaxt ereksiyaya cavabdeh olan kavernalarda zədələnmə olur. Amma bu dəfə nadir görülən hallardan biri sidik kanalının zədələnməsi idi. Ona görə əməliyyat çətin hesab oluna bilər. Hazırda uşağın vəziyyəti yaxşıdır. Cinsiyyət orqanında xarici heç bir qüsur qalmayıb, sidiyə getmə və ereksiyasında da problem yoxdur. Bu, ilk fakt deyil. Analoji hal bir neçə il əvvəl də olmuşdu. Uşağın cinsiyyət orqanından it dişləmişdi. Onu da əməliyyat etmişdik. İndi böyük oğlandır".

Xatırladaq ki, analoji hal 2014-cü ildə Biləsuvar rayonunda olmuşdu. İt 2004-cü il təvəllüdlü Fərid Ağakişiyevin cinsiyyət orqanını dişləmişdi.

## Ağcabədili türkiyəlini rayona qonaq apardı, döyüb pulunu əlindən aldı

**Ağcabədi sakini Türkiyə vətəndaşını rayona apararaq döyüb və pullarını əlindən alıb. Bu barədə Ağcabədi Rayon Polis Şöbəsinə müraciət edən Türkiyə vətəndaşı Yaqub Özdilək özü məlumat verib.**

O, şikayətində bildirib ki, Bakı aeroportunda Ağcabədi sakini olan Elməddin adlı şəxslə tanış olub. Sonra həmin şəxs onu Ağcabədiyə qonaq aparıb. Burada isə Türkiyə vətəndaşını döyərək 8 min Türk lirəsi, 2500 ABŞ dolları və 3000 min manatını alıb.

Faktla bağlı Ağcabədi Rayon Polis Şöbəsində araşdırma aparılır.("Report")

# Bu şənbə dünyanın sonudurmu...

## Yeni iddia, ilginc detallar və elmi araşdırmaların maraqlı nəticəsi

**Planet və ulduzların hərəkətlərini incələyən komplo teoristləri İncildə yer alan bir kəhanətə istinad edərək, 23 sentyabr 2017-ci ildə qiyamət qopacağını iddia edib. Son bir neçə ildə qiyaməti heç cür “qopara bilməyənlər” bu dəfə də 23 sentyabr 2017-ci il tarixinə işarə verib. Müqəddəs kitablarda yazılır ki, qiyamət gününü ancaq günahkar insanlar görə biləcək.**



“Vəhy 12 işarəti” olaraq bilinən yeni bir teoriya isə qiyamətin Günəşlə geyinmiş, ayaqları altında Ay, başında da 12 ulduzlu tac olan bir qadının görünməsi ilə bərabər qopacağını iddia edir. Komplo teorisyenləri şir və qız bürclərini astronomik sürətinin planetlərlə bərabər yaratdığı pozisiyanın bu kəhanəti ortaya çıxardığını deyir. Bu ilginc teoriyanı müdafiə edənlər kəhanətdə haqqında danışılan qadının qız bürcünü, ulduzlu tacı da şir bürcünün təmsil etdiyini bildirirlər.

23 sentyabr 2017-ci ildə Ay qız bürcünün ayaqları altında yer alacaq və Günəş ulduzu boyunca keçidini edəcək. Bu teoriyanı müdafiə edən və yayan internet saytları hesab edir ki, sözügedən hadisə 7 il davam edəcək böyük sıxıntıların da içində olacağı iki mərhələli bir zaman kəsimində baş verəcək. Bu müddət ərzində insan oğlunun böyük təbii fəlakətlər yaşayacağı da fəlakət xəbərçilərinin dedikləri sırasındadır.

**Ümumi xətləri etibarilə İncildə yer alan teoriya əslində ümumən xristian aləmi tərəfindən rədd edilir. Xristianlar qiyamətin əlaməti olaraq İncildə yer alan 2 fikri mənimsəyirlər.**

**1.** Selaniklilər 4:16-17-yə görə, cənnət tanrının həyatda olanları buludlara alıb, götürəcəyi günlərə qədər açıq qalacaq.

**2.** Petrus 3:10-da isə yazılır ki, “Amma Rəbbimin günü oğru kimi gələcək. O gün göylər böyük bir gurultu ilə ortadan qalxacaq, maddi nəsnələrin hamısı yanıb kül olacaq, Yer üzündə edilmiş hər şey yanıb tükənəcək”.

Amma qiyamətə inanmaq “Vəhy 12 işarəti”nə inanmağı vacib bilmir. Bu teoriya amerikalı - youtube kanalı sahibi Villiam Tapley tərəfindən 2011-ci ildə yüklənən və sürətlənmədən bəhs edən “Stellarium” adlı bir video ilə ortaya atılıb.

Bir “araşdırmaçı” olan David Meade, “Planet X: The 2017 Arrival” adlı kitabında dünyanın bu il 23 sentyabrda yox olacağını iddia edir. Bununla da kifayətlənməyən Meade dünyanın sonuna qarşı varlıların indidən sığınacaqlar hazırladıqlarını, yəni, onların da bu həqiqətin fərqində olduğunu, ancaq biz sıradan insanlarla paylaşmaqdan qaçdıqlarını iddia edir. Cəmiyyətin qaranlıqda buraxıldığı və beləcə təşviş atmosferinin yaradılmasına da mane olduqlarını sözlərinə əlavə edib.

**Meadenin sübutları isə belədir:**

- Zəlzələlərin sayı və çoxluğu dramatik bir şəkildə artır.
- Fırtınaların sayı da, miqyası da, növləri də arta-arta gedir. Dünya üzərində çatların sayı artır. İsti hava dalğalarının müddəti də, sərtliyi də artır.

23 sentyabr 2017-ci ildə Ay, Virgo (Qız) ulduzunun tam altında sürət götürəcək. Günəş bu ulduzu örtəcək və yalnızca 2017-ci ildə yaşanan bu hadisə nəticəsində bir doğuş yaşanacaq. Gupiter də 9-9-17-də doğmuşdu.

Bir sonrakı hadisədə isə yeni doğan bu “Planet X” (X Gezegeni) səmanı qapayacaq və dünya ilə Ay bir sonrakı bütöv aya qədər kölgədə qalacaq.

“Qiyamət günü sığınaqçısı” Robert Vicino da Nibirunun gəldiyini deyir. Varlıların da həyatda qalmaq üçün sığınacaqlar hazırladığını deyən Vicino aşağıdakıları vurğulayıb: “Rusların nəyə görə 40 milyon nəfərlik bir sığınacaqları var, heç düşündünüzmü?

Vicino eyni zamanda İncilin də qiyamətdən danışdığını bir daha xatırlatma ehtiyacı hiss edir. “Həyatda qalmısız və yaralanmısızsa, radiasiyadan yanmısızsa küçələrdə siçanlar və digər insanlarla aclıqla mücadilə edərək, dünyadakı cəhənnəmdə həyatda qalmağa çalışacaqsız” yazan Vicino bununla da işin nə qədər ciddi səviyyəyə çatdığını göstərir...

Numerologiyaçı David Meadenin, “X Gezegeni-2017 Gəlir” (Planet X-The 2017 Arrival) adlı kitabında dünya ilə toqquşacağını iddia etdiyi Nibiru adlı planetin Cənubi Kutbu bölgəsindən yaxınlaşdığı səbəbdən NASA tərəfindən görülmədiyinə inananlar var.

### NASA təkzib etdi

Bu arada ən sivil mədəniyyətlərdən bu günə qədər fəlakət ssenariləri ilə əlaqələndirilən Günəş tutulması bu dəfə də mübahisələr yaradır. Ən populyar ssenarini məşhur ingilis numeroloqu Deyvid Meade ortaya atdı və “Nibiru” adlı sirli, böyük bir planetin Dünya ilə toqquşaraq sonunu gətirəcəyini iddia etdi. NASA isə bunu dərhal yalanladı.

### 2012-ci il xatırlatması - o zaman da belə demişdilər...

“Yeni Müsavat” isə xatırladır ki, dünyanın sonu ilə bağlı bundan öncəki ən böyük səs-küy 2012-ci ilin 21 dekabrında yaşanmışdı. Oktyabr ayından etibarən dünyada ajiotaj baş alıb getmiş, teoriyalar çoxalmışdı. Hətta həmin vaxt dünyada dağılmayacaq iki məkan olaraq İzmirin Şirincə kəndi və Fransanın qərbindəki bir kənd göstərilmişdi. İnsanlar 21 dekabrda “sağ qalmaq üçün” axın-axın ora gedirdilər. Olaydan bir gün sonra, yəni 22 dekabrda isə NASA “Nə üçün dünən dünya yox olmadı” başlıqlı bir yazı hazırlayaraq, baş verənləri təhlil etmişdi. Yazını yada salaq: “Günəş bütün insanlığı yox edəcək. Qiyamət hekayələri yayanların çox bilmədiyi bir mövzudur bu. Halbuki Günəşin fəaliyyətinin hər 11 ildə bir ən yüksək dərəcəyə çıxması və yenidən normala dönməsi, eləcə də Günəş döngüsü deyilən bu müddətdə Günəşin fəaliyyətləri və onun üzündəki qara ləkələrin sayında dəyişiklik müşahidə edilir. Bu zaman Günəş fırtınaları və partlamalarının da artdığı deyilən tezislər sırasındadır. Bu partlamaların yaydığı elektromaqnit dalğalar dünyanın atmosferinə çataraq telekommunikasiyaya təsir edir. Bu kosmik parçalar eyni zamanda cənub işıqları olaraq bilinən təbiət hadisəsinə səbəb olur. 21 dekabrda dünyanı qızardacaq bir günəş partlaması gözlənmir. Bu ilin noyabr ayında NASA-nın atmosfer üzrə mütəxəssisi Lika Guhathakurta deyib ki, dünyaya ciddi şəkildə təsir edəcək bir günəş fırtınası gözləmirlər”.

Başda çinlilər olmaq üzrə 21 dekabrda falçıları əhatə edən bu qorxuya görə dünya 21 dekabrdan üç gün əvvəl qaralmağa başlamalı və sonra onun sonu gəlməli idi. Həmin inanca görə, dünya 23-25 dekabrda qaranlığa qərq olacaq və sonra yox olacaq. Bəziləri hesab edirdi ki, bu vəziyyət Günəş və dünyanın ilk dəfə bir sıraya gəlməsinə görə qaynaqlanacaq. Beləcə, “New Age” axınının bir parçası olan xəyali Foton qurşağına girəcəyik.

Təşkilatdan deyiblər ki, dünyanın sonu ilə bağlı iddialar şumerlər tərəfindən ortaya atılıb. Onların dediyinə görə, bu iddia Nibiru adlı bir planetin dekabr ayında dünya ilə toqquşacağı ehtimalına söykənir. NASA yetkililəri bu toqquşma üçün daha öncə 2003-cü ilin may ayının versiya kimi irəli sürüldüyünü, lakin bu, baş verməyincə 2012-ci il dekabr ayının variant kimi səsləndirildiyini deyib.

**Nibiru planeti ilə bağlı əllərində heç bir ip ucu olmadığını deyən NASA yetkililəri sayta bunları yazıb:** “Əgər bu planet həqiqət olsaydı və dünya ilə toqquşacaq bir nöqtədə bulunsaydı, bunu ən azı 10 il əvvəldən bilərdik. Eyni zamanda həqiqətən də 21 dekabrda dünya ilə toqquşacaq olsaydı, Nibirunu indidən göy üzündə çılpaq gözlə görə bilməliydik.

Gördüyünüz kimi, bu iddia zaman-zaman ortaya atılsa da, hər zaman şayiədən uzağa getmir. İnsanların çox az qismi buna inanır, böyük hissəsi isə macəra üçün yazılanları, deyilənləri diqqətlə izləyir. Bütün hallarda qazanan isə işbazlar olur. Kimlərsə özünə tətil proqramı hazırlayır, bir başqaları bol-bol alış-veriş edir... Psixoloq yanına gedib də, depressiyadan qurtulmaq istəyənləri də bu kateqoriyaya aid etsək, yanılmarıq.

**Dünya isə dönməkdə, bizləri yaşatmaqda davam edir. Şayiələr hər zaman var və bu, insanlığın vaz keçə bilmədiyi nəsnələrdəndir.**

❑ SEVİNC



## İŞİD-ə qoşulan azərbaycanlı ailənin uşaqları kimsəsiz qalıb

**İki azərbaycanlı körpə valideynlərinin məsuliyyətsiz davranışları ucbatından uzaq ölkədə kimsəsiz qalıb. Onlar İraqda müharibədə doğmalarını itirərək valideyn himayəsindən məhrum olublar və Bağdaddakı uşaq sığınacağında məskunlaşıblar.**

RT telekanalının əməkdaşları iki yaşlı Xədicə və üç yaşlı Abdullanı həmin sığınacaqda çəkiblər. Valideynləri onları “İslam dövləti”nin (İŞİD) nəzarətində olan ərazilərə aparıblar. Uşaqlar özləri haqqında heç nə deyə bilmirlər. Amma videoda danışıqlarlından da aydın görünür ki, bu qardaş-bacı azərbaycanlı uşaqlardır.

“Biz bu kadrları Bağdaddakı sığınacaqda çəkmişik. Onları bu sığınacağa sentyabrın 12-də Təl-Afərdən gətiriblər. Onların şəkillərini mənə əvvəlcə Ziyad Səbsəbi (Ramzan Kadırovun Federasiya Şurasındakı nümayəndəsi. O, İŞİD-in nəzarət etdiyi ərazilərdəki bütün uşaqları toplayaraq Rusiya Federasiyasına göndərir - M.) göndərmişdi” - deyə telekanalın əməkdaşı Sputnik Azərbaycan-a bildirib.

Videodan görünür ki, müxbir uşaqlardan rus dilində “Sonuncu dəfə ata və ananı nə vaxt görmüsən?” (Koqda v posledniy raz videl papu i mamu?) sualına Abdulla “papa-mama ölüb” deyə cavab verib. “Bəs nənə, baba? Onları görmüsən?”, “Sənin yaşadığın şəhər necə adlanır?” suallarına isə Abdulla başını yelləyərək “bilmirəm” cavabı verib.

Bundan əlavə, balaca Abdulla ətrafdakı digər uşaqlarla Azərbaycan dilində danışır, onlara nəsə anlatmaq, soruşmaq istəyir. Həm də çox sərrast azərbaycanca...

Telekanalın əməkdaşları xahiş edirlər ki, əgər bu şəkildəki uşaqları tanıyan varsa, onlara xəbər versinlər. Sputnik Azərbaycan bu uşaqları və ya qohumlarını tanıyanlardan info@sputnik.az, novosti@sputnik.az ünvanlarına, eləcə də Sputnik Azərbaycan-ın “Facebook” (və ya bu) ünvanlarına, habelə redaksiyanın saytda göstərilən şəhər telefonları vasitəsi ilə də məlumat verməyi xahiş edir.

**Biz bu uşaqları xilas edə, ölkəmizə gətirib doğmalarına təhvil verə, yaxud da öz ölkəmizdəki uşaq evlərində böyümələrinə kömək edə bilərik!**

YENİ MÜSAVAT

Son səhifə

N 194 (6808) 21 sentyabr 2017



# Oğru pul tələb etdi, amma mağaza sahibi çay içdiyi üçün onu gözlətdi

**Britaniyanın Kinqston-apon-Xall şəhərində maraqlı qarət hadisəsi baş verib. Belə ki, satıcının piştaxtasına yaxınlaşan oğru ondan kassanı boşaltmağı tələb etsə də, sonuncu həmin anda çay içdiyi üçün ona gözləməsini tapşırıb. Lenta.ru saytı "The Telegraph"a istinadən xəbər verir ki, satıcı Karamjit Sanqa bildirib ki, oğru ondan bütün pullarını tələb edəndə o, olduqca sakit davranıb: "Mən ona öncə cavab verdim ki, çay içdiyim üçün gözləsin. Amma o, növbəti dəfə eyni şeyi tələb edəndə mən kassanın yanındakı bıçağı götürüb onun üzünün qabağında oynatdım. Bu, ona qorxub qaçması üçün kifayət etdi. Mən ona ziyan vermək istəməzdim. Sadəcə bircə dəfə qorxutmaq bəs etdi ki, geri çəkilsin".**

Polis tez bir zamanda şübhəli şəxsi yaxalayıb. Bu, şəhər sakini Stüart Qlison olub. Şəhər məhkəməsi onu oğurluğa cəhdə, qanunsuz silah daşımağa, saxta pullar saxlamağa görə ittiham edərək, 5 il müddətinə azadlıqdan məhrum edib.

# İnəyin kəllə vurduğu vertolyot yandı

**Avstraliyanın Kvinslend ştatında vertolyot inəklə çarpışması nəticəsində dağılıb. Bu barədə lenta.ru "Brisbane Times"a istinadən xəbər yayıb. Vertolyotu olduqca aşağıdan sürən pilot bu zaman inəyin buynuzlarına ilişib. Bir neçə dəfə bu maneədən qurtulmaq üçün cəhd göstərsə də, buna nail olmayıb və nəticədə idarəetməni itirib.**



Daha sonra isə təyyarə qəfil eniş edib və yanıb. Hadisə yerinə gələn yanğınsöndürənlər vertolyotu söndürməyə çalışsalar da, onlar gələnə qədər yanğının əsas izləri aradan qaldırılmışdı və vertolyot sıradan çıxmışdı. İkinəfərlik yüngül vertolyotlar Avstraliyada sürüləri qovmaq üçündür. Yerə yaxın məsafədən uçan vertolyotlar bir-birindən aralı düşən sürü üzvlərini toparlamaq məqsədi güdür. Hər il ölkədə onlarla "uçan çobanlar" məhv olur.

# Toyuğun biri 1000 manata - qızıl yumurtlamır

**Antalyanın Manavqat bölgəsində 7 il öncə mebel ustası işini atıb, öncə uşaqları üçün kənd toyuğu və yumurta yetişdirən Abdülhakim Dağlı hazırda gələn sifarişlərin çoxluğundan əziyyət çəkir. Hazırda damında 10 ayrı cinsdən olan yüzə yaxın toyuğu və xoruzu olan Dağlı bəzi cins toyuqlarını 1000 manatdan satır. Dağlının müştəriləri arasında İraq, İran, Azərbaycan və Gürcüstan kimi ölkələrin vətəndaşları var. Dağlı deyib ki, toyuq-xoruzların çoxunu xaricdən gətirdir və burada özəl yetişdirir. Canlı satışlarla maraqlanan insanlar isə sosial media vasitəsilə onunla əlaqə yaradırlar.**



# Özünü gənc hiss edənlər daha uzun yaşayır

**İsveçrəli elm adamları insanın həyat müddətinə təsir göstərən bir sıra cəhətləri öz tədqiqatlarında işıqlandırıblar.**

"PLos One" jurnalında dərc olunan araşdırmaya görə, insanın özünü necə hiss etməsi, onun həyat müddətinə bilavasitə təsir göstərir. Siqaret istifadəsi, aşağı təhsil və ya xəstələnmələr isə insan ömrünün qısa olmasına şərait yaradır.

Tədqiqat müddətində Zürix universitetinin elm adamları, Dr. Matthias-ın rəhbərliyi ilə müxtəlif sorğular keçiriblər.

Uzun müddət tədqiqatlarda iştirak edənlərdən özlərini hər gün necə hiss etmələri soruşulub. Onlara "çox yaxşı", "yaxşı", "qaneedici", "pis" və "çox pis" variantlarından birini seçmələri istənilib. Nəticədə aydın olub ki, özlərini "çox pis" hiss edənlər xoşbəxt və uzunömürlü olmur, "çox yaxşı" hiss edənlər isə 3,3 qat uzun və firavan həyat yaşayırlar. Qadınlarda özlərini "çox pis" hiss etmək ölüm riskini, "çox yaxşı" hiss etmək çox yaşamaq şansını 1,9 qat çoxaldır.




**QOÇ** - Üzərinizə düşən öhdəliklərə məsuliyyətlə yanaşsanız, bütün planlarınız reallığa yaxınlaşacaq. Buna baxmayaraq, yersiz risklərə də yol verməməlisiniz. Ziyarətgahlara gedin.

**BUĞA** - Bu gün bütün ixtiyar öz əlinizdə olduğundan ölçülü-biçili hərəkət etməlisiniz. Əgər müsbət müstəviyə həvəs göstərsəniz, günün sonuna qədər ovqatınız yüksək olacaq. Çılğın olmayın.

**ƏKİZLƏR** - Yaxşı olar ki, Tanrı qanunlarını pozmayasınız. Əks təqdirdə bu günü gərgin şəkildə başa vuracaqsınız. Ulduzlar ikitərəfli əməkdaşlıqda böyük uğurlardan xəbər verir.

**XƏRÇƏNG** - Aldanma ehtimalınız böyüdüyündən tədbirli olmağınız vacibdir. Ola bilsin ki, ətrafınızdakılar pulla bağlı sizə kələk gəlsinlər. Axşamı ailə-sevgi münasibətlərinə həsr edin.

**ŞİR** - Şəxsi işlərinizdə müsbət dönüşün yaranacağına təminat verən ulduzlar vaxtınızı boş yerə itirməməyi tövsiyə edir. Nahardan sonrakı əsas diqqətinizi bütünlüklə sevgiyə həsr edin.

**QIZ** - Yeni təkliflər ala bilərsiniz. Lap səhər saatlarından bu şansa hazır olun ki, nəticədə qalib gələsiniz. Pula görə də narahat olmayın. Çünki sevincli vaxtınızın yetişməsinə az qalıb.

**TƏRƏZİ** - Məhsuldarlığınız artdığından bugünkü öhdəlikləri layiqincə yerinə yetirə bilərsiniz. Qərarlarınızda sərt, eyni zamanda qərəzsiz olun. Səfərə çıxmaq fikrinizi reallaşdırın.

**ƏQRƏB** - Əsas uğurunuz maliyyə sahəsində mümkündür. Odur ki, kisənizi hazır tutun. Həmkarlarınızla münasibətlərinizə xələl gəlməsin deyə, qalmaqallı situasiyalara həvəs göstərməyin.

**OXATAN** - Təxminən saat 13-ə qədər iştirakçısı olduğunuz situasiyalar ovqatınıza mənfi təsir göstərə bilər. Buna baxmayaraq təmkin göstərməlisiniz ki, hər şey sakit ötüşsün. Varlanma ehtimalınız da var.

**OĞLAQ** - Aktiv gün olmadığından nəzərdə tutduğunuz planları təxirə salın. Gücünüzü daha çox ailə-məişət problemlərinin həllinə yönəldin. Şəxsi büdcənizin artma ehtimalı da böyükdür.

**SUTÖKƏN** - Daha çox fəaliyyət göstərdiyiniz idarə və müəssisələrdə ehtiyatlı olmalısınız. Boş yerə mübahisə yaratsanız, nüfuzunuza xələl gələcək. Axşama doğru kosmik fon xeyrinizə işləyəcək.

**BALIQLAR** - Ulduzlar bu gün xeyli yorulacağınızdan xəbər verir. Amma nahart olmamalı, gördüyünüz işlərdən zövq almalısınız. Nahardan sonra sizə maddi borcu olanlara müraciət edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Başqası ağlayanda onun gözünə toxunmayın



**İnsan orqanizminin ən həssas və əhəmiyyətli orqanlarından biri gözdür. Alimlər deyir ki, heç vaxt başqa birinin göz yaşını silməyin. Əgər həmin insanın gözündə qızartı, qapaq şişkinliyi və sulanma varsa, bu, yoluxucu ola bilər. Əgər təmas etmisinizsə, sabunla əlinizi yaxşı yuyun. Əsasən rəngli gözlü insanlar günəş işığına qarşı daha həssas olurlar. Buna görə onlarda qızartı daha çox olur və onların günəş eynəyindən istifadə etmələri daha vacibdir. Günəş işıqlarına çox məruz qalmaq göz linzasında qalınlaşma, katarakt və görmə nöqtəsində həssaslıq yaradır. Günəşə qarşı həmişə günəş eynəkləri stifadə edin.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.